AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

ISSN 2709-247X (Print)
ISSN 2709-2488 (Online)

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

ELMİ-METODİK JURNAL
XÜSUSİ BURAXILIŞ

## MAGİSTR TƏDQİQATLARI

2026 / 1

# JOURNAL of PRESCHOOL and PRIMARY EDUCATION

SPECIAL ISSUE
MASTER’S RESEARCH

Jurnalın indekslənməsi / Indexed by

Azərbaycan Respublikasının
Prezidenti yanında
Ali Attestasiya Komissiyası

## MƏKTƏBƏQƏDƏR və İBTİDAİ TƏHSİL

Elmi-metodik jurnal. 1970-ci ildən «Azərbaycan məktəbi» jurnalına əlavə kimi nəşr olunmağa başlayıb. Jurnal 2000-ci ildən etibarən Azərbaycan Respublikası Təhsil Nazirliyinin elmi-metodik nəşri kimi fəaliyyətini davam etdirir. ISSN 2709-247X (Print) lSSN 2709-2488 (Online)

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 05 may 1997-ci il tarixli Nizamnaməsi ilə təsdiq edilmiş, Ədliyyə Nazirliyində «İbtidai məktəb və məktəbəqədər tərbiyə» adı ilə dövlət qeydiyyatına alınmışdır. Qeydiyyat şəhadətnaməsi № 544. 2009-cu ildə jurnalın adı dəyişdirilərək «Məktəbəqədər və ibtidai təhsil» adlandırılmışdır (AR Ədliyyə Nazirliyinin 11/648 №-li, 20.05.2009-cu il tarixli məktubu).

Jurnal məktəbəqədər və ibtidai təhsil sahəsində elmi-nəzəri məqalələrin, müasir dövrün tələblərinə uyğun milli və xarici təcrübəni praktik və nəzəri baxımdan əks etdirən araşdırma materiallarının nəşrini həyata keçirir. Jurnalda təlimin məzmununu, tərbiyəçi və müəllimlərin, psixoloq və defektoloqların pedaqoji təcrübəsini ümumiləşdirən məqalələrə yer verilir. Müasir təlim texnologiyalarının, pedaqoji innovasiyaların təbliği, ailə-məktəb, müəllim-şagird, tərbiyəçi uşaq münasibətlərinin pedaqoji-psixoloji aspektlərini əks etdirən yazıların dərci jurnalda daim diqqət mərkəzində saxlanılır. Məqalələr Azərbaycan, rus, ingilis və türk dillərində dərc olunur. Müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi-metodiki nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

---

## PRESCHOOL and PRIMARY EDUCATION

Scientific and methodological journal. It has been published since 1970 as a supplement to the «Azerbaijan Journal of Educational Studies». The journal has been operating as the scientific-methodical publication of the Ministry of Education of the Republic of Azerbaijan since 2000. ISSN 2709-247X (Print) ISSN 2709-2488 (Online)

The journal «Preschool and primary education» publishes scientific and theoretical articles in the field of preschool and primary education, research materials reflecting national and international experience from a practical and theoretical point of view in accordance with the modern requirements. The journal also publishes articles summarizing the content of training, the pedagogical experience of educators, teachers, psychologists and disability specialists. Promotion of modern learning technologies, pedagogical innovations and articles that reflect pedagogical and psychological aspects of family-school, teacher-student, educator-child relationships are always in the focus of the journal. Articles are published in Azerbaijani, Russian, English and Turkish languages. Articles that reflect the conflict of interests and have no scientific methodological purpose are not accepted. The journal is among the recommended scientific publications of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan.

---

© Məktəbəqədər və ibtidai təhsil / Preschool and Primary Education, 2026

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
**"Məktəbəqədər və ibtidai təhsil" jurnalı**

# MAGİSTR TƏDQİQATLARI
## XÜSUSİ BURAXILIŞ

**Redaktorlar**
**Böyükağa Mikayıllı**, "Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalı
**Xalidə Həmidova**, Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Buraxılışa məsul**
**Məhəbbət Əliyeva** ("Məktəbəqədər və ibtidai təhsil" jurnalı)

**Redaksiya heyəti**
**Cəfər Cəfərov** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Hikmət Əlizadə** (Bakı Dövlət Universiteti)
**Akif Abbasov** (Azərbaycan Respublikası Təhsil İnstitutu)
**Afət Süleymanova** (Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi)
**Səidə Abdullayeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Fəridə Xudiyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Könül Həsənova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Könül Mahmudova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Nailə Hüseynova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Şərafət Baxışova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Lalə Mürsəlbəyova** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Kəmalə Quliyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Vüsalə Əliyeva** (Azərbaycan Dövlət Pedaqoji Universiteti)
**Piralı Əliyev** (Bakı Slavyan Universiteti)
**Könül Abaslı** (ADA Universiteti)
**Aytəkin Axundova** (Bakı Slavyan Universiteti)
**İlahə İsgəndərova** (Bakı Dövlət Universiteti)
**Leyla Əliyeva** (Qarabağ Universiteti)
**Günay Qasımova** (Xəzər Universiteti)
**Rza Məmmədov** (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti)
**Günel Paşayeva** (Sumqayıt Dövlət Universiteti)
**Yuriy Petrushenko** (Sumy Dövlət Universiteti, Ukrayna)
**Volha Melnik** (Belarusiya Dövlət Pedaqoji Universiteti)
**Sergiu Musteata** (İon Kreanqe Dövlət Pedaqoji Universiteti, Moldova)

**Redaksiya**
Məhəbbət Əliyeva, Landa Cəfərova, Aytən Həsənova,
Arzu Nuruzadə, İradə Əsədova, Fəridə Əhmədova, Selcan Heydərova

**Redaksiyanın ünvanı:**
AZ 1118, Bakı şəhəri, Nəsimi küçəsi 37
Telefon: (+994) 50 344 96 76
E-mail: info@ppe-journal.edu.az

# REDAKTORLARDAN

Müasir dövrdə təhsil sisteminin inkişafı biliklərin sadəcə ötürülməsi ilə deyil, həm də öyrənənlərin hərtərəfli formalaşdırılması ilə ölçülür. Bu baxımdan, kurikulumların səmərəli tətbiqi təhsildə keyfiyyətin yüksəldilməsi, təlim prosesinin məqsədyönlü və nəticəyönümlü təşkil edilməsi üçün əsas istiqamətlərdən biri kimi çıxış edir. "Kurikulumun tərtibi və dizaynı" fənni məhz bu ehtiyacdan irəli gələrək gələcəyin müəllimlərinin peşəkar inkişafına, onların müasir təhsil tələblərinə uyğun formalaşmasına xidmət edir.

Bu fənn çərçivəsində tələbələr kurikulum anlayışının mahiyyəti, onun növləri, struktur komponentləri, təlim məqsədlərinin müəyyənləşdirilməsi, məzmunun təşkili, təlim strategiyaları və qiymətləndirmə mexanizmləri barədə sistemli elmi biliklər əldə edirlər. Eyni zamanda, bu biliklər praktik fəaliyyətlə möhkəmləndirilir – tələbələr dərs planlarının hazırlanması, təlim strategiyalarının tətbiqi, alternativ qiymətləndirmə vasitələrinin qurulması və dərs nümunələrinin təqdimatı vasitəsilə əldə etdikləri nəzəri bilikləri real pedaqoji situasiyalarda sınamaq imkanı qazanırlar. Bu proses onların analitik düşünmə, yaradıcı yanaşma, tənqidi təfəkkür və tədqiqat aparmaq bacarıqlarının inkişafına güclü təkan verir.

Tələbələrin tədqiqat nəticələrinin yer aldığı bu xüsusi buraxlışın hazırlanmasında əsas məqsəd Azərbaycan təhsil sistemində tətbiq olunan kurikulumunun mövcud vəziyyəti haqqında məlumatları ictimaiyyətə çatdırmaq, təhsil sahəsində hazırki vəziyyətin müxtəlif baxış bucaqlarından işıqlandırılmasına töhfə verməkdir. Bu buraxılış yalnız akademik fəaliyyətin nəticəsi deyil, həm də gələcək müəllimlərin cəmiyyətlə elmi dialoqunun bariz nümunəsidir.

Jurnalda yer alan beş tədqiqat işi müxtəlif sosial və peşəkar qrupları əhatə etməklə kurikulumun tətbiqinə dair çoxşaxəli və obyektiv mənzərə yaratmağa yönəlmişdir. Magistrlar tədqiqatlar apararkən valideynlər, müəllimlər, təhsil müəssisələrinin rəhbərləri, müvafiq sahə üzrə mütəxəssislər və beynəlxalq ekspertlərlə görüşlər keçirmiş, sorğular, müsahibələr və müşahidələr vasitəsilə zəngin empirik material toplamışlar.

Valideynlərlə aparılan sorğular onların kurikulum haqqında məlumatlılıq səviyyəsini, təlim nəticələrinə münasibətini və məktəblə əməkdaşlıq imkanlarını üzə çıxarmışdır. Bu araşdırmalar göstərir ki, təhsil prosesinin uğurlu olması üçün ailə-məktəb əməkdaşlığının gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Müəllimlərlə aparılan sorğular isə kurikulumun gündəlik tədris prosesində tətbiqi zamanı qarşıya çıxan çətinlikləri, mövcud metodiki yanaşmaları və qiymətləndirmə sisteminin praktik vəziyyətini daha aydın şəkildə göstərmişdir.

Təhsil müəssisələrinin rəhbər heyəti ilə aparılan sorğular kurikulumun idarəetmə baxımından tətbiqi, resursların bölüşdürülməsi və təhsil keyfiyyətinin təmin olunması məsələlərinə yönlənmişdir. Bu istiqamətdə əldə olunan nəticələr göstərir ki, kurikulumun effektiv tətbiqi üçün yalnız müəllimlərin deyil, bütövlükdə məktəb idarəetmə sisteminin də inkişaf etdirilməsi vacibdir.

Xüsusilə diqqətəlayiq məqamlardan biri də mütəxəssis və beynəlxalq ekspertlərlə aparılan sorğulardır. Bu istiqamətdə aparılan təhlillər Azərbaycan kurikulumunun beynəlxalq təhsil tendensiyaları ilə uyğunluğunu, onun güclü və inkişaf etdirilməsi zəruri olan tərəflərini müqayisəli şəkildə təqdim edir. Belə yanaşma milli təhsil sisteminin qlobal kontekstdə qiymətləndirilməsi və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir.

Bu xüsusi buraxılışın hazırlanması prosesində magistrlar yalnız tədqiqat aparmaq deyil, həm də akademik yazı qaydalarına riayət etmək, etik prinsipləri qorumaq və elmi nəticələri düzgün təqdim etmək bacarıqlarını nümayiş etdirmişlər. Bu baxımdan, jurnal onların həm nəzəri biliklərinin, həm də praktik səriştələrinin sintezi kimi çıxış edir. Xüsusi buraxılış Azərbaycan təhsil sistemində kurikulumun mövcud vəziyyətini əks etdirən, müxtəlif maraqlı tərəflərin baxışlarını bir araya gətirən və gələcək inkişaf üçün tövsiyələr təqdim edən elmi-praktik əhəmiyyətli bir nəşrdir. Ümid edirik ki, bu buraxılış təhsil ictimaiyyəti, tədqiqatçılar, müəllimlər və qərarverici şəxslər üçün faydalı olacaq, kurikulumların təkmilləşdirilməsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə öz töhfəsini verəcəkdir.

Böyükağa Mikayıllı,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
"Məktəbəqədər və ibtidai təhsil" elmi-metodik jurnalının baş redaktor əvəzi
Xalidə Həmidova,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təlim tədris mərkəzinin müdiri

İÇİNDƏKİLƏR / 2026 / 1

**Solmaz Allahverdiyeva, Xəyalə Balacayeva, Davud Dadaşov, Nəcəf Eminov, Ruqiyyə Məmmədova, Şirinxanım Şeydayeva**
Valideynlərin müasir təhsil proqramına münasibəti: Azərbaycan kontekstində empirik tədqiqat 9-40

**Aysu Əhmədova, Aytən Hüseynova, Müjgan Abdullayeva, Vüsalə İsfəndiyarova, Hənifə Yunuslu, Nigar Ağazadə**
Azərbaycan ümumtəhsil kurikulumu üzrə mövcud vəziyyət və təkmilləşdirilməyə ehtiyacı olan sahələr 41-58

**Nərgiz Yusifova, Kubra Mustafazadə, Səma Qarayeva, Aytac Mirzəyeva, Elnarə Məmmədzadə, Rüqayyə Təhməzli**
Müəllimlərin kurikulum islahatlarına münasibəti: empirik təhlil 59-69

**Günay Xanızadə, Zeynəb İsmayılzadə, Sima Abdullayeva, Nərmin Cavadova, Aytən İbrahimzadə, Zəhra İbrahimova**
Azərbaycanda mövcud kurikulumun təhlili və təkmilləşdirilməsi imkanları: mütəxəssis rəyi əsasında keyfiyyət tədqiqatı 71-95

**Nərmin Abdurəhimova, Mədinə Hüseynzadə, Sevil Qafarova, Mədinə Məmmədova, Fatimə Rəhimova, Ülkər Səfərli**
Tədris proqramının keyfiyyəti və beynəlxalq uyğunluğunun qiymətləndirilməsi 97-118

CONTENTS / 2026 / 1


**Solmaz Allahverdiyeva, Khayala Balacayeva, Davud Dadashov, Najaf Eminov, Rugiyya Mammadova, Shirinxanim Sheydayeva**
Parents' attitudes toward the modern educational curriculum: an empirical study in the context of Azerbaijan 9-40

**Aysu Ahmadova, Aytan Huseynova, Mujgan Abdullayeva, Vusala Isfandiyarova, Hanifa Yunuslu, Nigar Agazada**
Current state of the general education curriculum in Azerbaijan and areas requiring improvement 41-58

**Nargiz Yusifova, Kubra Mustafazade, Sema Garayeva, Aytac Mirzayeva, Elnara Mammadzada, Ruggaya Tahmazli**
Teachers' attitudes towards curriculum reforms: an empirical analysis 59-69

**Gunay Khanizade, Zeynab Ismayilzade, Sima Abdullayeva, Narmin Javadova, Ayten Ibrahimzade, Zahra Ibrahimova**
An analysis of the existing curriculum in Azerbaijan and opportunities for its improvement: a qualitative study based on expert opinions 71-95

**Narmin Abdurahimova, Madina Huseynzade, Sevil Gafarova, Madina Mammadova, Fatima Rahimova, Ulkar Safarli**
Evaluation of curriculum quality and its international alignment 97-118

# PARENTS' ATTITUDES TOWARD THE MODERN EDUCATIONAL CURRICULUM: AN EMPIRICAL STUDY IN THE CONTEXT OF AZERBAIJAN

**Graduate Students, SABAH groups, Azerbaijan State Pedagogical University**

**Solmaz Allahverdiyeva**
solmaz18allahverdiyeva@gmail.com, https://orcid.org/0009-0000-9208-7032
**Khayala Balacayeva**
khayalabalacayeva1@gmail.com, https://orcid.org/0009-0002-4468-1509
**Davud Dadashov**
davuddadasli@gmail.com, https://orcid.org/0009-0005-7680-0551
**Najaf Eminov**
necefeminov@gmail.com, https://orcid.org/0009-0007-8121-1430
**Rugiyya Mammadova**
ruqiyyememmedova02@icloud.com, https://orcid.org/0009-0007-8223-0086
**Shirinxanim Sheydayeva**
seydayevaxanim@gmail.com, https://orcid.org/0009-0000-2343-1629

**Abstract**. The article analyzes parents' attitudes, expectations, and experiences regarding the modern curriculum implemented in Azerbaijani secondary schools. The study was conducted using a mixed-methods design (quantitative and qualitative approaches), and the data were collected through a survey administered to 455 parents residing in Baku who have school-aged children. The findings indicate that although the majority of parents (278 respondents) report being sufficiently informed about the curriculum, their level of participation in its development process remains considerably limited (182 respondents report no participation at all). Parents generally evaluate the quality of textbooks and their age appropriateness as moderate. While they positively acknowledge the curriculum's potential to foster independent thinking skills (179 respondents), they also emphasize several concerns, including excessive academic workload (95 respondents), insufficient alignment of textbook content with students' developmental characteristics (149 respondents), and shortcomings in the assessment system. Notably, 165 respondents believe that the outcomes of the previous educational program were more applicable to real-life contexts. Participants primarily proposed the following improvements: adapting textbook content to students' age levels (94 respondents), reducing academic workload (73 respondents), enhancing the assessment system (29 respondents), and improving teacher professionalism (44 respondents). The results highlight the necessity of more active parental involvement in curriculum processes, the development of age-appropriate instructional materials, the optimization of students' workload, and the enhancement of teacher training quality. Furthermore, by conducting a comparative analysis with international practices, the study provides scientifically grounded recommendations for the further improvement of curriculum reforms within the Azerbaijani education system.
**Keywords**: curriculum, parental attitudes, educational program, school-family collaboration, textbook quality, educational reforms, student-centered education.

**DOI:** 10.30546/2709-2488.2026.002.507845
**To cite this article:** Parents' attitudes toward the modern educational curriculum: an empirical study in the context of Azerbaijan. *Journal of Preschool and Primary Education*, Special issue – "Master's research", pp. 9-40.
**Article history:** received – 01.04.2026; accepted – 05.05.2026.

# VALİDEYNLƏRİN MÜASİR TƏHSİL PROQRAMINA MÜNASİBƏTİ: AZƏRBAYCAN KONTEKSTİNDƏ EMPİRİK TƏDQİQAT

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupu magistrantları**

**Solmaz Allahverdiyeva**
solmaz18allahverdiyeva@gmail.com, https://orcid.org/0009-0000-9208-7032
**Xəyalə Balacayeva**
khayalabalacayeva1@gmail.com, https://orcid.org/ 0009-0002-4468-1509
**Davud Dadaşov**
davuddadasli@gmail.com, https://orcid.org/ 0009-0005-7680-0551
**Nəcəf Eminov**
necefeminov@gmail.com, https://orcid.org/ 0009-0007-8121-1430
**Ruqiyyə Məmmədova**
ruqiyyememmedova02@icloud.com, https://orcid.org/ 0009-0007-8223-0086
**Şirinxanım Şeydayeva**
seydayevaxanim@gmail.com, https://orcid.org/ 0009-0000-2343-1629

**Annotasiya.** Məqalədə Azərbaycan ümumtəhsil məktəblərində tətbiq edilən müasir tədris proqramına (kurikuluma) valideynlərin münasibəti, gözləntiləri və təcrübələri təhlil edilmişdir. Tədqiqat qarışıq metodla (kəmiyyət və keyfiyyət) aparılmış, məlumatlar Bakı şəhərində yaşayan, məktəbyaşlı övladları olan 455 valideyn arasında aparılan sorğu əsasında toplanmışdır. Nəticələr göstərir ki, valideynlərin əksəriyyəti kurikulum haqqında kifayət qədər məlumatlı olsalar da (278 nəfər), onun hazırlanması prosesində iştirak səviyyələri olduqca məhduddur (182 nəfər heç iştirak etmir). Qeyd edilir ki, valideynlər dərsliklərin keyfiyyətini və uşaqların yaş səviyyəsinə uyğunluğunu, əsasən, orta qiymətləndirir, proqramın müstəqil düşünmə bacarığını inkişaf etdirmə potensialını müsbət qarşılasalar da (179 nəfər), dərs yükünün həddindən artıq çox (95 nəfər), tədris edilən fənlərin məzmununun yaş xüsusiyyətlərinə qismən uyğun olduğunu (149 nəfər) və qiymətləndirmə sistemində çatışmazlıqların mövcudluğunu vurğulayırlar. Tədqiqat iştirakçıları, əsasən, dərslik məzmununun yaş səviyyəsinə uyğunlaşdırılması (94 nəfər), dərs yükünün azaldılması (73 nəfər), qiymətləndirmə sisteminin təkmilləşdirilməsi (29 nəfər) və müəllim peşəkarlığının artırılması (44 nəfər) istiqamətində təkliflər irəli sürmüşlər. Tədqiqatın nəticələri valideynlərin kurikulum prosesinə daha fəal cəlb edilməsi, dərsliklərin yaş xüsusiyyətlərinə uyğun hazırlanması, şagird yükünün optimallaşdırılması və müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi zərurətini ortaya qoyur. Tədqiqat, eyni zamanda beynəlxalq təcrübə ilə müqayisəli təhlil aparmaqla Azərbaycan təhsil sistemində kurikulum islahatlarının daha da təkmilləşdirilməsi üçün elmi əsaslandırılmış tövsiyələr təqdim edir.

**Açar sözlər:** kurikulum, valideyn münasibəti, tədris proqramı, məktəb-ailə əməkdaşlığı, dərslik keyfiyyəti, təhsil islahatları, şagirdyönümlü təhsil.

**DOI:** 10.30546/2709-2488.2026.002.507845
**Məqaləyə istinad:** Valideynlərin müasir təhsil proqramına münasibəti: Azərbaycan kontekstində empirik tədqiqat. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Magistr tədqiqatları", səh. 9-40.
**Məqalə tarixçəsi:** göndərilib – 01.04.2026; qəbul edilib – 05.05.2026.

## Giriş / Introduction

Müasir təhsil sistemində kurikulum yalnız pedaqoqlar və təhsil siyasətçiləri üçün deyil, eyni zamanda təhsilin əsas tərəfdaşlarından biri olan valideynlər üçün də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, valideynlərin yeni təhsil proqramına münasibəti, habelə onun nə dərəcədə faydalı və işlək mexanizm olduğu ilə bağlı fikir və düşüncələri təhsilin inkişafı baxımından önəmli məsələlər sırasındadır. Syomvene qeyd edir ki, valideynlər uşağın təhsil yolunda əldə etdiyi uğurun formalaşmasında əvəzsiz rol oynayırlar. Uşağın öyrənməyə münasibəti, motivasiyası və öz potensialını reallaşdırması böyük ölçüdə ailə mühitində gördüyü dəstəkdən asılıdır. Bu baxımdan, valideynlər məktəblə birlikdə məsuliyyət daşıyaraq, uşağın öyrənməsini təşviq edən, təhlükəsiz və stimullaşdırıcı bir mühit yaratmağa çalışmalıdırlar [Syomvene, A., 2022].

Bu fikirdən bir daha aydın olur ki, valideynlər övladlarının yalnız akademik nəticələrini izləməli deyil, eyni zamanda onların təlimdə fəal iştirakına dəstək olmalıdırlar. Bununla belə qeyd etmək lazımdır ki, bir çox valideynlər uşaqlarının savadlılıq inkişafına necə və hansı yollarla daha səmərəli şəkildə dəstək ola biləcəkləri barədə kifayət qədər məlumata malik deyillər. Buna görə də valideynlərin bu sahədə məlumatlandırılması və istiqamətləndirilməsi uşağın təhsil uğurunun artırılması baxımından xüsusi əhəmiyyətə malikdir. Həmçinin texnologiyanın sürətlə inkişaf etdiyi bu dövrdə təhsil sahəsinin dəyişən dünyanın tələblərinə təhsil sahəsindəki bütün maraqlı tərəflərin də bu dəyişikliyə uyğunlaşa bilmələri kifayət qədər vacib bir məsələdir. Xan və Lav  vurğulayırlar ki, dəyişiklik prosesi mərhələli şəkildə həyata keçirilir və bu səbəbdən müxtəlif maraqlı tərəflər prosesin fərqli mərhələlərində digərlərinə nisbətən daha effektiv töhfə verə bilirlər. Bu yanaşma maraqlı tərəflər arasında güclü və davamlı əlaqənin mövcud olmasını zəruri edir [Khan, M., Law, L., 2015]. Belə bir qarşılıqlı əlaqə mühitində fərqli və bəzən ziddiyyətli fikirlərin ortaya çıxması əsaslandırılmış və optimal qərarların qəbul edilməsinə şərait yaradır. Nəticə etibarilə, bu cür əməkdaşlıq tədris planının hazırlanması prosesində müsbət və inkişafyönümlü bir mədəniyyətin formalaşmasına böyük  töhfələr verəcəkdir. Valideynlərin kurikuluma dair baxış bucaqlarının öyrənilməsi təhsil prosesinin effektivliyinin artırılması, məktəb – ailə əməkdaşlığının gücləndirilməsi və kurikulumun tətbiqində mövcud çətinliklərin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Tədqiqatın əsas məqsədi valideynlərin kurikuluma münasibətini, onların gözləntilərini və bu sahədə formalaşan təcrübələrini təhlil etməkdir. Bu məqsədə nail olmaq üçün mövzu ilə bağlı mövcud elmi ədəbiyyatın sistemli icmalı aparılmışdır.

**Kurikulum anlayışı, izahı və mahiyyəti**

"Kurikulum" latın mənşəli sözdür və "kurs", "yol" mənalarını ifadə edir. Xarici pedaqoji ədəbiyyatlarda qeyd olunduğu kimi, kurikulumla bağlı biliklərin formalaşması və inkişafı təxminən 30 ilə yaxın bir dövrü əhatə edir. İlk kurikulum 1918-ci ildə yaradılmışdır. XX əsrin 60–70-ci illərindən etibarən isə dünyada, xüsusilə ABŞ-da kurikulum ideyaları geniş yayılaraq müstəqil bir nəzəriyyə kimi formalaşmışdır. "Kurikulum hərəkatı" adı altında inkişaf edən bu təhsil dalğası zamanla dünyanın inkişaf etmiş ölkələrinə də yayılmış və mütərəqqi təhsil təcrübəsi kimi geniş miqyasda öz təsdiqini tapmışdır ["Kurikulum nədir?", 2014]. Beləliklə, kurikulum anlayışı tədris planı olmaqla yanaşı təhsilin məqsədlərini, məzmununu, təlim prosesini və qiymətləndirməni sistemli şəkildə əhatə edən kompleks bir yanaşma kimi formalaşmışdır. Bu da onun müasir təhsil sistemlərində mühüm yer tutmasına səbəb olmuşdur. Keçmişdə təhsil proqramı anlayışı, əsasən, "bilik və bacarıqlar toplusu" kimi başa düşülür, daha çox müxtəlif sahələrdə çalışan mütəxəssislərin sahib olduğu bilik və bacarıqları əks etdirirdi. Həmin dövrdə kurikulum təhsilalanların ehtiyaclarından çox, fənn mərkəzli yanaşmanı ön plana çəkirdi. Müasir dövrdə isə kurikulum anlayışına yanaşma dəyişmişdir. Ralf Tylerə görə kurikulum uşaqların ehtiyac və tələblərini ödəmək məqsədilə xüsusi şəkildə təşkil olunmuş fənn və fəaliyyətlər sistemidir. Həmçinin kurikulum artıq yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdləri real həyatın müxtəlif situasiyalarına hazırlayan təcrübə və fəaliyyətləri də özündə birləşdirir [Tyler, R., 1949]. Beləliklə, "kurikulum" anlayışını təkcə dərsliklərin və ya mövzuların siyahısı kimi qəbul etmək düzgün olmaz. O, məktəb mühitində həyata keçirilən digər fəaliyyətləri, sosial ünsiyyəti, məktəbdaxili təcrübələri və kitablar vasitəsilə öyrədilməyən çoxsaylı elementləri də əhatə edir. Kurikulum şagirdin məktəb rəhbərliyinin nəzarəti və istiqamətləndirilməsi altında əldə etdiyi bütün təlim və həyat təcrübələrini əhatə edən planlı və məqsədyönlü bir proqramdır [Oliva, P., 1982]. Bu yanaşma kurikulumun mahiyyətini daha geniş kontekstdə dəyərləndirməyə imkan verir. Belə ki, tədris planı yalnız dərs proqramları və ya fənn məzmunu ilə məhdudlaşmır, eyni zamanda şagirdin məktəb mühitində, məqsədli şəkildə təşkil olunmuş bütün öyrənmə təcrübələrini əhatə edən kompleks bir sistem kimi çıxış edir. Bu baxımdan, kurikulum təlim prosesinin planlaşdırılmasında əsas istiqamətverici rol oynayır, təhsilin məqsədləri ilə nəticələri arasında əlaqənin təmin olunmasına şərait yaradır. Eyni zamanda belə bir yanaşma müasir təhsil sistemlərində şagirdyönümlü təlimin tətbiqini zəruri edir və təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.

Sunavar isə qeyd edir ki, kurikulum müəyyən edilmiş təhsil məqsədlərinə nail olmaq üçün tədris prosesinə istiqamət verən sənədlər sistemidir. Bu sənədlər

təhsil müəssisəsi səviyyəsində formalaşdırılan əsas və xüsusi kompetensiyalara uyğun olaraq hazırlanır [Sunawar, A., 2017]. Bu yanaşma kurikulumun sistemli və məqsədyönlü xarakterini aydın şəkildə ortaya qoyur. Belə ki, kurikulum tədris prosesinin planlaşdırılmasında əsas istiqamətverici mexanizm kimi çıxış edir və təhsil məqsədləri ilə əldə olunacaq nəticələr arasında məntiqi əlaqənin qurulmasını təmin edir. Eyni zamanda əsas və xüsusi kompetensiyalara istinad edilməsi kurikulumun müasir təhsilin tələblərinə uyğun şəkildə formalaşdırıldığını göstərir. Bu da təlim prosesində biliklərin tətbiqyönümlü olmasına, şagirdlərin və ya tələbələrin real həyat və peşə fəaliyyəti üçün zəruri bacarıqlar qazanmasına şərait yaradır. Beləliklə, Sunavarın irəli sürdüyü yanaşma kurikulumun təhsilin keyfiyyətinin yüksəldilməsində və təlimin effektivliyinin təmin olunmasında mühüm rol oynadığını təsdiq edir. Dünya təcrübəsində kurikulum islahatlarının əsas prinsipləri və tətbiqinə nəzər saldıqdan sonra, indi Azərbaycan təhsil sistemində kurikulumun vəziyyətinə və onun yerli xüsusiyyətlərinə nəzər salaq.

"Kurikulum" anlayışı Azərbaycan dilində 1990-cı illərin sonlarından istifadə olunmağa başlanmışdır. 1999-cu ildən etibarən ölkədə mərhələli şəkildə həyata keçirilən təhsil islahatının üçüncü mərhələsində "Kurikulum islahatı" xüsusi komponent kimi təsdiq edilmişdir. Bu sahədə sistemli işlərin görülməsi üçün Kurikulum Şurası və Kurikulum Mərkəzi yaradılmış, müəllim, məktəb rəhbəri, tərbiyəçi, təhsil mütəxəssisləri və cəmiyyət nümayəndələrinin cəlb olunduğu işçi və ekspert qrupları fəaliyyət göstərmişdir. 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədi hazırlanmış, onun əsasında 2007-ci ildə I-IV siniflər, 2011-ci ildə isə V-XI siniflər üçün fənn kurikulumları təsdiq olunmuşdur [Milli Kurikulumu., 2006]. Təhsil kurikulumlarının hazırlanmasında nəticəyönümlülük, tələbyönümlülük, şagirdyönümlülük, şəxsiyyətyönümlülük və inteqrativ yanaşma kimi didaktik prinsiplər əsas götürülmüşdür. 2008 / 2009-cu dərs ilindən ümumtəhsil məktəblərinin I siniflərində fənn kurikulumları tətbiq olunmağa başlanmış, 2010-cu ildə isə konseptual sənəd "Təhsil haqqında" Qanununun tələbləri əsasında yenilənərək dövlət standartı və proqramları (kurikulumları) kimi təsdiq edilmişdir. 2009-cu ildə isə ilk dəfə "Təhsil haqqında" Qanunda kurikulum anlayışı rəsmən təsbit olunmuş və onun məzmunu təhsilin hər bir pilləsi üzrə təlim nəticələri, məzmun standartları, dərs və dərsdənkənar məşğələ saatları, pedaqoji prosesin təşkili və qiymətləndirmə sistemini əhatə edən dövlət sənədi kimi müəyyən edilmişdir (Azərbaycan Respublikasının Təhsil İnstitutu).

Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununun 10-cu maddəsi məhz təhsil proqramı (kurikulum) haqqındadır. Qanunda qeyd edilir ki, təhsil proqramı (kurikulum) dövlət təhsil standartlarına uyğun olaraq təhsilin məzmununu və mənimsənilmə üsullarını müəyyən edən əsas sənəddir. O, tədris planı,

fənlər üzrə proqramlar, metodik tövsiyələr, qiymətləndirmə və digər təhsil texnologiyalarını əhatə edir. Proqramlar bütün təhsil pillələrini, o cümlədən əlavə, distant və xüsusi təhsil formalarını əhatə edir, sağlamlıq imkanları məhdud və uzunmüddətli müalicəyə ehtiyacı olan şagirdlər üçün xüsusi proqramlar hazırlanır. Eyni zamanda beynəlxalq təhsil proqramları müvafiq qanunvericilik və təhsil müəssisələrinin nizamnaməsi əsasında həyata keçirilir [“Təhsil haqqında” Qanun., 2009]. Bu maddə təhsil proqramlarının sistemli və məqsədyönlü şəkildə hazırlanmasının nə dərəcədə əhəmiyyətli və vacib olduğunu vurğulayır. Xüsusi və beynəlxalq proqramların daxil edilməsi, həmçinin sağlamlıq imkanları məhdud şagirdlər üçün xüsusi yanaşmaların nəzərə alınması kurikulumun inklüziv və universal xarakterini göstərir. Bu yanaşma təhsilin keyfiyyətinin yüksəldilməsinə və şagirdlərin müxtəlif ehtiyaclarına cavab verməsinə imkan yaradır.

**Tədris proqramına (kurikulum) valideynlərin münasibəti**

Qlobal və milli səviyyədə kurikulum anlayışını təhlil etdikdən sonra, indi valideynlərin övladlarının təhsilinə dair, əsasən, onların kurikulumla bağlı baxış bucağı və mövqelərinə dair tədqiqatlara nəzər salaq. Nyamayi qeyd edir ki, tədris planının (kurikulumun) hazırlanmasında valideynlərin iştirakı mühüm əhəmiyyət kəsb edir. Təhsil orqanları valideynlərin prosesdə təmsil olunmasını təmin etmək üçün rəhbərlik strukturları yaratmalı və onları maarifləndirməlidir. Bu məqsədlə, illik görüşlər, seminarlar və digər maarifləndirici tədbirlər təşkil edilə, həmçinin mövcud media kanalları vasitəsilə valideynlər proses barədə məlumatlandırıla bilərlər [Nyamai, D., 2021]. Bununla yanaşı, qeyd etmək yerinə düşər ki, valideynlərin tədris planının hazırlanmasında fəal iştirakı təhsilin keyfiyyətinin artırılmasında və şagirdlərin ehtiyaclarının daha yaxşı nəzərə alınmasında mühüm rol oynaya bilər. Çünki valideynlər övladlarının istinad nöqtələrini, habelə onların ev mühitində öyrənməyə qarşı sərgilədikləri davranışları özləri təhlil edə, həmçinin uğurlu və problemli tərəfləri müşahidə edə bilərlər. Qraham-Klay qeyd edir ki, müəllimlər şagirdlərin öyrənməsini dəstəkləmək üçün valideynlərlə tərəfdaşlıq əlaqələri qurmağa çalışırlar. Güclü ünsiyyət, məktəb və ev arasındakı tərəfdaşlığın qurulması və şagirdin təhsilinə valideynlərin cəlb edilməsində əsas rol oynayır [Graham-Clay, S., 2005]. Bu baxımdan, valideynlərin maarifləndirilməsi və prosesdə iştirakının təmin edilməsi təhsil siyasətinin şəffaflığını və cəmiyyətin təhsilə bağlı öhdəlik hissini gücləndirir. Məhz bu səbəbdən, valideynlərin fəal iştirakını dəstəkləyən sistemli tədbirlər hər bir təhsil müəssisəsi üçün vacib hesab edilməlidir. Nyamayi vurğulayır ki, tədris planının hazırlanması prosesində bütün maraqlı tərəflər məqsədləri düzgün anlayıb töhfələrini verdikdə, proses daha uğurlu olur. Valideynlərin bu prosesə daxil edilməsi xüsusi əhəmiyyət daşıyır, çünki onların iştirakı tədris planında demokratiya və müxtəlifliyi təmin edir. Effektiv tədris planı valideynlərin rollarını — monitorinq, resurs təminatı və müəl-

limlərlə qarşılıqlı münasibətləri tam şəkildə əhatə etməlidir [Nyamai, D., 2021]. Valideynlərin tədris planının hazırlanmasına aktiv cəlb olunması, təhsildə şəffaflıq və demokratik prinsiplərin tətbiqini gücləndirir. Onların iştirakı həm tədris planının real ehtiyaclara uyğun hazırlanmasına, həm də müəllimlə valideyn münasibətlərinin möhkəmlənməsinə şərait yaradır. Bu baxımdan, valideynlərin prosesdə fəal rolu təhsil keyfiyyətinin yüksəldilməsi üçün vacib hesab edilməlidir.

Şleyxer yazır ki, müvəffəqiyyət aidlik hissi ilə birbaşa əlaqəlidir [Şleyxer, A., 2022]. Bu baxımdan, təhsil sahəsində müvəffəqiyyətin əldə edilməsi üçün öyrənənlər özlərini tədris mühitinə aid etməyi bacarmalıdırlar. Bu isə məktəb, valideyn və müəllim əməkdaşlığı ilə mümkün ola bilər. Əhmədi və Keşavarzi qeyd edirlər ki, tədris planının hazırlanması zamanı təhsil qrupları lazımi bilik, bacarıq və resursları təmin etmək üçün həm fərdi ekspertlərə, həm də dövlət və özəl təşkilatlara müraciət edə bilirlər. Xarici resurslardan istifadə problemlərin həllinə kömək etsə də, əsas çətinlik şagirdlər üçün nəyin öyrədilməli olduğuna qərar verməkdir. Valideynlərin bu prosesdə kifayət qədər iştirak etməməsi onların maraqlarının və ehtiyaclarının tam nəzərə alınmamasına səbəb olur. Təhsil sistemlərinin məqsədi şagirdlərin inkişafını və onların cəmiyyət üçün hazırlığını təmin etməkdir, lakin valideynlərin iştirakı yalnız formal xarakter daşıyır və prosesin effektivliyini artırmaq üçün istifadə olunmalıdır [Ahmadi, S., Keshavarzi, A., 2017]. Əhmədi və Keşavarzinin vurğuladığı kimi, tədris planının hazırlanmasında valideynlərin əhəmiyyətli rolu nəzərə alınmasa, şagirdlərin ehtiyac və maraqları tam əks olunmaya bilər. Bu da təhsildə aparılan islahatların tam da gözlənilən uğurlu nəticəni verməyəcəyini ortaya qoyur. Bu baxımdan, valideynlərin prosesə fəal cəlb olunması yalnız formal prosedur kimi yox, kurikulumun effektivliyini və şagirdyönümlü xarakterini təmin edən əsas amil kimi qiymətləndirilməlidir. Belə yanaşma tədris planının keyfiyyətini artırmaqla, həm də təhsilin nəticəyönümlü və demokratik olmasını dəstəkləyir. Həmçinin bu prosesdə valideynlərin iştirak etmək istəyi də önəmli rola malikdir. Kostadinova vurğulayır ki, valideynlərin tədris planının seçilməsi, tətbiqi, planlaşdırılmasında iştirak etmək baxımından məktəblə daha intensiv əməkdaşlıq və tərəfdaşlıq qurmaq istəməməsi, rəqabətsizliyi, laqeydliyi, eləcə də ailənin həyat üçün yaşayış təminatında daha geniş iştirakı, bu da onlara özlərini uşaqlarının tərbiyəsinə və təhsilinə həsr etməyə imkan vermir [Kostadinova, M., 2012]. Bu yanaşma müəyyən qədər realdır, çünki bir çox hallarda valideynlər iş və ailə öhdəliklərinə görə dərslərin planlaşdırılmasına aktiv qatılmaq imkanına malik olmurlar. Lakin tənqidi baxımdan, bu yanaşma valideynlərin passivliyini yalnız şəxsi səbəblərlə izah edir və təhsil sisteminin valideynləri prosesə cəlb etmək üçün struktur və metodik tədbirlərini nəzərə almır. Azərbaycan kontekstində isə valideynlərin kurikulumun hazırlanmasında iştirakı hələ də formal xarakter daşıyır və onların bilik və təcrübəsindən tam istifadə

olunmur. Belə bir vəziyyət, tədris planlarının şagirdlərin ehtiyaclarına tam uyğunlaşdırılmasında boşluqlar yaradır və kurikulumun nəticəyönümlü xarakterini zəiflədir. Buna görə də valideynlərin iştirakı üçün həm maarifləndirmə, həm də sistemli dəstək mexanizmlərinin yaradılması vacib hesab olunur. Tam bir kurikulum planlaşdırma modeli təhsil sahəsinin ehtiyacı olan deyil. Təhsil sahəsinin ehtiyacı — müxtəlif modellərdən istifadə edə bilən, həm də onların tətbiqinin nəticələrindən xəbərdar olan kurikulum planlaşdırıcılarıdır [Posner, G., 1988]. Posnerin fikrindən aydın olur ki, hazırda təhsil sahəsində atılmalı olan ən önəmli addım kurikulumun icrası zamanı müxtəlif metodlardan istifadə etməyi bacaran və onların tətbiq nəticələrindən xəbərdar ola biləcək mütəxəssislərin hazırlanması prosesidir. Məhz bu baxımdan, cəmiyyətdə kurikuluma qarşı olan yanaşmanı, problemli tərəfləri görmək və təhlil etmək üçün valideynlərin də bu prosesdə iştirak səviyyəsi, habelə yanaşması yetərincə böyük əhəmiyyət kəsb edir.

**Problemin qoyuluşu**

Müasir təhsil sistemində kurikulumun uğurla tətbiqi valideynlərin də prosesə aktiv cəlb olunmasını zəruri edir. Beynəlxalq tədqiqatlar valideyn iştirakının şagird nailiyyətlərinə birbaşa təsirini təsdiqləsə də, Azərbaycanda bu sahədə ciddi boşluqlar mövcuddur. 2006-cı ildə “Milli Kurikulum”un qəbulu və tətbiqi mühüm islahat addımı olsa da, tədris proqramının hazırlanmasında valideyn iştirakı mexanizmləri formalaşmamışdır. Bu problem həm valideynlərin təhsildə aktiv iştirakını məhdudlaşdırır, həm də təhsil siyasətçilərini mühüm rəy mexanizmindən məhrum edir. Tədqiqat məhz bu problemin həllinə xidmət edərək valideynlərin kurikuluma münasibətini sistemli şəkildə təhlil etməyi hədəfləyir.

**Metodologiya**

Bu araşdırma valideynlərin ümumi təhsil məktəblərinin kurikulumuna münasibətlərini öyrənmək məqsədilə aparılmışdır. Tədqiqatda qarışıq metoddan (kəmiyyət və keyfiyyət) istifadə olunmuş və məlumatlar sorğu vasitəsilə toplanmışdır.

**Nümunə kütləsinin seçimi**

Araşdırmanın hədəf qrupu məktəbyaşlı uşaqları olan valideynlərdir. İştirakçılar asan seçmə üsulu ilə seçilmişdir ki, bu da valideynlərin sorğuda bərabər imkanlarla iştirakını təmin edir. Bununla yanaşı, nümunə seçim prosesində qeyri-ehtimallı yanaşmanın xüsusiyyətləri də nəzərə alınmışdır. Qeyri-ehtimallı seçmədə iştirakçılar əvvəlcədən müəyyən edilmiş ehtimal dəyərləri əsasında deyil, nümunə ölçüsü tamamlanana qədər tədricən formalaşır. Bu tip sorğularda iştirak könüllülük prinsipi ilə həyata keçirilir və anket linkinə daxil olan hər bir valideyn nümunə kütləsinə daxil olur. Bu tədqiqatda populyasiyanı Bakı şəhəri ərazisində yaşayan valideynlər təşkil edir. Nümunə kütləmiz 500 nəfər valideyndən ibarətdir, 455 valideyn sorğuda iştirak etmiş, onların cavablarının ilkin analiz nəticələ-

rinə əsaslanaraq 413 nəfər valideynin cavabları məqsədəuyğun hesab edilərək, təhlildə istifadə edilmişdir.

**Tədqiqat aləti**

Məlumatların toplanması üçün 12 sualdan ibarət anket sorğusu hazırlanmışdır. Sualların 7 qapalı, 5-i açıq tiplidir. Anketdə: çoxseçimli suallar (valideynlərin kurikulum haqqında məlumatlılıq dərəcəsini və münasibətlərini ölçmək üçün), açıq tipli suallar (onların fərdi fikirlərini, təklif və müşahidələrini daha dərindən öyrənmək, habelə əvvəlki təhsil proqramına olan münasibətlərini bilmək üçün) istifadə edilmişdir.

Sual maddələri məzmun baxımından dilçi ekspert və sahə mütəxəssisi tərəfindən qiymətləndirildikdən sonra son formaya salınmış və işlək mexanizmə gətirilmişdir. Anket valideynlərə elektron formada təqdim olunmuşdur. İştirakçılara tədqiqatın məqsədi anketin əvvəlində açıqlanmışdır. Araşdırmada bütün iştirakçıların anonimliyi qorunmuş, onların şəxsi məlumatlarının üçüncü tərəflərlə paylaşılmaması təmin edilmişdir. Sorğu könüllülük prinsipi əsasında aparılmış və etik tələblərə tam riayət edilmişdir. Suallar üzrə respondentlərin (R) öz fikirlərindən də nümunələr verilmişdir.

## Əsas hissə / Main part

Çoxseçimli suallardan toplanan məlumatlar kodlaşdırılaraq tezlik və faiz göstəriciləri üzrə müvafiq diaqramlarda göstərilərək, təsviri statistika metoduna əsasən, təhlil edilmişdir. Açıq suallardan əldə olunan məlumatlar isə tematik analiz yolu ilə sistemləşdirilmiş, kodlaşdırılmış və həm əsas mövzular, həm də təkrarlanan fikirlər müəyyən edilmişdir.

**1. Təhsil alan uşağınızın (və ya uşaqlarınızın) neçə yaşı var?**

Bu sualın verilmə məqsədi sorğuda iştirak edən valideynlərin övladlarının, əsasən, təhsilin hansı mərhələsində (məktəbəqədər, ibtidai, orta) olduğunu təyin etməkdir. Çünki aydın məsələdir ki, uşaqları fərqli yaş qruplarında olan valideynlərin təhsil proqramından gözlənti və ehtiyacları eyni olmur. Buna görə də analizin nəticələrinin daha dəqiq təhlili üçün uşaqların hansı yaş aralığında olduğunu bilmək olduqca əhəmiyyətlidir. Aşağıdakı cədvəldə şagirdlərin yaş kateqoriyasına uyğun sayları verilmişdir:

*Cədvəl 1*

| şagirdlərin yaş kateqoriyası | say | faiz |
|---|---|---|
| 6 yaşa qədər | 42 | 6% |
| 6-10 yaş | 238 | 35% |
| 11 yaş üzəri | 401 | 59% |

Cədvəl 1-dən aydın olur ki, sorğu iştirakçılarının sadəcə 6%-nin övladları məktəbəqədər təhsil mərhələsində, 35 faizi ibtidai sinifdə, 59 faizi isə orta məktəbdə təhsil alır. Bu da o deməkdir ki, aparılan sorğuda övladları orta məktəbdə təhsil alan valideynlər çoxluq təşkil edir və bu da tədqiqatın, əsasən, orta məktəb təhsil mərhəsində tətbiq edilən təhsil proqramı ilə daha əlaqəli olduğunu ortaya çıxarır.

**2. Məktəbdə tətbiq edilən tədris proqramı haqqında məlumatınız var?** Bu sualın verilmə məqsədi valideynlərin tədris proqramı haqqında məlumatlılıq dərəcəsini ortaya çıxarmaq, bununla da, valideynlər tərəfindən verilən cavabların etibarlılıq səviyyəsini təyin etməkdir. Aydın məsələdir ki, tətbiq edilən proqram haqqında məlumatlı olan valideyn ilə, qismən məlumatlı olan valideynin digər suallara da verdiyi cavablar fərqlilik təşkil edəcəkdir. Bu suala uyğun valideynlərin verdiyi cavablar aşağıdakı diaqramda göstərilmişdir:

*Diaqram 1*




Diaqram 1-dən aydın olur ki, cavabları məqbul hesab edilən 413 valideyndən 278 nəfəri hazırda məktəbdə tətbiq edilən tədris proqramından məlumatlı olduğunu qeyd edib. 107 nəfər valideyn isə qismən məlumatlı olduğunu qeyd edib. 16 nəfər valideyn proqram haqqında heç bir məlumatı olmadığını qeyd etmişdir. Həmçinin 1 nəfər valideyn “digər” seçimini doldurmuşdur. R-276 qeyd edib ki, “Valideynəm və bacardığım qədər uşaqlarımın təhsili ilə maraqlanıram”. Aydın olur ki, valideynlərin çox hissəsi demək olar ki, proqram haqqında məlumatlıdırlar. Bu da tədqiqatda əldə olunacaq nəticələrin etibarlılıq səviyyəsini artırır.

**3. Məktəb təhsil proqramının hazırlanması prosesində iştirak səviyyənizi seçin.**

Bu sualın verilmə məqsədi valideynlərin prosesdə iştirak səviyyəsini müəyyən etmək, habelə məktəblər və valideynlər arasında əlaqə və əməkdaşlıq mexanizmlərinin olub-olmadığını təyin etməkdir.

*Diaqram 2*




Diaqram 2-dən aydın olur ki, sorğu iştirakçılarının bir çox hissəsi (182 nəfər) məktəblərdə təhsil proqramlarının hazırlanmasında heç iştirak etmədiyini qeyd etmişdir. 100 nəfər isə prosesdə qismən iştirak etdiyini vurğulamışdır. 52 nəfər, əsasən, iştirak etdiyini, 76 nəfər isə daim prosesdə iştirak etdiyini qeyd etmişdir. 3 nəfər respondent isə “digər” seçimini qeyd edərək aşağıdakı kimi yazmışdır:

R-56: Valideynin iştirak etməsinə heç kim icazə verməz.

R-59: Təhsil proqramları mütəxəssislər tərəfindən tərtib olunur. Düşünürəm ki, valideynlərin fikirləri ilə tanış olsalar, daha keyfiyyətli tədris proqramı əldə edərlər.

R-61: Nazirlik özü təyin edir.

Sorğu iştirakçılarının cavabları onu deməyə əsas verir ki, əksəriyyət valideynlər bu prosesdə ya iştirak etmir, ya da qismən iştirak edir. Bu isə təhsil proqramlarının tərtibində valideynlərin iştirak mexanizmlərinin düzgün şəkildə qurulmadığını ortaya qoyur.

**4. Müasir dərsliklərin və tədris resurslarının keyfiyyətini necə qiymətləndirirsiniz?** Sual valideynlərdən müasir dərsliklər və tədrisdə istifadə olunan resursların keyfiyyətinə dair rəy toplamaq, həmçinin gələcəkyönümlü dəyişikliklərə zəmin yaratmaq məqsədilə verilmişdir.

*Diaqram 3*




Aydın olur ki, 98 nəfər valideyn müasir dərsliklərin və tədris zamanı istifadə olunan resursların keyfiyyətini "yüksək", 205 nəfər valideyn "orta" qiymətləndirdiyi halda, 104 nəfər "aşağı" olaraq qiymətləndirib. Həmçinin 6 nəfər "digər" seçiminə fikir bildirmişdir:

R-59: Öyrədilənlər tədris materialları imtahan sualları ilə üst-üstə düşmür. Yəni öyrədilən dərs başqa, imtahan verilən proqram başqa. Yəni bu nə dərəcədə düzgündür? Həmçinin ibtidai sinif Azərbaycan dili kitabları ancaq suallardan ibarətdir. İbtidai sinif kitabları, xüsusilə Azərbaycan dili kitabı heç ürəkaçan deyil. Musiqi, texnologiya, təsviri incəsənət bu tip fənlərdən KSQ keçirilməsi qətiyyən düzgün deyil, uşaqlar bu dərslərdən zövq almalıdırlar, mənasız cümlələr öyrənməli deyillər. İngilis dili fənninin ibtidai siniflərdə həftədə 3 dəfə tədris olunması daha məqsədəuyğundur.

R-241: Çətindir, dərsliklər şagirdlər üçün olduqca çətindir. Düşünməyən, sistemlə işləyən əlaçılar yaradırlar. Deyiləsi çox sözlər var.

R-276: Əlavə vasitələr işlətməsək, uşaqlar indiki təhsildə geri qalırlar.

R-291: Çox çətindir, uşaq başa düşmür.

R-359: Çox çətindir, uşaqlar çox yorulur, bəzən də lazım olmayan mövzularda dərslər keçirilir. Həmçinin hazırlıqlar var, bu uşaqlar üçün hədsiz ağırdır.

R-379: Dərsliklər özümüz tərəfindən təmin olunub.

Sorğu iştirakçılarının qeyd etdiyi cavablara əsasən, demək olar ki, əksəriyyət valideyn düşünür ki, müasir təhsil proqramı əsasında tərtib edilən dərsliklərin keyfiyyəti ortadır. Həmçinin onların fikrincə, dərslik keyfiyyətinin orta olması şagirdlərin dərsləri düzgün başa düşməməsinə, ona görə də əlavə hazırlığa getmələrinə, həmçinin başqa vəsaitlərə baş vurmalarına gətirib çıxarır. Bu baxımdan, şagirdlərin fərqli öyrənmə xüsusiyyətlərinin və hər bir fənnin qavranılma xüsusiyyətlərinin nəzərə alındığı dərsliklərin tərtib edilməsi məzmun baxımından daha keyfiyyətli dərsliklərin ortaya çıxmasına şərait yarada bilər.

**5. Yeni təhsil proqramı uşaqların öyrənməli olduğu mövzuları daha yaxşı başa düşməsinə kömək edir?**

Sual müasir təhsil proqramı əsasında tərtib olunmuş dərsliklərin anlaşılırlıq səviyyəsini qiymətləndirmək və nəticələrə əsasən, proqramın daha da təkmilləşdirilməsi məqsədilə tərtib edilmişdir.

*Diaqram 4*




Diaqram 4-dən görünür ki, 105 nəfər valideyn yeni təhsil proqramının şagirdlərə öyrənəcəkləri mövzunu daha yaxşı başa düşməklərinə tamamilə kömək edir. Lakin 200 nəfər valideyn nisbətən kömək etdiyini düşünür. Bununla belə, 59 nəfər kömək etmədiyini, 42 nəfər isə qətiyyən kömək etmədiyini qeyd etmişdir. Habelə, 7 nəfər respondent "digər" seçimini qeyd etmişdir.

R-56: Yeni təhsil proqramı, tətbiq edilmir.

R-71: Əksinə, əlavə müəllim axtarmağımıza və hazırlığa qoymağa sövq edir.

R-146: Qəliz formadadır.

R-207: Daha da uçuruma aparır.

R-256: Çox çətindir.

R-276: Məncə, uşaqlar həddindən çox yüklənir.

R-291: Xeyr, çətinləşir.

Valideynlərin cavablarını təhlil etdikdə aydın olur ki, hazırkı təhsil proqramı şagirdlərə öyrənəcəkləri mövzuları başa düşməkdə o qədər də effektiv şəkildə kömək etmir. Valideynlər bunu proqramın çox çətin olması və onun düzgün tətbiq edilməməsi kimi səbəblərlə əlaqələndirirlər. Həmçinin qeyd etmək olar ki, bu çətinlik şagirdlərin əlavə hazırlıqlara cəlb edilməsinə səbəb olur. Cavablara əsasən, təhsil proqramının təkmilləşdirilməsinə və çətinlik səviyyəsinin siniflər və müvafiq fənlər üzrə uyğunlaşdırılmasına ehtiyac var.

**6. Tədris edilən fənlərin məzmunu uşaqların yaşına uyğundur?**

Bu sualın verilmə məqsədi isə təhsil proqramının şagirdlərin inkişaf mərhələlərinə nə dərəcədə uyğun olduğunu aşkar etmək, tərtib edilən dərsliklərin

yaşa uyğunluq prinsipini yoxlamaq, bununla da uşaqların öyrənmə prosesində həddindən artıq yüklənməyə məruz qalıb-qalmadığını ortaya çıxarmaqdır.

*Diaqram 5*




Görünür ki, 51 nəfər valideyn tədris edilən fənlərin məzmununun şagirdlərin yaş səviyyəsinə qətiyyən uyğun olmadığını, 73 nəfər isə uyğun olmadığını, habelə 149 nəfər isə qismən uyğun olduğunu düşünür. Bununla yanaşı, 110 nəfər tədris edilən fənlərin uşaqların yaşına uyğun olduğunu, 25 nəfər isə tam olaraq uyğun olduğunu qeyd edir. 5 nəfər isə "digər" seçimində öz fikirlərini qeyd etmişlər:

R-56: Kurikulum sistemi ilə qrup şəklində dərs keçirilsə, uyğundur.

R-59: Lisey imtahanlarından xəbəriniz yoxdur deyəsən? Uşaq 4-cü sinifdə oxuyursa, 6-cı sinif səviyyəsində bilməlidir.

R-207: Qətiyyən.

R-252: Əsas da ibtidaidə.

R-407: Proqramlar çətindir, uşaq çətinliklə başa düşür.

Sorğu iştirakçılarının cavabları onu deməyə əsas verir ki, ümumi olaraq 135 valideyn fənnin məzmununun yaşa uyğun olduğu fikri ilə razılaşsa da, valideynlərin əksəriyyəti tədris edilən fənlərin məzmunda öyrənənlərin yaş xüsusiyyətlərinin nəzərə alınmadığını vurğulayır. Onlar məzmunun çətin olduğunu və uşaqların başa düşmədiyini qeyd edirlər. Bu da tədris edilən fənlərin hər birinin məzmununda yaşa uyğunluq prinsipinə əsaslı şəkildə nəzarət olunmasının vacibliyini və əhəmiyyətini bir daha ortaya qoyur.

**7. Hal-hazırda tətbiq edilən təhsil proqramının nəticələrinə əsasən, uşaqların bacarıqları necə dəyişib?**

Sual yeni təhsil proqramının şagirdlər üzərindəki real təsirini təyin etmək və bu təsirin nəticələrinə əsasən, nəzəriyyə və praktika arasındakı əlaqə mexanizmlərini aşkar etmək məqsədilə verilmişdir.

*Diaqram 6*




Diaqram 6-ya nəzər saldıqda görürük ki, 179 nəfər valideyn düşünür ki, hal-hazırda tətbiq edilən təhsil proqramı uşaqlarda müstəqil düşünmə bacarığını artırıb. Amma 132 nəfər isə sadəcə ev tapşırıqlarının çoxaldığını qeyd edib. Bununla yanaşı 72 valideyn xüsusi dəyişiklik hiss etmədiyini vurğulamış, 15 nəfər valideyn isə suala bilmirəm cavabını vermişdir. Əlavə olaraq, 13 nəfər valideyn isə "digər" seçimini cavablandırmışdır:

R-23. Müstəqil düşünməyönümlü tapşırıqlara rəğmən 70 faiz şagirddə müstəqil düşünmə formalaşmır.

R-68. Uşaqlar çox tənbəldirlər.

R-74. Robotlaşmış uşaqlar yetişib.

R-146. Əl motorikası və düşünmə yoxdur.

R-151. Dəyişib, lakin yaxşı istiqamətə yox.

R-158. Təlim tapşırıqlarının telefon vasitəsilə yerinə yetirilməsini düzgün hesab etmirəm.

R-186. Heç ev tapşırığı yoxdur.

R-207. Təhsil səviyyəsi zəifləyib.

R-229. Uşaqlar ev tapşırıqları ilə çox yüklənirlər, bu da beynin yorulmasına səbəb olur.

R-241. Övladımın biri özünü idarə edə bilir, digəri isə bu dərsliklərdən çətinlik çəkən şagird olduğu üçün daha çox dəstək istəyir. Suala cavabım odur ki, uşağım bacarıqlarını göstərmək üçün çox çalışır, nəticəsini də görür, lakin dincəlməyə vaxtı olmur.

R-274. Süni intellekt alətlərindən istifadə öyrənməni minimuma endirib.

R-393. Uşaqlar məzmunu anlamadan təlim materialını qiymətə görə əzbərləyirlər.

Cavabların təhlili göstərir ki, hazırkı təhsil proqramı şagirdlərdə müasir dövrün ən önəmli tələblərindən biri olan "müstəqil düşünmə bacarığını" inkişaf et-

dirmişdir. Bəzi valideynlərin fikrincə, isə sadəcə şagirdlərin dərs yükü artmışdır. Habelə "digər" seçimini cavablayan respondentlərin cavablarını üç əsas istiqamət üzrə qruplaşdıra bilərik. Belə ki, 23, 158, 186, 229, 241, 393 nömrəli respondentlərin cavabları, əsasən, qiymətləndirmə mexanizmləri və tapşırıqlarla uşaqların həddindən artıq yüklənməsi 151 və 207 nömrəli respondentlərin cavabları isə tədris prosesinin təkmilləşmədiyi, əksinə, zəiflədiyi istiqamətindədir. Əlavə olaraq 68, 74, 146, 274 nömrəli respondentlərə görə isə şagirdlərdə düşünmə, fəallıq azalıb, onlar sanki robotlaşıblar.

**8. Bugünkü tədris proqramı uşaqlarda düşünmə, yaradıcılıq və praktiki bacarıqları inkişaf etdirir?**

Bu sualın verilməsində məqsəd yeni təhsil proqramının müasir dövrün tələblərinə uyğunluq səviyyəsini aşkarlamaq, habelə tətbiq edilən proqramın bilik və bacarıq anlayışları ilə əlaqəsini təmin etməkdir.

*Diaqram 7*




Diaqram 7-yə əsasən, 119 nəfər valideyn düşünür ki, bugünkü tədris proqramı uşaqlarda düşünmə, yaradıcılıq və praktiki bacarıqları tam olaraq inkişaf etdirir. 169 nəfər qismən inkişaf etdirdiyini, 80 nəfər isə yetərincə inkişaf etdirmədiyini qeyd edib. Habelə 42 nəfər valideyn hazırkı təhsil proqramının bu bacarıqları qətiyyən inkişaf etdirmədiyini düşünür. Əlavə olaraq, 2 nəfər valideyn "digər" seçimini cavablandırmışdır.

R-56. Proqram tətbiq olunmur.

R-388. Əksinə, rəqəmsallaşma səbəbi ilə inkişafın qarşısını alır. 20-30 il əvvəl istifadə edilən inşa, ifadə tipli tədris metodları hazırda yoxdur. Uşaq hər bir şeyi internetdən baxıb təkrarlamaq istəyir.

Cavablara əsasən, qeyd etmək olar ki, əksər valideynlər düşünür ki, hazırda tətbiq edilən proqram demək olar ki, şagirdlərə müasir dövrdə tələb olunan bacarıqları aşılayır. Lakin bu fikirlə razılaşmayan valideynlərin də sayı o qədər də az deyil (124 nəfər). Həmçinin proqramın tətbiqinin düzgün olmadığı, həddindən artıq rəqəmsallaşmanın yaradıcılığı məhv etdiyi kimi fikirləri diqqətə çatdıran

validеynlər də var.

**9. Hal-hazırda tətbiq edilən tədris proqramı əvvəlki tədris proqramından nə ilə fərqlənir? Dolğun cavablandırın.**

Bu sual təhsil sistemində edilən dəyişikliklərin və yeniliklərin valideynlər tərəfindən nə dərəcədə dərk edildiyini və qəbul edildiyini təyin etmək, habelə sorğu iştirakçılarının məlumatlılıq səviyyəsini qiymətləndirmək məqsədilə tərtib edilmişdir.

*Cədvəl 2*

| kod | respondent sayı |
|---|---|
| qiymətləndirmə sisteminin düzgün olmaması | 11 |
| dərsliklərdə keyfiyyət problemi | 30 |
| dəyişikliyin olmaması | 28 |
| şagirdə yüklənən dərsin çox olması | 95 |
| müasir dövrün tələblərinə uyğunluğu | 103 |
| ənənəvi təhsilin effektivliyi | 55 |
| peşəkar müəllim çatışmazlığı | 10 |
| keyfiyyətli dərsliklər yazılmalı | 7 |
| indiki təhsil proqramının effektivliyi | 39 |
| öyrənmə prosesində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınmaması | 16 |
| təhsil proqramının tələblərə uyğun tətbiq edilməməsi | 19 |

Respondentlərin qeyd etdikləri cavablara əsasən, zəruri istiqamətlər təyin edilərək, müəyyən kodlar çıxarılmış və həmin kodlar üzrə şərhlər verilmişdir.

Kod 1 – Qiymətləndirmə sisteminin düzgün olmaması

Respondentlərin cavablarına əsasən, qeyd etmək olar ki, hazırda tətbiq edilən təhsil proqramında qiymətləndirmə cəhətdən müəyyən boşluqlar mövcuddur, habelə qiymətləndirmə sistemi əvvəlki təhsil proqramı ilə müqayisədə xeyli çətindir və bu da şagirdlərin dərslərə qarşı olan düşüncələrinə təsir göstərir. Beləliklə, onlar əsas fərqin qiymətləndirmə sisteminin düzgün qurulmamasında görürlər. Bu fikri dəstəkləyən bir neçə respondentlərin cavabları:

R-53. Əvvəllər, bizim vaxtımızda KSQ, BSQ, testlər yox idi, imtahanlar da şifahi keçirilirdi.

R-353. Uşaqları indi daha çox yükləyirlər, testlər uşaqları zəiflədib, düşünmə qabiliyyətini azaldıb.

Kod 2 – Dərsliklərdə keyfiyyət problemi var.

Valideynlərin qeyd etdikləri cavablara əsasən, aydın olur ki, hal-hazırda tətbiq edilən təhsil proqramının əvvəlki təhsil proqramından fərqi tədris zamanı istifadə edilən dərsliklərlə bağlıdır. Onlar, tədris materiallarının, tapşırıqların çox

qəliz və mürəkkəb olduğunu qeyd edirlər.

R-70. Əvvəl dərsliklər daha sadə və maraqlı idi, şagird dərsi rahat qavrayırdı, indi dərs vəsaitləri çox qəliz və mürəkkəbdir.

R-373. Əvvəllər dərsliklərin sayı az olsa da, dərs proqramları uşaqların başa düşəcəyi kimi keçirilirdi. İndi uşaqlar ancaq oxuyub-anlama keçirlər. Dərsliklərdə uşaqların öyrənəcəyi heçnə yoxdur. Hər dərsin üzərində 1 dərs qalırlar sabah yeni mövzu keçirlər. Dərsliklər çox qəliz yazılıb.

Kod 3 – Dəyişiklik yoxdur.

Sorğuda iştirak edən 28 valideyn isə hazırkı və əvvəlki təhsil proqramında əsaslı heç bir fərq olmadığını qeyd etmişlər.

R-44. Heç bir fərq yoxdur, əvvəlki tədris proqramı ilə eynidir.

R-222. Proses eynidir. Dəyişiklik kağız üzərindədir. Əvvəlki tədrisdə də problem var idi, indi də.

R-369. Heç bir fərq yoxdur. Şagirdlər yenə də düşünmür, yaratmır, əzbərləyirlər.

Kod 4 – Dərs yükünün çox olması

Sorğu iştirakçılarından 95 nəfər isə hazırda tətbiq olunan təhsil proqramına əsasən, tədris edilən dərslərdə dərs yükünün miqdarının daha çox olduğunu qeyd edirlər. Valideynlər dərs yükü çoxluğunu həm dərslərin çətin olmasında, həm də ev tapşırıqlarının artmasında görürlər.

R-49. İndi tədris proqramı çox çətin və ağırdır.

R-63. Əlavə dərs yükü, əlavə stressə səbəb olur.

R-120. Sadəcə uşaqların dərs yükü çoxalıb. Dərslikdə olan mövzuları məktəbdə az, evdə isə çox işləyir, əlavə test tapşırıqları yerinə yetirirlər.

R-129. Yaş həddinə görə dərs yükü çoxdur.

R-286. Əlavə dərs yükü artıb, uşaqların dərsləri başa düşməsi çətinləşib, yaşlarına uyğun tədris olunmur.

Kod 5 – Müasir dövrün tələblərinə uyğunluğu

103 nəfər valideyn qeyd edib ki, hazırda tətbiq edilən tədris proqramı müasir dövrün tələblərinə uyğunluğu ilə seçilir. Belə ki, onlar indiki tədris proqramının çoxşaxəliliyi və şagird mərkəzli olduğu düşüncəsində həmfikirdirlər.

R-7. Bəli, fərqlənir. Belə ki, əvvəlki proqram şablon idi. İndi isə yeniliklər əlavə edilib və müasir dövrlə uzlaşır.

R-73. İndiki proqram şagirdlərdə yaradıcılıq, problemlərin həlli, komanda işi, İKT bacarıqları kimi xüsusiyyətləri inkişaf etdirir.

R-198. İndi daha müasir və anlaşıqlıdır.

R-333. Hazırkı tədris proqramı əvvəlkindən fərqli olaraq şagirdin fəal iştirakına və düşünmə bacarığına əsaslanır. Əvvəllər dərslər daha çox müəllim mərkəzli idi, indi isə uşaqlar öyrəndiklərini tətbiq edir, müzakirə aparır və yaradıcı olurlar.

Qiymətləndirmə də dəyişib — artıq təkcə imtahan nəticəsi deyil, uşağın təlim prosesində fəallığı və inkişafı da nəzərə alınır. Bu proqram uşaqların düşünən, ünsiyyətcil və müasir həyata hazır fərdlər kimi formalaşmasına kömək edir.

R-351. Daha müasirdir. Məsələn, məktəbdə informatika fənninin tədrisi zamanı kompüterlərdə işləmək olur, amma əvvəl çox da əlçatan deyildi.

Kod 6 – Ənənəvi təhsilin effektivliyi

Sorğu iştirakçılarının 55 nəfəri isə ənənəvi təhsilin indiki təhsillə müqayisədə daha effektiv olduğunu düşünür. Onlar əvvəlki təhsil proqramında öyrədilən biliyin daha yaddaqalan olduğunu və dünyagörüşünün artmasında daha önəmli bir payının olduğunu qeyd edirlər. Belə ki, onlardan bir neçəsinin cavablarını nəzərdən keçirək.

R-266. Ənənəvi təhsil uşaqlarda dünyagörüşünün və elmin inkişafında böyük rol oynayırdı. Müasir tədris şagirdlərdə zehni yorğunluq yaradır.

R-279. Aralarındakı fərq çoxdur. Köhnə dərsliklərdə dərslər, məlumatlar, qaydalar və izahlar daha dolğun və başa düşülən şəkildə qeyd olunurdu.

R-313. Ənənəvi təhsildə öyrədilən bilik unudulmurdu, lakin indi uşaq çox yükləndiyi üçün öyrəndiyini müvəqqəti yadda saxlayır.

Kod 7 – Peşəkar müəllim çatışmazlığı

Valideynlərdən sadəcə 10 nəfəri qeyd edir ki, indiki təhsil proqramındakı əsas fərq məhz peşəkar kadr hazırlığı ilə bağlıdır. Əlavə olaraq indiki təhsil proqramının kifayət qədər yaxşı olduğu, lakin müəllimlər tərəfindən yetərincə uğurlu şəkildə tətbiq edilmədiyi vurğulanır. Onlardan bir nəfər respondentin cavabına nəzər salaq:

R-12. Kurikulum proqramı, əslində, yaxşı proqramdır, sadəcə onu düzgün tətbiq edən müəllim azdır, şagirdlər birtərəfli inkişaf edirlər, seçdikləri ixtisasa aid olan fənləri oxuyurlar. Müəllim maraq yaratmağa çalışsa da bu, mümkün olmur. Mən əvvəlki tədrisi təriflәmirəm, çünki onda boşluqlar çox idi, amma müasir təhsildən də razı deyilik.

Kod 8 – Keyfiyyətli dərsliklər.

7 nəfər iştirakçı isə qeyd edir ki, indiki təhsil proqramı daha keyfiyyətli dərsliklərin mövcudluğu ilə fərqlənir. Onlar əvvəlki təhsil proqramına əsasən, hazırlanmış dərsliklərin məzmun cəhətdən zəif olduğunu və əlavə olaraq indiki təhsil proqramı əsasında hazırlanmış dərsliklərin daha yaxşı olduğunu vurğulayırlar.

R-242. Əvvəlki dərsliklər indikindən zəif olub.

Kod 9 – İndiki təhsil proqramının effektivliyi

Müasir tədris proqramının daha effektiv olduğunu düşünən valideynlər də var. Belə ki, onlar qeyd edirlər ki, indiki tədris proqramı öyrənənlərdə araşdırma bacarığının inkişafına çox dəstək olur. Sorğuda iştirak edən valideynlərdən bəzilərinin cavabları aşağıda göstərilmişdir.

R-296. Ənənəvi təlimdə uşaqlar yalnız kitabda verilən mövzunu öyrənir və ya əzbərləyib danışırdılarsa, müasir tədris proqramında isə uşaqlar mövzunu kitabdan əlavə vəsaitlərdən araşdıraraq öyrənirlər.

R-316. Hazırkı tədris proqramı daha çox şagirdin fəallığını və düşünmə qabiliyyətini inkişaf etdirməyə yönəlib.

R-371. Müasir dövrdə tədris olunan proqram keyfiyyəti ilə fərqlənir.

Kod 10 – Öyrənmə prosesində yaş və fərdi xüsusiyyətlərin nəzərə alınmaması

Respondentlərin sadəcə 16 nəfəri qeyd edir ki, müasir təhsil proqramı öyrənənlərin fərdi öyrənmə və yaş xüsusiyyətlərini o qədər də nəzərə almır. Belə ki, onlar qeyd edirlər ki, proqram hazırlanarkən uşaqların yaş xüsusiyyətləri və buna müvafiq olaraq dərketmə səviyyələri o qədər də nəzərə alınmamışdır. Onlardan bəzilərinin cavabları aşağıda göstərilmişdir:

R-40. Proqram uşaqların yaşına tam olaraq uyğun deyil və tapşırıqlar həddindən artıq çoxdur.

R-221. Müasir tədris proqramı uşaqların yaşına uyğun deyil.

Kod 11 – Təhsil proqramının tələblərə uyğun tətbiq edilməməsi

Valideynlərdən bəziləri düşünür ki, indiki tədris proqramı heç də müasir dövrün tələbləri ilə tam olaraq uyğunlaşmır. Onlar öyrənənlərin bu proqrama uyğunlaşmaqda çətinlik çəkdiklərini vurğulayırlar.

R-207. Uşaqlar yeni tətbiq edilən tədris proqramını qəbul etmir. Təhsil beləcə uçuruma gedir.

10. Təhsil dövründə öyrəndiyiniz dərslərin sizin üçün hansı faydalı cəhətləri olduğunu düşünürsünüz?

Sualın ünvanlanmasında məqsəd keçmiş təhsil təcrübəsinin dəyərləndirilməsi və hazırkı dövrdə tətbiq olunan təhsil proqramına müqayisəli baxışın əldə edilməsindən ibarətdir.

*Cədvəl 3*

| kod | respondent sayı |
|---|---|
| Faydası yoxdur. | 41 |
| Universitetə qəbul olmağıma kömək edib. | 11 |
| Qarşılaşdığım problemlərin həllini asanlaşdırıb. | 151 |
| Öyrəndiklərim indiki dövrdə öz əksini tapıb. | 36 |
| Qavrama bacarığımı inkişaf etdirib. | 90 |
| Nəzəri biliklərimi artırıb. | 49 |
| Təlim-tərbiyə prosesini təkmilləşdirirdi. | 17 |
| Mexaniki yadda saxlama bacarığını inkişaf etdirirdi. | 18 |

Respondentlərin qeyd etdikləri cavablara əsasən, zəruri istiqamətlər təyin edilərək, müəyyən kodlar çıxarılmış və həmin kodlar üzrə şərhlər verilmişdir.

Kod 1 – Faydası yoxdur.

41 nəfər sorğu iştirakçısı qeyd edir ki, onların öz dövrlərində aldıqları təhsilin onlar üçün əhəmiyyətli bir faydasının olmadığını düşünürlər, cavabları, əsasən, aşağıdakı kimidir:

R-11: Heç bir faydası yoxdur.

R-69: Heç bir faydası yoxdur.

R-177: Faydalı cəhətlərini görməmişəm.

Kod 2 – Universitetə qəbul olmağıma kömək edib.

Bəzi valideynlər qeyd edirlər ki, öz dövrlərində aldıqları təhsil hesabına universitetə daxil olmuşlar. Onlardan bəzilərinin cavabları belədir:

R-2: Universitetə qəbul olmağa kömək edib.

R-43: Biz universitetə qəbul proqramını demək olar ki, məktəbdə öyrənirdik.

Kod 3 – Qarşılaşdığım problemlərin həllini asanlaşdırıb.

151 nəfər respondent qeyd edir ki, öz dönəmlərində aldıqları təhsil onlara hazırda qarşılaşdıqları problemləri həll etməyə kömək edir. Xüsusi olaraq onu da vurğulayırlar ki, aldıqları təhsil hesabına övladlarına dərslərində kömək edə bilirlər. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-75: Övladıma dərslərini başa salıram.

R-207: Bu gün övladlarıma köməklik edə bilirəm.

R-226: Mən aldığım təhsil ilə uşaqlarımı da rahat şəkildə öyrədə bilirəm.

R-271: Uşaqlarıma təhsillərində kömək oluram onlarla müzakirələr aparıram.

Kod 4 - Öyrəndiklərim indiki dövrdə öz əkşini tapıb.

Bəzi sorğu iştirakçıları qeyd edirlər ki, onların öz təhsil dövrlərində aldıqları təhsil bu gün də real həyat situasiyalarında öz tətbiqini tapır.

R-191: Hal-hazırda işlədiyim müddətdə əldə etdiyim bilik və bacarıqları tətbiq edirəm.

Kod 5 – Qavrama bacarığını inkişaf etdirib.

90 nəfər valideyn qeyd edir ki, təhsil aldıqları dövrdə qazandıqları biliklərin onların qavrama bacarıqlarının inkişaf etdirilməsində əvəzsiz rolu var. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-73: Tarix, riyaziyyat, ədəbiyyat kimi fənlər düşüncə tərzimin, intellektual bacarığımın formalaşmasına müəyyən mənada təsir göstərib.

R-141: Bilikləri hərtərəfli mənimsəyirik.

R-166: Öyrənmə prosesi rahat və əlverişli şəkildə həyata keçirilirdi.

R-227: Yaşımıza uyğun səviyyədə olduğu üçün başa düşmək daha rahat idi. Beynimiz yüklənmirdi və bu da bütün fənlərin tam mənimsənilməsinə şərait yaradırdı.

R-236: Beynim inkişaf edir, hər şeyi daha yaxşı anlayıram.

Kod 6 – Nəzəri biliklərimi artırıb.

Valideynlərin bəziləri düşünürlər ki, aldıqları təhsil, əsasən, bilikyönümlü olmuşdur. Buna görə də yiyələndikləri nəzəri biliklərin onlar üçün yetərincə faydalı olduğunu qeyd etmişlər. Sorğu iştirakçılarının bir qisminin cavabları aşağıdakı kimidir:

R-3: Elmdən daha çox yararlanmışam.

R-62: Məktəb illərində öyrəndiklərimin bir çoxu hələ də yadımda qalıb, indiki uşaqlar öyrəndilklərini yadda saxlamaqda çətinlik çəkirlər.

R-109: Hərtərəfli biliklərə yiyələnmişəm.

R-136: Təlimlər daha çox nəzəriyyə əsaslı idi.

R-230: Nəzəri biliklərin aşılanması əsasında məlumatlıyıq, lakin praktikada qismən əskini tapır.

Kod 7 – Təlim-tərbiyə prosesini təkmilləşdirirdi.

17 nəfər valideyn qeyd edir ki, onların aldıqları təhsil daha çox təlim-tərbiyə və nizam-intizam istiqamətli idi və bu istiqamət onlarda mövzulara daha həssas yanaşmanı, daha diqqətli olmağı aşılayıb. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-24: Bizim təhsil aldığımız dərslər asan və faydalı, təlim-tərbiyə isə yüksək idi.

R-316: Mənim təhsil aldığım dövrdə öyrəndiyim dərslər, əsasən, nizam-intizam, məsuliyyət və əzbərləmə bacarığımı formalaşdırdı.

Kod 8 – Mexaniki yadda saxlama bacarığını inkişaf etdirirdi.

Valideynlərdən bir neçəsi qeyd edir ki, aldıqları təhsil onlarda, əsasən, öyrəndiklərini mexaniki olaraq yadda saxlamağa, habelə əzbərləyərək öyrənməyə çox kömək etmişdir. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-30: Mövzular asan və yadda qalan idi.

R-51: Şeir əzbərləyirdik, öyrəndiyimiz dərsi danışırdıq. Ona görə də nitq qabiliyyətimiz daha yaxşı inkişaf edib. İndi təlmlər, əsasən, sual-cavab formasında təşkil olunur. Bu da uşaqlarda söz balansını azaldır, fikirlərini tam olaraq izah edə bilmirlər.

R-93: Əzbər bacarığımız formalaşırdı.

11. Əvvəlki təhsil proqramının yoxsa indiki təhsil proqramının nəticələri real həyatda öz tətbiqini tapır?

Sual keçmişdə və hazırkı dövrdə tətbiq olunan təhsil proqramlarının praktik təsirini müqayisə etmək məqsədi daşıyır.

*Cədvəl 4*

| kod | respondent sayı |
|---|---|
| indiki təhsil proqramı | 155 |
| əvvəlki təhsil proqramı | 165 |
| heç bir təhsil proqramı | 34 |
| hər iki təhsil proqramı | 59 |

Respondentlərin qeyd etdikləri cavablara uyğun şəkildə əsas istiqamətlər təyin edilərək, müəyyən kodlar çıxarılmış və həmin kodlar üzrə şərhlər verilmişdir.

Kod 1 – Müasir təhsil proqramı

Bu cavabı seçən valideynlər, cari tədris proqramının övladlarının real həyat vəziyyətlərində bilik və bacarıqlarını tətbiq etməsinə daha çox kömək etdiyini düşünürlər. Bu, proqramın praktik, aktual və müasir həyatın tələblərinə uyğun olduğunu göstərə bilər. Müasir dünyada vacib olan problem həlletmə, tənqidi düşünmə və texnologiyadan istifadə kimi bacarıqların yeni proqramda daha yaxşı öyrədildiyi qənaətinə gəlmiş ola bilərlər. Respondentlərin təxminən 37.5%-i indiki təhsil proqramının nəticələrinin real həyatda tətbiqini tapdığını bildirib. Bu, yenilənmiş strukturun və praktiki istiqamətin valideynlər tərəfindən müsbət qarşılandığını əks etdirir.

R-54: Ənənəvi təhsildə müəllimin sərtliyi var idi, uşaqlar öz fikirlərini sərbəst ifadə etməyi bacarmırdı, ona görə də bugün həmin şəxslərin bir qismi savadlı olsalar belə, dövrün tələblərinə uyğunlaşa bilmirlər.

R-78: Hazırkı dövrdə dünyanın hər bir yerindən məlumat almaq mümkündür. Uşaqlar lazım olan bütün məlumatları İKT vasitəsilə əldə edirlər.

R-279: Əvvəlki dövrlərdə müasir informasiya kommunikasiya texnologiyaları mövcud deyildi, lakin hazırkı dövrdə onlardan istifadə edilir.

R-333: Hər iki tədris proqramının öz üstünlükləri var, amma indiki proqramın nəticələri real həyatda daha çox tətbiq olunur. Çünki müasir kurikulum uşaqlarda təkcə bilik deyil, həm də praktiki bacarıqlar, tənqidi düşünmə, ünsiyyət qurma və problem həlletmə qabiliyyətlərini inkişaf etdirir. Əvvəlki proqram daha çox nəzəri biliklər üzərində qurulduğu üçün, öyrənilənlər bəzən həyatda tətbiq olunmurdu. İndiki proqram isə uşaqları real situasiyalarda düşünməyə, araşdırmağa və qərar verməyə öyrədir. Bu da gələcəkdə həm təhsildə, həm də gündəlik həyatda onlara daha çox fayda verir.

R-339: Ənənəvi təhsil proqramı bilikyönümlü idi, çox məlumat verirdi, lakin onu real həyatda tətbiq etməyi öyrətmirdi. Müasir təhsil proqramı (kurikulum) həyatda daha çox real tətbiq olunur, çünki şagirdə praktik bacarıq, problem həlletmə, ünsiyyət və düşünmə bacarıqları öyrədilir. Öyrəndiyini həyatda tətbiq et-

məyi hədəfləyir.

Kod 2 – Ənənəvi təhsil proqramı

Bu qrupa daxil olan valideynlər, əvvəlki tədris sisteminin daha möhkəm nəzəri əsaslara malik olduğunu, şagirdlərə ənənəvi dəyərlər və yaxud müəyyən fənlər üzrə daha dərin bilik qazandırdığına inanırlar. Onların fikrincə, əvvəlki sistemin nəticələri (məsələn, intizam, yadda saxlama, fundamental biliklər) real həyatda daha uzunmüddətli və təhlükəsiz tətbiq imkanı yaradırdı. Dəyişikliyə münasibət, nostalgiya və ya yeni proqramın bəzi aspektlərinə narazılıq bu seçimə təsir göstərmiş ola bilər. Valideynlərin 40%-i əvvəlki təhsil proqramını üstün tutur. Sorğuda, əsasən, yaşlı respondentlər daha çox ütünlük təşkil edirlər və bu köhnə sistemin "sınaqdan çıxmış" ənənəvi yanaşmasına olan etimad və ya yeni sistemin bəzi elementlərinə qarşı ehtiyatlı münasibətlə əlaqədardır.

R-17: Təbii ki, düzgün tətbiq edilsə, indiki təhsil proqramı daha səmərəli və effektiv hesab olunur.

R-296: Əlbəttə ki, əvvəlki təhsil proqramı. Çünki mən uşağa evdə anlamadığı mövzunu öz öyrəndiyim metodla izah edirəm.

R-298: Müasir deyil, əvvəlki təhsil proqramı səmərəli və effektiv idi. İndiki təhsil isə müasir dövrün tələblərinə uyğun adı altında uşağa heç nə öyrətmir.

R-345: Əvvəlki təhsil proqramı. İndi heç kimdə savad, yaddaş yoxdur, unutqanlıq çoxdur, çünki uşaqları ev tapşırıqları ilə yükləyirlər.

Kod 3 – Heç bir təhsil proqramı

Bu fikirdə olan valideynlər, mövcud təhsil sistemlərini (həm keçmiş, həm də hazırkı) real həyatın çağırışlarına tam cavab verə bilməyən, nəzəriyyəyə çox, təcrübəyə az yönəlmiş və ya köhnəlmiş hesab edirlər. Onların fikrincə, məktəbdə alınan bilik və bacarıqlarla real həyatdakı vəzifələr arasında böyük bir uçurum var. Bu, təhsil sisteminə qarşı ən tənqidi münasibət hesab oluna bilər. Valideynlərin təxminən 8.2%-i heç bir proqramın nəticələrinin real həyatda effektiv tətbiqini tapmadığını bildirib. Bu, adətən, təhsilin praktiki istiqamətinin kifayət qədər olmaması və tədrisin gündəlik həyatla zəif əlaqələndirilməsi ilə bağlı narazılığı ifadə edir.

R-12: Heç biri

R-146: Belə də

R-153: Əvvəlki tədrisin tam mükəmməl olduğunu deyə bilmərəm. Hər ikisinin də çatışmayan tərəfləri var.

Kod 4 – Hər iki təhsil proqramı.

Sualı cavablandıran valideynlər həm indiki, həm də əvvəlki proqramların müsbət cəhətlərə malik olduğunu və real həyatda müxtəlif aspektlərdən tətbiq oluna biləcəyini düşünürlər. Onlar təhsildə bərabərliyə, davamlılığa və sistemlərin üstünlüklərinin sintezinə dəyər verirlər. Bu, valideynlərin təhsil prosesinə ba-

lanslı və tolerant yanaşmasını göstərir. Sorğuda iştirak edənlərin 14.3%-ə yaxını hər iki proqramın da real həyat üçün faydalı elementlərə malik olduğunu qeyd edib. Bu, respondentlərin təhsildə çoxşaxəliliyə və müxtəlif yanaşmaların inteqrasiyasına üstünlük verdiyini göstərir.

R-182: Əvvəlki təhsil ilə indiki təhsil arasında fərqlər çoxdur, amma hər ikisinin real həyatda öz yeri və dəyəri var. Sovet dövründə təhsil daha sistemli, əsaslı biliklər üzərində qurulmuşdu — bu, insanlarda intizam, məntiq və əməksevərlik kimi xüsusiyyətlər formalaşdırırdı. İndiki təhsil isə daha çox texnologiya, informasiya və dillərə yönəlib, bu da müasir dünyada rəqabət qabiliyyəti üçün vacibdir.

R-340: Hər iki təhsil proqramının nəticələri real həyatda öz tətbiqini tapır. Ənənəvi təhsil proqramı uşaqlarda dəqiqlik və məsuliyyətlilik kimi müəllim keyfiyyətlərin formalaşmasına təsir göstərir. Müasir təhsil proqramı isə texnologiya, araşdırma və yaradıcılıq kimi bacarıqları inkişaf etdirir. Bu isə gələcəkdə peşələrdə və həyatın bir çox sahələrində faydalıdır.

Növbəti sual (12): İndiki təhsil proqramında hansı dəyişiklikləri etmək istəyərsiniz, əlavələriniz nə olar?

Bu sualın verilmə məqsədi sorğu iştirakçılarından fikirlərini, təklif və tövsiyələrini toplamaq, habelə tətbiq edilən təhsil proqramında mövcud olmayan, lakin faydalı ola biləcək yeniliklərin əlavə edilməsidir.

*Cədvəl 5*

| kod | respondent sayı |
|---|---|
| valideynlərlə əməkdaşlıq edilməsi | 5 |
| qiymətləndirmənin təkmilləşdirilməsi | 29 |
| məktəbin maddi-texniki təminatının çatışmazlığı | 14 |
| əlavəmin olmaması | 77 |
| şagirdə yüklənmiş dərsin azaldılması | 73 |
| dərslik məzmunu yaş səviyyələrinə uyğun və ətraflı olsun | 94 |
| əvvəlki proqramın tətbiq edilməsi | 15 |
| müəllimlərin inkişaf etdirilməsi | 44 |
| dərs saatlarının artırılması | 10 |
| praktik fəaliyyətlərin artırılması | 33 |
| mövcud proqramın təkmilləşdirilməsi | 19 |

Respondentlərin qeyd etdikləri cavablara əsasən, əsas istiqamətlər təyin edilərək, müəyyən kodlar çıxarılmış və həmin kodlar üzrə şərhlər verilmişdir.

Kod 1 – Valideynlərlə əməkdaşlıq edilməsi

Valideynlərin çox az qisminin qeyd etdiyinə görə məktəblər valideynlərlə əməkdaşlıq etməlidirlər. Onların fikrincə, əməkdaşlığın mümkün olduğu təhsil müəssisələrində uğur daha əlçatan və daimi olur.

R-5: Məktəblərdə "valideyn saatı" adlı dərs saatı peşəkar pedaqoq və psixoloqlarla görüşlər təşkil edilməli, gələcək dünyaya hazırlamalı olduğumuz uşaqlar barədə söhbətlər aparılmalı, bundan əlavə uşaqların lazımsız informasiyalarla yüklənməməsi üçün onlar maraqlı istiqamətlərə yönləndirməlidir.

Kod 2 – Qiymətləndirmənin təkmilləşdirilməsi.

Bir çox sorğu iştirakçıları qeyd edirlər ki, əsaslı dəyişiklik qiymətləndirmə sistemində olmalıdır. Belə ki, onlar qiymətləndirmə sisteminin həqiqi savadlılığı ölçmədiyini, habelə uşaqlarda əlavə gərginliyə səbəb olduğunu vurğulayırlar. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-218: KSQ, BSQ sayı azaldılmalı, uşaqların tapşırıqları valideyn köməyi olmadan yerinə yetirməsi üçün çalışmalar onların yaş və idrak səviyyəsinə uyğun olmalıdır.

R-320: Məsələn musiqi, təsviri incəsənət, texnologiya fənləri bu qədər dərindən keçirilməyə bilər.

R-335: KSQ, BSQ və monitorinqlərin ibtidai sinifdə keçirilməsi lazımlı deyil.

Kod 3 – Məktəbin maddi-texniki təminatının çatışmazlığı.

Bəzi valideynlər təklif edirlər ki, tədris prosesinin effektivliyini artırmaq üçün məktəblərdə maddi-texniki baza yaxşılaşdırılmalıdır. Məktəblərdə şəraitin yaxşılaşdırılması birbaşa tədris prosesinə təsir edə bilər. Bu həm də praktiklik baxımdan əhəmiyyət kəsb edir. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-2: Müasir təhsil proqramının tətbiq olunduğu, məktəblərdə şərait də yenilənib, inkişaf etdirilməlidir.

R-128: Məktəblərə inventarlaşdırma olmalıdır. Praktik dərslər təşkil edilməlidir.

Kod 4 – Əlavəm yoxdur.

Sorğu iştirakçılarının 77 nəfəri isə indiki təhsil proqramına heç bir əlavələrinin olmadığını qeyd ediblər. Belə ki, onlar indiki təhsilin kifayət qədər yüksək səviyyədə olduğu ilə həmfikirdirlər.

R-24: Əlavəm yoxdur.

R-189: Heç bir fikir əlavə etmək istəmirəm.

R-405: Təhsilimiz yüksək səviyyədədir, əlavələrim yoxdur.

Kod 5 – Dərs yükünün azaldılması.

Valideynlərin bəziləri təklif edir ki, dərs yükü (ev tapşırığı, əlavə məşğələlər və s.) azaldılmalıdır. Onlar hesab edirlər ki, ev tapşırıqları azaldılmalı və sadə formada izahlarla əsasən, tədris prosesi mühitində müəllimlər tərəfindən ətraflı şəkildə izah edilməlidir. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-144: Tapşırıqların sayı azaldılsın.

R-148: Tapşırıqlar uşaqlara sadə və anlaşılan formada izah edilsin.

R-231: Yaxşı olardı ki, uşaqları aşağı siniflərdən bu qədər çətin tapşırıqlarla yormayaq.

Kod 6 – Dərslik məzmunu yaş səviyyələrinə uyğun olsun.

Sorğu iştirakçılarının 94 nəfəri isə təklif edir ki, tədris prosesində istifadə edilən dərsliklərin məzmunu öyrənənlərin yaş səviyyəsinə uyğunlaşdırılmalı və daha ətraflı şəkildə tərtib edilməli, həmçinin dərsliklər peşəkar mütəxəssislər tərəfindən hazırlanmalıdır. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-53: Dərsliklər hər biri yenidən sadə formatda dərc olunmalı, qaydalar, məlumatlar ətraflı, anlaşılan formada yazılmalıdır. Lazım olan hər bir məlumat dərsliklərdə olmalıdır.

R-116: Dərsliklər düzgün mütəxəssislər tərəfindən yazılsın. Dərslər uşaqlar üçün maraqlı əyləncəli, onların sevəcəyi şəkildə təşkil olunsun.

R-244: Qəbul və buraxılış imtahanlarının tələblərinə uyğun dərsliklər

Kod 7 – Əvvəlki proqramın tətbiq edilməsi

Bəzi valideynlər ənənəvi təhsil proqramının yenidən tətbiq olunması fikrini təklif edirlər. Onlar əvvəlki təhsil proqramının tətbiqinin daha çox fayda verəcəyinə inanırlar. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-39 Kurikulum ləğv olunmalı, əvvəlki təhsil sisteminə qayıtmalıyıq.

R-274: Konservativ görünsə də, əvvəlki tədris proqramının tətbiqinin daha çox fayda verəcəyini düşünürəm. Hazırda mövcud olan kurikulum şagirdlərdə möhkəm təməl yaratmır, eyni zamanda düzgün tətbiq olunduğu hallarda belə tam səmərəli olmur.

Kod 8 – Müəllimlərin inkişaf etdirilməsi

44 nəfər valideyn isə təhsil proqramının düzgün şəkildə tətbiq olunması məsələsi üzərində dayanır. Onlar müəllim peşəkarlığını artırmaqla daha faydalı və uğurlu tədris mühiti yaranacağına ümid edirlər. Həmçinin müəllimlərin daha interaktiv metodlardan istifadə etməsini, dərsi daha çox fəallıq üzərində qurmasını, habelə əsas prioritet istiqamətin öyrənənlərdə təhsilə qarşı qorxu yerinə, sevgi yaratmaq olduğunu düşünürlər. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-29: Kişi müəllimlərin sayı artırılmalıdır.

R-44: Bəzi müəllimləri yeniləri ilə əvəz etmək lazımdır. Çünki bu kimi müəllimlər tədris olunan yeni mövzunu izah etmir, sadəcə şagirdə "get dərsi öyrən" tapşırığını verirlər.

R-357: Qaydaların və məntiqi tapşırıqların daha maraqlı və daha asan izah olunması üçün müəllimlərin kurs keçməsi tələb edilməlidir.

Kod 9 – Dərs saatlarının artırılması

Bir qisim sorğu iştirakçıları isə dərs saatlarının artırılması fikrini təklif edirlər. Onların fikrincə bu, uşaqların dərsin məzmununu daha yaxşı mənimsəmələrinə kömək edə bilər. Sorğu iştirakçılarının bəzilərinin cavabları aşağıdakı kimidir:

R-309: Uşaqların əlavə hazırlığa ehtiyacları olmasın, məktəbdə təlim zamanı keçilən dərsləri tam öyrənib mənimsəsinlər. Evə gələndə uşaqlar dərslərdən tam razı qalsınlar.

Kod 10 – Praktik fəaliyyətlərin artırılması.

Başqa bir təklif isə praktik fəaliyyətlərin artırılması ilə bağlıdır. Valideynlər qeyd edir ki, praktiki dərslərin çox olması öyrənməni daha effektiv şəkildə artırır. Əlavə olaraq, onlar bu fəaliyyətlərin öyrənənlər üçün daha motivasiyalı və fəal bir mühitin yaranması üçün vacib olduğunu vurğulayırlar. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-82: Praktiki dərslərə üstünlük verilsə, daha yaxşı olar. Uşaqlar həm motivasiya alar, həm də dərsləri sevərək mənimsəyərlər.

R-339: Praktik tapşırıqlar artırılsın, nəzəriyyə azaldılsın, fənlərarası əlaqə gücləndirilsin (məsələn riyaziyyatla informatika, biologiya ilə həyat bilgisi).

R-387: Müasir təhsil proqramında ən çox dəyişmək istədiyim məqam – dərslərin daha praktik və tətbiqyönümlü olmasıdır. Şagirdlərin yalnız nəzəri məlumatları deyil, real həyatda istifadə edə biləcəkləri bacarıqları əldə etməsi vacibdir. Məsələn, yaradıcı düşünmə, problem həlletmə, layihə əsaslı öyrənmə və rəqəmsal savadlılıq kimi komponentlərin daha çox yer almasını istərdim. Eyni zamanda dərsliklərin daha yenilənmiş, vizual və interaktiv şəkildə hazırlanması şagirdlərin motivasiyasını artırar və öyrənməni daha effektiv edər.

Kod 11 – Mövcud proqramın təkmilləşdirilməsi

Digər təklif isə, mövcud təhsil proqramının daha da təkmilləşdirilməsi istiqamətindədir. Belə ki, valideynlər təhsil proqramının daha da güclü versiyasının yaradılmasının öyrənmə baxımından mühüm əhəmiyyət kəsb etdiyini düşünürlər. Onlardan bəzilərinin cavabları aşağıdakı kimidir:

R-327: Daha səmərəli proqram hazırlanmalıdır.

R-328: Təhsil proqramı ciddiləşdirilməlidir.

## Nəticə / Conclusion

Aparılan tədqiqat valideynlərin yeni təhsil proqramı (kurikulum) barədə fikirlərini və təcrübələrini əks etdirmişdir. Nəticələr göstərir ki, valideynlərin əksəriyyəti yeni təhsil proqramı haqqında kifayət qədər ətraflı məlumat

sahibidirlər. Bununla belə, valideynlər bildirirlər ki, proqramların hazırlanması prosesində onların iştirakı demək olar ki, təmin edilmir və qərarverici mərhələlərdə valideynlərin fəal iştirakı hələ də məhduddur.

Valideynlər dərsliklərin keyfiyyətini orta səviyyədə qiymətləndirmiş və dərsliklərin uşaqlara mövzuları başa düşməkdə yalnız qismən kömək etdiyini vurğulamışlar. Eyni zamanda dərsliklərin və mövzuların uşaqların yaş səviyyəsinə uyğunluğunun qismən təmin olunduğu qeyd edilmişdir. Bu baxımdan, Koç qeyd edir ki, valideynlərin təhsil keçmişi onların övladlarının təhsilində dəstəyinə təsir edir [Koch, L., 2018]. Bizim tədqiqatımızda valideynlərin əksəriyyəti əvvəlki təhsil proqramında təhsil almış və 165 nəfər əvvəlki proqramın real həyatda tətbiqinin yüksək olduğunu düşünür. Bu, Koç nəzəriyyəsi ilə uzlaşır; valideynlərin təhsil təcrübəsi onların proqramları dəyərləndirməsinə və uşaqlarının öyrənməsinə münasibətinə təsir göstərir.

Eyni zamanda valideynlərin məşğul iş qrafiki və vaxt məhdudiyyəti də diqqətə alınmalıdır. Makdauel və b. göstərir ki, bəzi valideynlər uşaqlarının təhsilində iştirak etmək üçün kifayət qədər vaxt tapa bilmirlər [McDowell, et.al., 2018]. Bizim tədqiqatda da valideynlər vurğulayıblar ki, dərsliklərin və dərs məzmununun uşaqlar üçün anlaşılan, sadə və aydın olması vacibdir. Bu, belə şərtlər altında uşaqların öyrənmə prosesində əlavə müəllim dəstəyi olmadan, yalnız məktəb müəlliminin izahı ilə mövzunu mənimsəməsinə imkan yaradır. Beləliklə, valideynlərin övladları ilə dərindən məşğul ola bilməməsi problemini kompensasiya etmək üçün dərslik və dərs məzmunu əlverişli olmalıdır.

Valideynlər yeni təhsil proqramında dəyişikliklər barədə, əsasən, dərsliklərin və tədris məzmununun uşaqların yaş səviyyəsinə uyğunluğunu artırmaq, ev tapşırıqlarının həcmini azaltmaq və proqramı ümumi yaş səviyyəsinə uyğunlaşdırmaq təkliflərini irəli sürmüşlər. Bu, valideynlərin övladlarının fərdi inkişafına diqqət göstərdiyini və təhsildə yaş uyğunluğuna böyük önəm verdiklərini göstərir.

Tədqiqat iştirakçıları həmçinin hesab edirlər ki, yeni təhsil proqramı uşaqlarda müstəqil düşünmə bacarığının inkişafına müəyyən dərəcədə töhfə verir və XXI əsrin tələb etdiyi əsas bacarıqların formalaşmasına qismən imkan yaradır. Bu baxımdan, Bernard (2012) valideynlərin erkən təlimdə iştirakının uşaqların öyrənmə nəticələrinə, maariflənməsinə və psixososial inkişafına əhəmiyyətli təsir göstərdiyini vurğulayır. Bizim nəticələrimiz də göstərir ki, valideynlərin proqram və dərsliklər barədə məlumatlılığı və dəstəyi uşaqların müstəqil öyrənməsini dəstəkləyir.

Ümumilikdə, aparılan tədqiqat valideynlərin fikirlərinə əsaslanaraq göstərir ki, yeni təhsil proqramı müasir tələblərə uyğunluq baxımından üstünlük təşkil etsə də, dərsliklərin keyfiyyəti, yaş uyğunluğu və valideynlərin proqramın hazırlanmasında iştirakı kimi sahələrdə təkmilləşdirməyə ehtiyac vardır. Eyni zamanda valideynlərin məşğul iş qrafiki nəzərə alınaraq, dərslik və dərs məzmununun şagird

üçün tam başa düşülən, əlavə dəstəyə ehtiyac yaratmayan şəkildə hazırlanması zəruridir.

Tədqiqatın ümumi nəticəsinə əsasən, aşağıdakı təklifləri qeyd etmək məqsədəuyğundur:

1. *Valideynlərin təhsil proqramlarının hazırlanmasında fəal iştirakını təmin etmək.* Tədqiqatın nəticələri göstərdi ki, valideynlər təhsil proqramlarının hazırlanmasında demək olar ki, iştirak etmir. Lakin aparılan ədəbiyyat araşdırması, həmçinin valideynlərlə təşkil edilmiş sorğunun nəticələri bir daha göstərdi ki, şagirdlərin uğur qazanmasında valideynlərlə əməkdaşlığın əvəzsiz rolu var. Bu baxımdan, məktəblərdə bu barədə davamlı konsultasiyaların, maarifləndirmə tədbirlərinin aparılması faydalı ola bilər.
2. *Təhsil proqramı əsasında hazırlanan dərsliklərin yaş səviyyəsinə uyğunlaşdırılması.* Dərsliklər tərtib olunarkən hər bir fənnin məzmununa uyğun olaraq öyrənənlərin yaş səviyyəsi, öyrənmə psixologiyası, habelə müxtəlif dərketmə növləri nəzərə alınaraq tərtib edilməsi daha məqsədəuyğun ola bilər. Çünki, şagirdlərin yaş və öyrənmə xüsusiyyətləri bir-birilə birbaşa əlaqəlidir. Bu əlaqənin düzgün qurulması öyrənmə prosesinin daha rahat və səmərəli olunması baxımından böyük əhəmiyyət kəsb edir.
3. *Məktəblərdə müəllimlərin peşəkarlığının artırılması.* Sorğunun nəticələri birdaha sübut etdi ki, bəzi müəllimlər öz fənlərini kifayət qədər aydın şəkildə tədris etməyi bacarmırlar. Həmçinin bəzi ailələrdə hər iki valideyn işlədiyinə görə onlar övladlarına kifayət qədər vaxt ayıra bilmirlər. Bununla yanaşı, bəzi valideynlərin təhsil səviyyəsi övladlarına dərslərinə kömək etməyə imkan vermir. Nəticə olaraq şagirdlər mövzunu qavramaqda çətinlik çəkir və əlavə müəllim dəstəyinə (repetitor) ehtiyac duyurlar. Lakin məktəblərdəki fənn müəllimləri tədris prosesini elə qurmalıdırlar ki, dərsin sonunda bir çox şagird dərslə bağlı əsas nüansları qavramış olsun. Bunun üçün əlavə dərs saatları, ETÜD-lər (ev tapşırıqları üçün dərs), dərnəklər təşkil oluna bilər.

**Məqalənin aktuallığı.** Tədris proqramları müasir təhsilin əsasını təşkil edir. Valideynlərin bu proqrama münasibəti, onun effektivliyini və təcrübədə qarşılaşılan problemləri birbaşa əks etdirir. Məqalə valideyn fikirləri əsasında mövcud sistemin güclü və zəif tərəflərini müəyyən edir, bu da təhsil siyasəti üçün aktuallaşmış məlumat bazası təqdim edir.

**Məqalənin elmi yeniliyi**. Tədqiqat Azərbaycan kontekstində valideynlərin kurikuluma münasibətini qarışıq metodla (kəmiyyət və keyfiyyət) ilk dəfə bu qədər geniş miqyasda (413 valideyn) təhlil edir. Aparılan sorğu vasitəsilə valideynlərin təcrübə, gözlənti və təklifləri sistematik şəkildə aşkara çıxarılır və mövcud beynəlxalq nəzəriyyələrlə (məs., Syomvene, Nyamayi) yerli vəziyyət müqayisə olunur.

**Məqalənin praktik əhəmiyyəti**. Alınan nəticələr və tövsiyələr təhsil idarəçiləri, məktəb rəhbərləri və müəllimlər üçün praktiki dəyərə malikdir. Məqalə məktəb-ailə əməkdaşlıq mexanizmlərinin gücləndirilməsi, dərsliklərin yaşa uyğun yenidən işlənilməsi, qiymətləndirmə sisteminin və müəllim hazırlığının təkmilləşdirilməsi kimi konkret addımların planlaşdırılması üçün əsas təşkil edir.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Ahmadi, S., & Keshavarzi, A. (2017). The necessity of parental participation in curriculum planning and preparation.
2. Azərbaycan Recpublikasının Təhsil İnstitutu. Kurikulum. arti.edu.az/az/page/24-kurikulum
3. Azərbaycan respublikası Elm və Təhsil Nazirliyi. (2009). Təhsil haqqında qanun.
4. Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası-Milli Kurikulum. (2006).
5. Şleyxer, A. (2022). XXI əsrin təhsilini necə qurmalı. Bakı.
6. Bernard, V.L.F. (2012). International Child Development Initiative (ICDI) Parental involvement in early learning: A review of research, policy and good practice. Netherlands: The Hague.
7. "Kurikulum nədir?" (2014). Azərbaycan müəllimi (14 noyabr) №02, S.1
8. Graham-Clay, S. (2005). Communicating with parents: Strategies for teachers. School Community Journal, 15(1), pp117–129.
9. Khan, M.A., & Law, L.S. (2015). An Integrative Approach to Curriculum Development in Higher Education in the USA: A Theoretical Framework. International Education Studies, 8(3), 66-76.
10. Koch, L.A. (2018). Parent involvement in early childhood education and its impact on the development of early language and literacy skills: An exploration of one head start program's parent involvement model. PhD Dissertation for Doctor of Education. Drexel University, Pennsylvania.
11. Kostadinova, M.B. (2012). The Role of Parents in the Implementation of the Curricula. Procedia-Social and Behavioral Sciences, 46, 2374-2377.
12. McDowell, K., Jack, A., & Compton, M. (2018). Parent involvement in Pre-Kindergarten and the effects on student achievement. The Advocate, 23(6).
13. Nyamai, D.V. (2021). Curriculum Development: Parents Participation in Curriculum Development. Academia Letters.
14. Oliva, P.F. (1982). Developing the curriculum. Little, Brown.

15. Posner, G. (1988). Models of curriculum planning. In L. Beyer, & M. Apple (Eds.), The curriculum: Problems, politics, and possibilities. New York: State University of New York Press., pp77-97.
16. Su, S.W. (2012). The various concepts of curriculum and the factors involved in curricula-making. Journal of Language Teaching and Research, 3(1), 153-158.
17. Sunawar, A. (2017). Study of the Level of Understanding of Parents towards Their Children Curriculum in Vocational Schools. INVOTEC, 13(2).
18. Syomwene, A. (2022). Parental involvement strategies and challenges in development of pupils' literacy skills in the implementation of competency based curriculum in early years education in Kenya. European Journal of Education and Pedagogy, 3(2), pp.53-59.
19. Tyler, R.W. (1949). Basic principles of curriculum and instruction. University of Chicago Press.

# CURRENT STATE OF THE GENERAL EDUCATION CURRICULUM IN AZERBAIJAN AND AREAS REQUIRING IMPROVEMENT

**Graduate Students, SABAH groups, Azerbaijan State Pedagogical University**

**Aysu Ahmadova**
aysuahmadova596@gmail.com, https://orcid.org/0009-0008-6012-5370
**Aytan Huseynova**
aytnhsynva0811@gmail.com, https://orcid.org/0009-0001-8991-6845
**Mujgan Abdullayeva**
mujgan.abdullayeva2003@gmail.com, https://orcid.org/0009-0006-3042-2919
**Vusala Isfandiyarova**
vusalaisfandiyarova@gmail.com, https://orcid.org/0009-0005-3248-6871
**Hanifa Yunuslu**
henife.yunuslu@gmail.com, https://orcid.org/0009-0009-5816-2815
**Nigar Agazada**
nigaragazade288@gmail.com, https://orcid.org/0009-0002-5241-4670

**Abstract**.The aim of this study is to evaluate the effectiveness of the general education curriculum in Azerbaijan through surveys, statistical research, and analytical methods based on the perspectives of various stakeholders, including teachers and administrators. The primary data collection methods consisted of structured surveys and questionnaires distributed among a broad group of education professionals to gather their views on different aspects of the curriculum. The surveys focused on issues such as the timely delivery of curriculum updates, teacher involvement in curriculum design, and the adequacy of professional development for educators. In addition, the study examined perceptions regarding the effectiveness of current assessment systems, including both formative and summative approaches, as well as the integration of digital resources into the teaching process. The collected data were analyzed using statistical methods to identify key trends and patterns. The findings revealed that although the majority of respondents believe that the curriculum is generally aligned with school objectives and contributes to the development of essential life skills, there are notable gaps in areas such as teachers' readiness to apply innovative teaching methods and the effective use of digital resources. The survey also highlighted that many teachers feel they do not receive sufficient training or support to implement the curriculum effectively. Based on the results, several areas requiring improvement were identified, including the enhancement of teachers' professional development, the modernization of instructional materials in line with contemporary pedagogical requirements, and the strengthening of the integration of digital tools and inclusive education practices. In conclusion, while the general education curriculum in Azerbaijan has achieved significant progress, continuous efforts are necessary to ensure its effective implementation and alignment with modern educational standards.
**Keywords:** general education curriculum, competency-based education, student-centered approach, assessment system, differentiated instruction, inclusive education, digital resources, teacher training.

**DOI:** 10.30546/2709-2488.2026.002.507851
**To cite this article:** Current state of the general education curriculum in Azerbaijan and areas requiring improvement. *Journal of Preschool and Primary Education*, Special issue – "Master's research", pp. 41-58.
**Article history:** received – 08.04.2026; accepted – 07.05.2026.

# AZƏRBAYCAN ÜMUMTƏHSİL KURİKULUMU ÜZRƏ MÖVCUD VƏZİYYƏT VƏ TƏKMİLLƏŞDİRİLMƏYƏ EHTİYACI OLAN SAHƏLƏR

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupu magistrantları**

**Aysu Əhmədova**
aysuahmadova596@gmail.com, https://orcid.org/0009-0008-6012-5370
**Aytən Hüseynova**
aytnhsynva0811@gmail.com, https://orcid.org/0009-0001-8991-6845
**Müjgan Abdullayeva**
mujgan.abdullayeva2003@gmail.com, https://orcid.org/0009-0006-3042-2919
**Vüsalə İsfəndiyarova**
vusalaisfandiyarova@gmail.com, https://orcid.org/0009-0005-3248-6871
**Hənifə Yunuslu**
henife.yunuslu@gmail.com, https://orcid.org/0009-0009-5816-2815
**Nigar Ağazadə**
nigaragazade288@gmail.com, https://orcid.org/0009-0002-5241-4670

**Annotasiya.** Bu tədqiqatın məqsədi müəllimlər və inzibatçılar da daxil olmaqla müxtəlif maraqlı tərəflərin rəyləri əsasında sorğular və statistik araşdırmalar, təhlillər aparmaqla Azərbaycanın ümumtəhsil kurikulumunun effektivliyini qiymətləndirməkdir. Məlumatların toplanması üçün istifadə olunan əsas metodlara strukturlaşdırılmış sorğular və anketlər daxildir ki, bunlar kurikulumun müxtəlif aspektləri ilə bağlı fikirlərini toplamaq üçün geniş təhsil mütəxəssislərinə paylanmışdır. Sorğular kurikulum yeniləmələrinin vaxtında çatdırılması, müəllimlərin kurikulum dizaynında iştirakı və təhsil işçilərinin peşəkar inkişafının adekvatlığı kimi mövzulara yönəlmişdir. Sorğuda həm formativ, həm də yekun yanaşmalar daxil olmaqla mövcud qiymətləndirmə sistemlərinin effektivliyi və rəqəmsal resursların tədris prosesinə inteqrasiyası barədə fikirlər müəyyən edilmişdir. Toplanan məlumatlar əsas tendensiyaları və nümunələri müəyyən etmək üçün statistik metodlardan istifadə etməklə təhlil edilmişdir. Nəticələr göstərdi ki, respondentlərin əksəriyyəti tədris planının ümumilikdə məktəb məqsədləri ilə uyğunlaşdırıldığını və faydalı həyat bacarıqları təmin etdiyini düşünsə də, müəllimlərin innovativ tədris metodlarından istifadəyə hazırlığı və rəqəmsal resurslardan səmərəli istifadə kimi sahələrdə nəzərəçarpacaq boşluqlar var idi. Sorğuda bir çox müəllimin tədris planını effektiv şəkildə tətbiq etmək üçün kifayət qədər təlim və ya dəstək almadıqlarını hiss etdiyi vurğulandı. Sorğunun nəticələri müəllimlərin peşəkar inkişafının artırılması, tədris materiallarının müasir pedaqoji tələbləri əks etdirmək üçün yenilənməsi və rəqəmsal vasitələrin və inklüziv təhsil təcrübələrinin inteqrasiyasının gücləndirilməsi kimi təkmilləşdirilməli sahələri müəyyən etmək üçün istifadə edilmişdir. Tədqiqat nəticəsində belə bir nəticəyə gəlinir ki, Azərbaycanın ümumtəhsil tədris planı əhəmiyyətli irəliləyişlər əldə etsə də, onun effektiv tətbiqini və müasir təhsil standartlarına uyğunlaşdırılmasını təmin etmək üçün davamlı səylər göstərilməlidir.

**Açar sözlər:** ümumtəhsil kurikulumu, kompetensiya əsaslı təlim, şagirdyönümlü yanaşma, qiymətləndirmə sistemi, diferensial təlim, inklüziv təhsil, rəqəmsal resurslar, müəllim hazırlığı.

**DOI:** 10.30546/2709-2488.2026.002.507851
**Məqaləyə istinad:** Azərbaycan ümumtəhsil kurikulumu üzrə mövcud vəziyyət və təkmilləşdirilməyə ehtiyacı olan sahələr. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Magistr tədqiqatları", səh. 41-58.
**Məqalə tarixçəsi:** göndərilib – 08.04.2026; qəbul edilib – 07.05.2026.

## Giriş / Introduction

Azərbaycan ümumtəhsil kurikulumu, təhsil sistemində əsaslı islahatların həyata keçirilməsi ilə diqqət mərkəzindədir. Bu islahatlar, əsasən, təhsil keyfiyyətinin artırılması, şagirdlərin təkcə biliklərlə deyil, eyni zamanda müxtəlif bacarıqlarla təchiz olunmasını təmin etmək məqsədi daşıyır. Müasir təhsil yanaşmalarının tətbiqi və beynəlxalq təhsil standartlarına uyğunlaşma, Azərbaycanın təhsil sistemindəki ən önəmli hədəflərdən biridir. Bu kontekstdə, ümumtəhsil kurikulumu Azərbaycan təhsilinin gələcəyini formalaşdıran və onu beynəlxalq miqyasda rəqabətqabiliyyətli edən bir amil olaraq ortaya çıxır.

Azərbaycanın ümumtəhsil sistemində həyata keçirilən islahatlar, xüsusilə kurikulumda baş verən dəyişikliklər, təhsil sahəsində yeni bir dövrün başlanğıcı hesab olunur. 2009-cu ildən etibarən tətbiq edilməyə başlanmış və 2016-cı ildən sonra daha da təkmilləşdirilmiş olan kurikulum, şagirdlərə biliklərdən daha çox, həyat bacarıqları qazandırmağa yönəlmişdir. Bu kurikulumun əsas prinsiplərindən biri, təhsilin şagirdyönümlü olmasına, yəni şagirdlərin maraqları, ehtiyacları və potensiallarına uyğun dərs proqramlarının hazırlanmasına yönəlməkdir. Bununla yanaşı, kurikulumda biliklərin müasir tələblərə uyğun şəkildə formalaşdırılması, şagirdlərin analitik düşüncə və tənqidi təhlil bacarıqlarının inkişaf etdirilməsi hədəflənir. Lakin təhsil islahatlarının tətbiqi hər zaman müəyyən çətinliklər yaratdığı üçün təkmilləşdirməyə ehtiyac duyulur. İlk növbədə, təhsil sistemi həm mərkəzi, həm də yerli səviyyədə tətbiq olunan kurikulumun effektivliyinin qiymətləndirilməsi və davamlı inkişafının təmin edilməsi baxımından sınaqdan keçirilməlidir. Bu cür təkmilləşdirmələr təhsil idarəetmə strukturlarının gücləndirilməsini, müəllimlərin peşəkar inkişafını, qiymətləndirmə sistemlərinin düzgün tətbiqini və şagirdlərə uyğun fərdiləşdirilmiş yanaşmaların tətbiqini zəruri edir. Eyni zamanda bu kurikulumun tətbiqi ilə bağlı olan təhsil resursları, maddi-texniki bazalar və müəllimlərin innovativ tədris metodlarına hazırlığı da bu islahatların müvəffəqiyyətini şərtləndirən əsas faktorlardır [Kerimova, Y., et al., 2014, s.10].

Azərbaycan ümumtəhsil kurikulumu, təhsil sahəsində müasir yanaşmaların və strategiyaların tətbiqi ilə təhsil sisteminin inkişafına töhfə verəcək bir platformadır. Lakin bu platformanın daimi inkişafı və təkmilləşdirilməsi üçün sistemli yanaşmalara və bütün təhsil sahələrində müasir metodların tətbiqinə ehtiyac vardır. Bu baxımdan, kurikulumun gələcək inkişafı və tətbiqi prosesində qarşıya çıxan əsas problemlərin aradan qaldırılması və sahələr üzrə təkmilləşdirilməsi vacibdir [Orozco-Messana, J., et al., 2020, s.4].

Azərbaycan ümumtəhsil kurikulumu, son illərdə təhsil sahəsində həya-

ta keçirilən islahatların əsasında dayanaraq təhsilin keyfiyyətinin artırılmasına yönəlmişdir. Bu islahatların məqsədi, təhsil prosesinin yalnız bilik ötürməkdən ibarət olmaması, eyni zamanda şagirdlərin həyat bacarıqlarını inkişaf etdirərək onları gələcəkdə uğurlu bir həyat qurmağa hazırlamaqdır. Müasir kurikulumda əsas diqqət şagirdlərin tənqidi düşünmə, problem həlletmə, yaradıcılıq və sosial bacarıqlarının inkişafına yönəldilmişdir. Lakin mövcud kurikulumun tətbiqi və inkişafı ilə bağlı bəzi çətinliklər də mövcuddur. İlk növbədə, müəllimlərin bu innovativ tədris metodlarına uyğun təlim keçməsi vacibdir. Müəllimlərin peşəkar inkişafı, müasir tədris metodlarının tətbiqi və yeni texnologiyalardan istifadə bacarıqları artırılmalıdır. Bu sahədə ciddi çatışmazlıqlar mövcuddur. Müəllimlərin tədris metodlarını effektiv şəkildə tətbiq etmələri üçün davamlı təlimlər və dəstək təmin edilməlidir [Amrullayev, E., 2023, s.12].

Kurikulumun şagirdyönümlü olması, müxtəlif öyrənmə üslublarını nəzərə alaraq dərslərin fərdiləşdirilməsini tələb edir. Bu, şagirdlərin fərdi ehtiyaclarını qarşılamağa, onların tədris prosesinə motivasiyasını artırmağa imkan verir. Lakin bu yanaşmanın geniş tətbiqi üçün tədris materialları və dərs planları daha da təkmilləşdirilməlidir. Qiymətləndirmə sistemi də kurikulumun tətbiqində mühüm rol oynayır. Hal-hazırda təhsil sistemində qiymətləndirmə ənənəvi metodlarla həyata keçirilir, amma müasir qiymətləndirmə yanaşmalarının tətbiqi, şagirdlərin yalnız biliklərini deyil, eyni zamanda bacarıqlarını da qiymətləndirməyə imkan verir. Formativ və summativ qiymətləndirmə yanaşmalarının birgə tətbiqi, şagirdlərin inkişafını daha düzgün izləməyə və onların fərdi bacarıqlarını qiymətləndirməyə imkan verəcəkdir [Gajek, E., 2018, s.7].

Rəqəmsal texnologiyaların təhsilə inteqrasiyası bu günün ən aktual məsələlərindən biridir. Pandemiya dövründə onlayn təhsil və rəqəmsal resurslar təhsil sistemində geniş tətbiq olunsa da, bu texnologiyaların effektiv istifadəsi üçün müəllimlərə texniki dəstək verilməli, şagirdlər üçün uyğun resurslar hazırlanmalıdır. Rəqəmsal alətlərin tədrisə inteqrasiyası, şagirdlərin gələcəkdə rəqəmsal bacarıqlarını inkişaf etdirmələrinə kömək edəcək. İnklüziv təhsil, xüsusi qayğıya ehtiyacı olan şagirdin fərdi ehtiyaclarını nəzərə alaraq təhsil almaq imkanı yaratmaq məqsədi daşıyır. Azərbaycanda inklüziv təhsil sahəsində müəyyən irəliləyişlər olsa da, xüsusi qayğıya ehtiyacı olan şagirdlər üçün tədris materialları və dərs proqramları daha da təkmilləşdirilməlidir. Bu, onların tədris prosesinə tam şəkildə cəlb edilməsini təmin edəcək [Namazova, N., 2023, s.7].

Azərbaycan ümumtəhsil kurikulumu müasir təhsil tələblərinə cavab versə də, onun daha da təkmilləşdirilməsi və bu istiqamətdə daha çox addımların atılması zəruridir. Müəllimlərin təlimləri, qiymətləndirmə sistemləri, rəqəmsal texnologiyalar və inklüziv təhsil sahəsindəki inkişaflar, təhsil keyfiyyətinin artırılmasında mühüm rol oynayacaqdır.

**Problemin qoyuluşu**

Azərbaycan ümumtəhsil kurikulumunun tətbiqi prosesində əldə edilən müsbət nəticələrlə yanaşı, onun effektivliyinə təsir göstərən bir sıra sistemli problemlər mövcuddur. Xüsusilə regionlar üzrə maddi-texniki baza və resurs təminatındakı fərqlər, müəllimlərin innovativ pedaqoji texnologiyalardan istifadə bacarıqlarının qeyri-bərabər səviyyədə olması kurikulumun vahid standartlar əsasında reallaşdırılmasını çətinləşdirir. Kompetensiya əsaslı və şagirdyönümlü yanaşmanın praktik tətbiqində müşahidə olunan metodiki boşluqlar təlim nəticələrinin sabitliyinə təsir göstərir. Formativ və summativ qiymətləndirmə mexanizmlərinin sistemli və obyektiv tətbiqi ilə bağlı çətinliklər də aktuallığını qoruyur. Rəqəmsal və inklüziv təhsil komponentlərinin kurikulum çərçivəsində inteqrasiyası hələ də kompleks və davamlı mexanizmlərin formalaşdırılmasını tələb edir. Bu baxımdan, kurikulumun tətbiq vəziyyətinin elmi əsaslarla təhlili və mövcud problemlərin strukturlaşdırılmış şəkildə müəyyənləşdirilməsi tədqiqatın əsas problemini təşkil edir.

**Metodologiya**

Tədqiqatın metodoloji əsasını sistemli və kompleks yanaşma təşkil edir. Araşdırmada kəmiyyət tədqiqat metodlarından istifadə olunaraq empirik məlumatlar anket sorğusu vasitəsilə toplanmışdır. Sorğuda ümumtəhsil müəssisələrinin pedaqoji və idarəetmə heyəti iştirak etmişdir ki, bu da mövzunun müxtəlif aspektlərdən qiymətləndirilməsinə imkan yaratmışdır. Toplanmış məlumatların emalı zamanı statistik təhlil metodları tətbiq edilmiş, nəticələr faiz göstəriciləri və müqayisəli analiz əsasında ümumiləşdirilmişdir. Bununla yanaşı, normativ-hüquqi sənədlərin, kurikulum materiallarının və müvafiq elmi ədəbiyyatın təhlili aparılaraq nəzəri-metodoloji baza formalaşdırılmışdır. Tədqiqat çərçivəsində kurikulumun idarəetmə, məzmun, qiymətləndirmə və müəllim hazırlığı komponentləri strukturlaşdırılmış şəkildə araşdırılmışdır. Əldə olunan nəticələrin obyektivliyini təmin etmək məqsədilə məlumatların sistemləşdirilməsi və interpretasiyası elmi prinsiplərə uyğun şəkildə həyata keçirilmişdir. Seçilmiş metodoloji çərçivə kurikulumun tətbiq mexanizmlərinin çoxşaxəli qiymətləndirilməsinə və əsaslandırılmış nəticələrin əldə olunmasına imkan vermişdir.

## Əsas hissə / Main part

Bu tədqiqat, tədris proqramlarının müxtəlif aspektlərini qiymətləndirmək və onların təhsil prosesindəki effektivliyini araşdırmaq məqsədi daşıyır. Sorğu vasitəsilə toplanan məlumatlar, iştirakçıların tədris proqramı ilə bağlı təcrübələrini

və rəylərini əks etdirir. Tədqiqatda istifadə olunan əsas metodlar arasında anketlər və statistik təhlil yer almışdır.

İlk olaraq, respondentlərə tədris proqramı ilə bağlı dəyişikliklər və məlumatların vaxtında çatdırılması mövzusunda suallar verilmişdir. Sorğu nəticələrinə görə, əksər iştirakçılar (51,3%) tədris proqramı ilə bağlı dəyişikliklər barədə vaxtında məlumat aldıqlarını bildirmişlər. Lakin bəzi iştirakçılar (14,3%) məlumatın bəzən gecikdiyini qeyd etmişlər.

Tədris proqramının yenilənməsi prosesində rəhbər heyətin iştirakının vacibliyi də sorğuda yer almışdır. Əksər iştirakçılar (43,7%) rəhbər heyətin tədris proqramının yenilənməsində iştirakını müsbət qiymətləndirmiş, bununla belə bəzi iştirakçılar (35,3%) rəhbər heyətin daha çox iştirak etməsinin vacibliyini bildirmişlər.

Tədqiqatda həmçinin tədris proqramlarında mövcud olan boşluqlar və problemlər araşdırılmışdır. Nəticələrə görə, iştirakçıların 44,5%-i mövcud tədris proqramının müəyyən boşluqlarının olduğunu, amma ümumilikdə proqramın kifayət qədər səmərəli və obyektiv olduğunu düşündüklərini bildirmişlər. Yalnız bir neçə iştirakçı (9,2%) tədris proqramının ciddi problemlər yaratdığını qeyd etmişdir.

Bu tədqiqatda istifadə olunan metodlar, tədris proqramlarının qiymətləndirilməsi üçün iştirakçıların müxtəlif rəy və təcrübələrini əks etdirmək məqsədi daşıyır. Sonrakı bölmələrdə bu məlumatların təhlili və tədris proqramlarının effektivliyinin artırılması istiqamətində mümkün təkliflər təqdim ediləcəkdir.




Bu diaqram hazırkı kurikulumun məktəbin təhsil hədəfləri ilə nə dərəcədə uyğun olduğunu analiz edir. Respondentlərin əksəriyyəti (47,9%) kurikulumun məktəbin hədəflərinə uyğun olduğunu hesab edir. 33,6%-i isə qismən razılaşmadığını bildirir, digər respondentlər isə ya tamamilə razı deyil, ya da neytral fikirdədir.

2. Tədris proqramının məzmunu şagirdlərin real həyat bacarıqlarını inkişaf etdirməyə imkan verir.
119 responses




Bu diaqram kurikulumun şagirdləri real həyatda istifadə edilə biləcək bacarıqlarla necə təmin etdiyini qiymətləndirir. Respondentlərin təxminən 42%-i kurikulumun praktik bacarıqlar üçün faydalı olduğunu hesab edir. Daha kiçik bir qrup (8,4%) isə tamamilə razı deyil, qalanlar isə neytral və ya bir az mənfi fikir bildiriblər.

3. Tədris proqramında kompetensiyalar (bilik, bacarıq, münasibət) aydın şəkildə müəyyən olunub.
119 responses




Bu diaqram, kurikulumdakı bilik, bacarıq və münasibətlərin müəyyənləşdirilib-müəyyənləşdirilmədiyini qiymətləndirir. Respondentlərin əksəriyyəti (43,7%) bu kompetensiyaların düzgün müəyyənləşdirildiyini qəbul edir, onların bir hissəsi buna razı deyil və ya neytral fikirdədir.




Cavab verənlərin 47,9%-i bu suala “1” (tam razıyam) olaraq cavab verib, bu da əksər respondentlərin tədris proqramının məntiqi əlaqəsini yüksək qiymətləndirdiyini göstərir. 20,2%-i “2” (razıyam), 16%-i isə “3” (nə razı, nə də narazı) olaraq cavab verib. Yalnız 16%-i “4” (narazıyam), çox az bir hissəsi isə “5” (tamamilə narazıyam) olaraq qiymətləndirib. Bu, ümumilikdə tədris proqramında məntiqi əlaqənin mövcudluğunun təsdiqləndiyini göstərir.




Cavab verənlərin 36,1%-i bu suala “3” (bəli, lakin tam deyil) olaraq cavab verib, bu da müəllimlərin fikirlərinin müəyyən qədər nəzərə alındığını göstərir. 23,5%-i “1” (tamamilə razıyam), 17,6%-i isə “4” (razıyam), 10,9%-i “5” (tamamilə narazı) olaraq qiymətləndirib, bu da müəllimlərin fikirlərinin bəzən kifayət qədər nəzərə alınmadığını göstərir.

6. Müəllimlər yeni tədris proqramı ilə işləmək bacarığına malikdirlər.
119 responses




41,2%-i "3" (bəli, amma inkişaf etdirilməli) olaraq cavab verib, bu da müəllimlərin ümumilikdə lazımi bacarıqlara malik olduğunu göstərir. 31,1%-i "2" (razıyam) olaraq cavab verib, 13,4%-i isə "1" (tamamilə razıyam), 10,1%-i "4" və 3,4%-i "5" (tamamilə narazıyam) olaraq cavab verib, bu da müəllimlərin bəzi sahələrdə bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini göstərir.

7. Tədris proqramı ilə bağlı keçirilən təlimlər mütəmadi və keyfiyyətlidir.
119 responses




Cavab verənlərin 32,8%-i "4" (razıyam) olaraq qiymətləndirib, bu da çoxsaylı iştirakçıların təlimlərin mütəmadi və keyfiyyətli olduğunu düşündüklərini göstərir. Eyni faiz, yəni 32,8%-i "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da təlimlərin keyfiyyəti və mütəmadiliyi ilə bağlı ortaq bir fikrin olduğunu göstərir. 16,8%-i "2" (razıyam) olaraq cavab verib, bu da təlimlərin keyfiyyətinin bəzi hallarda daha səmərəli olmasını istədiklərini göstərir. 11,8%-i isə "1" (tamamilə razıyam) olaraq qiymətləndirib, bu da bir neçə nəfərin təlimlərin keyfiyyəti ilə tam razı olmadığını göstərir. Son olaraq, 5% iştirakçı "5" (tamamilə narazıyam) olaraq cavab verib, bu da çox az sayda iştirakçının təlimlərin mütəmadi və keyfiyyətli olmadığını düşündüyünü göstərir.

Ümumilikdə, iştirakçılar tədris proqramı ilə bağlı keçirilən təlimləri müsbət qiymətləndiriblər, lakin bəzi iştirakçılar bu təlimlərin keyfiyyətinin və mütəmadi keçirilməsinin daha yaxşı olmasını arzulayır.

8. Müəllimlər tədris proqramı sənədlərini (standart, proqram, tədris planı) asanlıqla başa düşürlər
119 responses




Cavab verənlərin 37,8%-i “4” (razıyam) olaraq qiymətləndirib, bu da müəllimlərin tədris proqramı sənədlərini başa düşməkdə çətinlik çəkmədiklərini göstərir. 36,1%-i “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da bəzən sənədlərin anlaşılmasında müəyyən çətinliklər olduğunu göstərir. 10,9%-i “2” (razıyam) olaraq qiymətləndirib, 10,9%-i isə “1” (tamamilə razıyam) olaraq cavab verib, bu da müəllimlərin böyük bir hissəsinin sənədləri başa düşməkdə heç bir çətinlik çəkmədiyini göstərir. Yalnız 5,1%-i “5” (tamamilə narazıyam) olaraq qiymətləndirib, bu da az bir hissənin sənədlərin anlaşıqlı olmadığını düşündüyünü göstərir.

9. Tədris proqramının praktik tətbiqində ciddi çətinliklərlə qarşılaşmırıq.
119 responses




38,7% respondent “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da tədris proqramının tətbiqində müəyyən çətinliklər olduğunu, amma ümumilikdə, qənaətbəxş hesab edildiyini göstərir. 33,6%-i “2” (razıyam), 16%-i isə “1” (tamamilə razıyam) olaraq qiymətləndirib, bu da bəzi respondentlərin proqramın praktiki tətbiqində çətinliklərlə qarşılaşdığını göstərir. 12,6%-i “4” (razıyam) və

5,1%-i "5" (tamamilə narazıyam) olaraq cavab verib, bu da çox az sayda iştirakçının ciddi çətinliklərlə qarşılaşdığını göstərir.

10. Şagird yönümlü tədris metodlarını tətbiq etmək üçün məktəbin şəraiti (sinif ölçüsü, resurslar) kifayətdir.
119 responses




46,2%-i "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da məktəbin şəraitinin şagirdyönümlü tədris metodlarına uyğun olduğunu, amma bəzi inkişaf sahələrinin olduğunu göstərməkdədir. 35,3%-i "4" (razıyam) olaraq qiymətləndirib, 12,6%-i isə "2" (razıyam) olaraq cavab verib, bu da əksər respondentlərin məktəb şəraitinin şagirdyönümlü metodları tətbiq etmək üçün kifayət qədər yaxşı olduğunu düşündüklərini ifadə edir. 5,9%-i "1" (tamamilə razıyam) olaraq cavab verib, bu da çox az sayda iştirakçının məktəbin şəraitinin qeyri-kafiliyini düşündüyünü göstərir.

11. Tədris proqramında nəzərdə tutulan qiymətləndirmə mexanizmləri praktikada effektivdir.
119 responses




46,2%-i "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da qiymətləndirmə mexanizmlərinin müəyyən mənada effektiv olduğunu, amma təkmilləşdirilməsi lazım olduğunu göstərir. 28,6%-i "4" (razıyam) olaraq qiymətləndirib, 12,6%-i isə "1" (tamamilə razıyam) olaraq cavab verib, bu da tədris proqramında qiymətləndirmə mexanizmlərinin yaxşı işlədiyini göstərir. 12,6%-i "2" (razıyam) olaraq qiymətləndirib, bu da bəzi hallarda qiymətləndirmə mexanizmlərinin səmərəli olmayacağını göstərir.




41,2%-i "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da müəllimlərin qiymətləndirmə nəticələrini tədrisi yaxşılaşdırmaq üçün müəyyən qədər istifadə etdiklərini göstərir. 32,8%-i "4" (razıyam), 10,9%-i isə "1" (tamamilə razıyam) olaraq cavab verib, bu da müəllimlərin qiymətləndirmə nəticələrini tədrisi yaxşılaşdırmaq üçün istifadə etdiklərini göstərir. 10,9%-i "2" (razıyam) olaraq cavab verib, bu da bəzi müəllimlərin qiymətləndirmə nəticələrindən daha effektiv istifadə etmələri lazım olduğunu göstərir.




Cavab verənlərin 38,7%-i "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da qiymətləndirmənin şagird bacarıqlarını müəyyən dərəcədə əks etdirdiyini göstərir. 36,1%-i "4" (razıyam) olaraq qiymətləndirib, bu da qiymətləndirmə nəticələrinin şagirdlərin real bacarıqlarını yaxşı əks etdirdiyini düşünənlərin əksəriyyət təşkil etdiyini göstərir. 10,1%-i "2" (razıyam), 10,1%-i isə "1" (tamamilə razıyam) olaraq qiymətləndirib. Bu, qiymətləndirmənin şagird bacarıqlarını tam şəkildə əks etdirmədiyi qənaətində olduqlarını göstərir.

14. Qiymətləndirmə meyarları aydın və ölçülə biləndir.
119 responses




44,5%-i “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da qiymətləndirmə meyarlarının ölçülə bilən və aydın olduğunu, amma bəzən qarışıqlıq yarana biləcəyini göstərir. 41,2%-i “4” (razıyam) olaraq qiymətləndirib, bu da əksər iştirakçıların qiymətləndirmə meyarlarının aydın və ölçülə bilən olduğunu düşündüklərini göstərir. 15,1%-i isə “2” (razıyam) olaraq cavab verib, bu da bəzi iştirakçıların qiymətləndirmə meyarlarının daha aydın olmasını istədiklərini göstərir.

15. Tədris proqramının uğurlu tətbiqi üçün məktəbin maddi-texniki bazası kifayətdir.
119 responses




39,5%-i “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da məktəbin maddi-texniki bazasının kifayət qədər yaxşı olduğunu, lakin bəzi sahələrdə inkişafın zəruri olduğunu göstərir. 23,5%-i “4” (razıyam) olaraq qiymətləndirib, 19,3%-i isə “2” (razıyam) olaraq cavab verib. Bu da ümumilikdə, məktəbin maddi-texniki bazasının tədris proqramını uğurla həyata keçirmək üçün yetərli olduğunu, amma bəzi sahələrdə inkişaf etməli olduğunu göstərir.




44,5%-i “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da metodik dəstəyin müəyyən qədər verildiyini göstərir, amma bəzi hallarda daha çox dəstək olmasını istəyənlər var. 26,1%-i “4” (razıyam), 13,4%-i isə “2” (razıyam) olaraq qiymətləndirib. Yalnız 10,1%-i “1” (tamamilə razıyam) və 5,9%-i “5” (tamamilə narazıyam) olaraq cavab verib, bu da bəzi iştirakçıların metodik dəstəyin daha yaxşı olmasını düşündüklərini göstərir.




Cavab verənlərin 57,1%-i “4” (razıyam) olaraq qiymətləndirib, bu da məktəbdaxili idarəetmənin tədris proqramının tətbiqinə müsbət təsir göstərdiyini düşünənlərin çoxluğunu göstərir. 20,2%-i “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da tədris proqramının tətbiqində məktəbdaxili idarəetmənin müəyyən təsiri olduğunu, amma bəzən qeyri-kafi olduğunu göstərir. 15,1%-i “2” (razıyam) olaraq qiymətləndirib, bu da bəzi iştirakçıların məktəbdaxili idarəetmənin tədris proqramının tətbiqinə təsirini daha güclü görmək istədiklərini göstərir. Yalnız 7,6%-i “1” (tamamilə razıyam) olaraq cavab verib, bu da çox az sayda iştirakçının məktəbdaxili idarəetmənin tədris proqramına təsirinin qeyri-kafi olduğunu düşündüyünü göstərir. Heç bir iştirakçı “5” (tamamilə narazıyam) olaraq cavab verməyib, bu da məktəbdaxili idarəetmənin tədris proqramına mənfi təsir göstərdiyini düşünən heç bir iştirakçı olmadığını göstərir.

18. Tədris proqramı ilə bağlı dəyişikliklər barədə vaxtında məlumat alırıq.
119 responses




Cavab verənlərin 51,3%-i "4" (razıyam) olaraq cavab verib, bu da əksər iştirakçıların tədris proqramı ilə bağlı dəyişikliklər barədə vaxtında məlumat aldıqlarını düşündüklərini göstərir. 14,3% "3" (nə razı, nə də narazı) olaraq qiymətləndirib, bu da bəzi respondentlərin məlumatın bəzən gecikdiyini düşündüklərini göstərir. 16% "1" (tamamilə razıyam) və 11,8% "5" (tamamilə narazıyam) olaraq cavab verib, bu da sorğu iştirakçılarının çox az bir hissəsinin vaxtında məlumat almadığını düşündüyünü göstərir. 8,4% "2" (razıyam) olaraq cavab verib.

19. Tədris proqramının yenilənməsi prosesində rəhbər heyətin iştirakı nəzərdə tutulmalıdır.
119 responses




43,7% "3" (nə razı, nə də narazı) olaraq cavab verib, bu da iştirakçıların bir hissəsinin rəhbər heyətin iştirakının vacib olduğunu, amma bəzən qeyri-kafi olduğunu düşündüklərini göstərir. 35,3% "4" (razıyam) olaraq cavab verib, bu da əksər respondentlərin rəhbər heyətin tədris proqramının yenilənməsində iştirakını müsbət qiymətləndirdiklərini göstərir. 14,3% "5" (tamamilə narazıyam) və 14,3% "2" (razıyam) olaraq cavab verib, bu da bəzilərinin rəhbər heyətin tədris proqramı yenilənməsi prosesinə daha çox daxil olmasını istədiklərini göstərir.




44,5% “3” (nə razı, nə də narazı) olaraq cavab verib, bu da respondentlərin bir hissəsinin mövcud tədris proqramında müəyyən boşluqlar olduğunu, lakin ümumilikdə, proqramın qənaətbəxş olduğunu düşündüklərini göstərir. 20,2% “4” (razıyam) və 17,6% “1” (tamamilə razıyam) olaraq qiymətləndirib, bu da bəzi respondentlərin mövcud tədris proqramında ciddi problemlər olduğunu düşündüklərini göstərir. 9,2% “2” (razıyam) olaraq cavab verib, bu da proqramda kiçik boşluqların mövcud olduğunu göstərir. 8,4% “5” (tamamilə narazıyam) olaraq cavab verib, bu da çox az sayda iştirakçının tədris proqramının ciddi problemlər yaratdığını düşündüyünü göstərir.

## Nəticə / Conclusion

Azərbaycan ümumtəhsil kurikulumu, təhsil sistemində aparılan islahatlarla paralel olaraq inkişaf etmiş və şagirdlərin həyat bacarıqları ilə təchiz olunmasına yönəlmişdir. Müasir təhsil yanaşmalarının tətbiqi, şagirdyönümlü tədris metodlarının gücləndirilməsi və kompetensiya əsaslı yanaşmanın tətbiqi təhsil sisteminin keyfiyyətini artırmağı hədəfləyir. Tədris proqramlarının vaxtında yenilənməsi, müəllimlərin peşəkar inkişafı və məktəbdaxili idarəetmənin tədris proqramının tətbiqinə müsbət təsiri, tədqiqatda əks olunan əsas nəticələrdir.

Tədris proqramlarının tətbiqində bəzi çətinliklər və təkmilləşdirilməyə ehtiyacı olan sahələr mövcuddur. Bu sahələrə müəllim hazırlığının gücləndirilməsi, dərs vəsaitlərinin müasir pedaqoji tələblərə uyğunlaşdırılması və məktəb idarəetməsində strateji planlaşdırmanın təkmilləşdirilməsi daxildir. Respondentlərin əksəriyyəti tədris proqramının tətbiqinə dair məlumatlandırılmanın vaxtında edildiyini və qiymətləndirmə sistemlərinin bəzi hallarda effektiv olduğunu düşünürlər. Lakin bəzi iştirakçılar qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi və məktəbdaxili idarəetmənin daha çox inkişaf etdirilməsini tələb edirlər.

Eyni zamanda tədris proqramında şagirdlərin real bacarıqları ilə əlaqəli boş-

luqların mövcud olduğu vurğulanmışdır. Müəllimlərin innovativ tədris metodlarından istifadə etmə bacarıqlarının inkişaf etdirilməsi, rəqəmsal resursların tədrisə inteqrasiyasının artırılması və inklüziv təhsilin təşkili, gələcəkdə təhsil sisteminin daha da təkmilləşdirilməsinə kömək edəcəkdir.

Ümumilikdə, Azərbaycan ümumtəhsil kurikulumu, müasir təhsil tələblərinə cavab verərək, təhsil sisteminin keyfiyyətinin artırılması və şagirdlərin daha yaxşı bacarıqlara yiyələnməsi əsaslı addımlar atmağa davam edir. Lakin davamlı inkişaf və təkmilləşdirmə üçün daha çox innovativ yanaşmaların tətbiqi vacibdir.

**Məqalənin aktuallığı.** Azərbaycan ümumtəhsil kurikulumu hazırda təhsil sistemində aparılan islahatların mərkəzində dayanır. Müasir dövrdə kompetensiya əsaslı təlim modelinə keçid qlobal təhsil məkanında prioritet istiqamət hesab olunur. Şagirdyönümlü yanaşmanın gücləndirilməsi təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq qiymətləndirmə proqramlarının nəticələri milli kurikulumun daim yenilənməsini zəruri edir. Müəllimlərin peşəkar inkişaf səviyyəsi ilə kurikulumun effektivliyi arasında birbaşa əlaqə mövcuddur. Bu baxımdan, kurikulumun tətbiq vəziyyətinin araşdırılması və təkmilləşdirmə istiqamətlərinin müəyyənləşdirilməsi müasir dövrdə xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Tədqiqat Azərbaycan ümumtəhsil kurikulumunun tətbiq vəziyyətini empirik sorğu materialları əsasında sistemli şəkildə təhlil edir. Kurikulumun idarəetmə, müəllim hazırlığı və qiymətləndirmə aspektlərini kompleks yanaşma ilə araşdırır. Tədris proqramlarında boşluqların müəyyənləşdirilməsi üçün faiz göstəricilərinə əsaslanan müqayisəli təhlil aparılır. Müəllimlərin innovativ metodlardan istifadə bacarıqları kurikulumun effektivliyi kontekstində təhlil olunur. Qiymətləndirmə mexanizmlərinin praktik tətbiq problemləri elmi əsaslarla sistemləşdirilir. Kurikulumun davamlı inkişafı üçün kompleks və mərhələli təkmilləşdirmə istiqamətləri irəli sürülür. Tədqiqat nəticələri gələcək elmi araşdırmalar üçün metodoloji baza formalaşdırır.

**Məqalənin praktik əhəmiyyəti.** Tədqiqat nəticələri ümumtəhsil müəssisələrində kurikulumun tətbiq mexanizmlərinin təkmilləşdirilməsinə xidmət edir. Sorğu nəticələri məktəb rəhbərliyi üçün idarəetmə qərarlarının qəbulunda praktik əsas yaradır. Müəllimlərin peşəkar inkişaf proqramlarının planlaşdırılmasına konkret istiqamətlər təqdim edir. Qiymətləndirmə sisteminin formativ və summativ komponentlərinin effektiv tətbiqi üçün tövsiyələr verir. Tədris proqramlarında mövcud boşluqların aradan qaldırılması üçün real təkliflər irəli sürür. Diferensial təlim mexanizmlərinin sistemli tətbiqinə dair praktik yanaşmalar formalaşdırır. Rəqəmsal resursların inteqrasiyası üzrə metodiki dəstəyin gücləndirilməsinə töhfə verir ki, bu da inklüziv təhsil mühitinin təşkili üçün praktik addımların daha aydın şəkildə müəyyənləşdirilməsinə imkan yaradır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Kerimova, Y., Kazimzade, E., & Silova, I. (2014). Azerbaijan: The Role of Teachers in Curriculum Reform. In Education in Eastern Europe and Eurasia. pp. 259-276.
2. Namazova, N. (2023). Changing the Level of Education and Career Choice Depending on the Socioeconomic Status of the Family: Evidence from Azerbaijan. Sustainability, 15(22), p.15845. https://doi.org/10.3390/su152215845
3. Gajek, E. (2018). Curriculum Integration in Distance Learning at Primary and Secondary Educational Levels on the Example of eTwinning Projects. Education Sciences, 8(1), 1. https://doi.org/10.3390/educsci8010001
4. Orozco-Messana, J., Martínez-Rubio, J.M., & Gonzálvez-Pons, A.M. (2020). Sustainable Higher Education Development through Technology Enhanced Learning. Sustainability, 12(9), p.3600. https://doi.org/10.3390/su12093600
5. OECD. (2024). Results from TALIS 2024: Azerbaijan. Retrieved from https://www.oecd.org
6. Sanatbay, P., Smailova, G., Shalgynbayeva, K., Asilbekova, M., & Tauekelova, A. (2025). Problem-Oriented Learning as a Method of Developing Soft Skills Among Students of Pedagogical Specialties. Education Sciences, 15(7), p.861. https://doi.org/10.3390/educsci15070861
7. Sattarova, U., Arsenijevic, J., & Groot, W. (2023). An Analysis of Problem-Based Learning vs. Traditional Teaching among Students in Azerbaijan. Education Sciences, 13(12), p1167. https://doi.org/10.3390/educsci13121167
8. Amrullayev, E. (2023). 04 December. New educational standards to be developed in Azerbaijan. Report.az. Retrieved from https://report.az/en/education-and-science/new-educational-standards-to-be-developed-in-azerbaijan
9. Sattarova, U., Groot, W., & Arsenijevic, J. (2021). Student and Tutor Satisfaction with Problem-Based Learning in Azerbaijan. Education Sciences, 11(6), p.288. https://doi.org/10.3390/educsci11060288
10. https://edu.gov.az/upload/file/tehsil-pillesinin-dovlet-strandartlari-ve-proqramlari.pdf
11. https://arti.edu.az/f%C9%99aliyy%C9%99timiz/m%C9%99zmun-v%C9%99-qiym%C9%99tl%C9%99ndirm%C9%99/umumi-t%C9%99hsil/

# TEACHERS' ATTITUDES TOWARDS CURRICULUM REFORMS: AN EMPIRICAL ANALYSIS

**Graduate Students, SABAH groups, Azerbaijan State Pedagogical University**

**Nargiz Yusifova**
nargizpoladova3@gmail.com, https://orcid.org/0009-0001-5041-2762
**Kubra Mustafazade**
mustafazadehkubra@gmail.com, https://orcid.org/0009-0002-8077-952X
**Sema Garayeva**
ssema6956@gmail.com, https://orcid.org/0009-0002-0488-4328
**Aytac Mirzayeva**
aytacmirzeyeva222@gmail.com, https://orcid.org/0009-0001-8991-6845
**Elnara Mammadzada**
elnaramemmedzade03@gmail.com, https://orcid.org/0009-0003-4650-4773
**Ruggaya Tahmazli**
thmzlir1214@gmail.com, https://orcid.org/0009-0000-9026-9342

**Abstract.** This article aims to investigate teachers' attitudes towards curriculum reforms in Azerbaijan's general education system from an empirical perspective. The study seeks to identify the overall profile of teachers' attitudes (positive, neutral, negative), to systematize the key factors shaping these attitudes, and to assess their relative influence through analytical procedures. A cross-sectional survey design is employed, and data are collected using a structured questionnaire consisting of Likert-type items. The instrument encompasses several dimensions, including the perceived clarity of curriculum requirements, availability of instructional resources and methodological support, practical relevance of professional development opportunities, support from school leadership and collegial environment, perceived teacher autonomy and participation in decision-making, as well as expectations regarding the reform's impact on student learning outcomes. Data analysis is conducted using descriptive statistics, group comparisons, and explanatory modeling approaches. The theoretical contribution of the study lies in conceptualizing teacher attitudes as a multi-component construct within the implementation process, while its practical contribution is to inform evidence-based decision-making regarding priority support mechanisms for enhancing teachers' engagement with curriculum reforms.
**Keywords:** curriculum reforms, professional development, methodological support, teacher autonomy.

**DOI:** 10.30546/2709-2488.2026.002.507858
**To cite this article:** Teachers' attitudes towards curriculum reforms: an empirical analysis. *Journal of Preschool and Primary Education*, Special issue "Master's research", pp. 59-69.
**Article history:** received – 03.04.2026; accepted – 06.05.2026.

# MÜƏLLİMLƏRİN KURİKULUM İSLAHATLARINA MÜNASİBƏTİ: EMPİRİK TƏHLİL

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupu magistrantları**

**Nərgiz Yusifova**
nargizpoladova3@gmail.com, https://orcid.org/0009-0001-5041-2762
**Kubra Mustafazadə**
mustafazadehkubra@gmail.com, https://orcid.org/0009-0002-8077-952X
**Səma Qarayeva**
ssema6956@gmail.com, https://orcid.org/0009-0002-0488-4328
**Aytac Mirzəyeva**
aytacmirzeyeva222@gmail.com, https://orcid.org/0009-0001-8991-6845
**Elnarə Məmmədzadə**
elnaramemmedzade03@gmail.com, https://orcid.org/0009-0003-4650-4773
**Rüqayyə Təhməzli**
thmzlir1214@gmail.com, https://orcid.org/0009-0000-9026-9342

**Annotasiya.** Bu məqalə Azərbaycan ümumi təhsil sistemində həyata keçirilən kurikulum islahatlarına müəllimlərin münasibətini empirik əsaslarla araşdırmağı hədəfləyir. Tədqiqatın əsas məqsədi müəllimlərin islahata münasibət səviyyəsini (müsbət, neytral, mənfi) müəyyənləşdirmək, münasibəti formalaşdıran əsas amilləri sistemləşdirmək və həmin amillərin nisbi təsirini analitik müstəvidə qiymətləndirməkdir. Araşdırmada kəsiyvari sorğu dizaynından istifadə olunur və məlumatlar Likert tipli maddələrdən ibarət strukturlaşdırılmış anket vasitəsilə toplanır. Ölçmə aləti kurikulum tələblərinin aydın qavranılması, resurs və metodiki təminat, peşəkar inkişaf imkanlarının praktik faydası, məktəb rəhbərliyinin və kollegial mühitin dəstəyi, müəllimin muxtariyyət və qərarvermədə iştirak qavrayışı, həmçinin islahatın şagird nəticələrinə təsiri barədə gözləntilər kimi alt ölçüləri əhatə edir. Məlumatların təhlili təsviri statistika, qruplararası müqayisələr və izahedici modelləşdirmə yanaşmaları əsasında aparılır. Məqalənin nəzəri töhfəsi kurikulum islahatlarının tətbiqində müəllim münasibətinin çoxkomponentli mahiyyətini sistemləşdirmək, praktik töhfəsi isə qərarvericilər üçün prioritet dəstək mexanizmlərini əsaslı şəkildə müəyyənləşdirməkdir.

**Açar sözlər:** kurikulum islahatları, peşəkar inkişaf, metodiki dəstək, müəllim muxtariyyəti.

**DOI:** 10.30546/2709-2488.2026.002.507858
**Məqaləyə istinad:** Müəllimlərin kurikulum islahatlarına münasibəti: empirik təhlil. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Magistr tədqiqatları", səh. 59-69.
**Məqalə tarixçəsi:** göndərilib – 03.04.2026; qəbul edilib – 06.05.2026.

## Giriş / Introduction

Kurikulum islahatları təhsil sistemində tədrisin məzmununu, gözlənilən öyrənmə nəticələrini və bu nəticələrə aparan tədris-qiymətləndirmə mexanizmlərini yeniləyən, məktəbdə öyrənməni daha məqsədyönlü təşkil etməyə xidmət edən dəyişikliklər toplusudur. Bu dəyişikliklər adətən fənn məzmununun yenilənməsi, kompetensiya və nəticəyönümlü yanaşmaların gücləndirilməsi, qiymətləndirmənin öyrənməni dəstəkləyən alət kimi tətbiqi, resursların (dərslik, tapşırıq, rubrik və s.) təkmilləşdirilməsi və müəllimlərin peşəkar inkişafının yeni tələblərə uyğunlaşdırılması kimi istiqamətləri əhatə edir. OECD tərəfindən aparılan icmallarda vurğulandığı kimi, kurikulum yenilənməsi təkcə "sənədin dəyişməsi" deyil, sinif mühitində tədris praktikalarının dəyişməsini tələb edən bir prosesdir.

"Kurikulum islahatları üzrə mövcud tədqiqatlarda "tətbiq boşluğu" adlandırılan problem mərkəzdə qəbul edilən yeniliyin məktəb səviyyəsində real tədris praktikasına çevrilməməsi nəticəsində yaranır [Gouëdard, P., et al., 2020]. Bu boşluq praktikada özünü belə göstərir: kurikulum sənədi dəyişsə də, müəllimin dərsi planlaşdırma, metod seçimi, sinifdaxili idarəetmə və qiymətləndirmə təcrübələri əvvəlki kimi qalır və ya yalnız formal şəkildə yenilənir. Məhz buna görə kurikulum islahatlarının icra keyfiyyətini izah edən əsas dəyişənlərdən biri müəllimin islahata münasibəti, yəni yeniliyi qəbul etməsi, onu mənalı hesab etməsi və tətbiqə hazır olmasıdır".

Müəllim münasibəti təkcə fərdi yanaşma kimi deyil, islahatın icra mexanizminin əsas "işləyən hissəsi" kimi dəyərləndirilir. OECD tərəfindən təklif edilən tətbiq çərçivələri göstərir ki, effektiv icra üçün məqsəd və gözləntilərin aydınlığı, resursların təminatı, peşəkar dəstək, maraqlı tərəflərin iştirakı və məktəb səviyyəsində koordinasiya bir-biri ilə bağlı şəkildə işləməlidir [Viennet, R., Pont, B., 2017]. Bu komponentlər zəif olduqda müəllimdə qeyri-müəyyənlik, əlavə yük və "tətbiq edilə bilmir" qavrayışı güclənə, nəticədə münasibət neytral və ya mənfi istiqamətə yönələ bilər.

Digər ölkələrin empirik araşdırmaları da bu məntiqi dəstəkləyir. Məsələn, Çexiya kontekstində aparılan tədqiqatlarda müəllimlərin kurikulum reformuna yanaşmasının yalnız ideya səviyyəsində razılıqla ölçülmədiyi, münasibətin daha çox tətbiqdəki praktik uyğunluq, aydınlıq və dəstək mexanizmləri ilə formalaşdığı göstərilir [Pešková, K., et al., 2019]. Eyni nəticələr onu deməyə əsas verir ki, reform "vaxt keçdikcə" öz-özünə qəbul edilmir, əksinə, davamlı metodiki müşayiət və məktəbdaxili öyrənmə mühiti olmadıqda, müəllimin qəbul səviyyəsi sabitləşmir və tətbiqdə yorğunluq yarana bilir [Pešková, K., et al., 2019].

Azərbaycan kontekstində isə müəllim münasibətinin formalaşmasında xüsu-

silə peşəkar inkişafın keyfiyyəti və onun praktikaya çevrilməsi həlledici görünür. Azərbaycanın kurikulum islahatı çərçivəsində müəllimlərin peşəkar inkişafa dair qavrayışlarını araşdıran empirik tədqiqatda müəllimlər peşəkar inkişafı "formallıq" kimi deyil, ehtiyaclara uyğun, reflektiv və əməkdaşlığa əsaslanan öyrənmə mühiti kimi gördükdə, dəyişikliklərə daha konstruktiv yanaşdığı vurğulanır [Mikayilova, U., Kazimzade, E., 2016]. Bu isə göstərir ki, kurikulum islahatlarının tətbiqində müəllimin münasibəti, həm də məktəb daxilində əməkdaşlıq mədəniyyəti, metodiki dəstək, rəhbərliyin koordinasiya rolu və müəllimin qərarvermədə iştirak hissi ilə sıx bağlıdır.

Beləliklə, müəllimlərin kurikulum islahatlarına münasibəti bir neçə əsas xətt üzrə formalaşır: kurikulum tələblərinin aydın qavranılması, resurs və metodiki təminatın yetərliliyi, peşəkar inkişafın praktik faydası, məktəb rəhbərliyi və kollegial mühitin dəstəyi, müəllimin muxtariyyət və qərarvermədə iştirak qavrayışı. Bu komponentlərin hər hansı birində yaranan boşluq tətbiq tempini zəiflətmir, əksinə, sistemli dəstək mexanizmləri münasibəti gücləndirərək islahatın sinif praktikası səviyyəsində dayanıqlı icrasına şərait yarada bilər [Viennet, R., Pont, B., 2017; Gouëdard, P., et al., 2020].

**Problemin qoyuluşu**

Kurikulum islahatları təhsilin məzmununu yeniləməklə yanaşı, müəllimin dərsi planlaşdırma, təlim metodlarını seçmə və qiymətləndirmə fəaliyyətində də dəyişiklik tələb edən sistem xarakterli prosesdir. Lakin praktikada kurikulum sənədlərində nəzərdə tutulan yeniliklərin hamısı eyni səviyyədə sinif mühitinə daşınmır, bəzi hallarda dəyişiklik formal xarakter daşıyır və əvvəlki tədris vərdişləri davam edir. Bu şəraitdə islahatın uğurunu müəyyən edən əsas amillərdən biri müəllimin kurikulum yeniliklərinə münasibətidir. Buna görə tədqiqatın məqsədi müəllimlərin kurikulum islahatlarını necə qəbul etdiyini, bu münasibətin hansı amillərlə formalaşdığını və münasibətin tətbiq hazırlığı ilə necə əlaqələndiyini empirik şəkildə müəyyənləşdirməkdir.

**Metodologiya**

Məqalənin hazırlanmasında təsviri-analitik və sistemli yanaşma, eləcə də sənəd və ədəbiyyat təhlili metodlarından istifadə olunmuşdur. Mövzu üzrə yerli və xarici elmi mənbələr seçilərək tematik istiqamətlər üzrə ümumiləşdirilmiş, kurikulum islahatlarının icrası ilə bağlı normativ sənədlər və mövcud analitik hesabatlar məzmun təhlili yolu ilə öyrənilmişdir. Bundan əlavə, milli və beynəlxalq müəllim sorğularının ictimai açıq nəticələri analitik şəkildə nəzərdən keçirilmiş, əldə edilən qənaətlər qarşılaşdırılaraq müəllim münasibətinin islahatın sinif səviyyəsində tətbiqinə təsiri ümumiləşdirilmişdir.

## Əsas hissə / Main part

Kurikulum islahatları təhsilin məzmununu və gözlənilən öyrənmə nəticələrini yeniləməklə yanaşı, müəllimin dərsi planlaşdırma məntiqini, təlim strategiyası seçimini və qiymətləndirmə praktikasını dəyişdirməyi hədəfləyən kompleks islahat paketidir. Buna görə də kurikulum sənədlərinin yenilənməsi islahatın yalnız başlanğıc mərhələsi sayılır, real dəyişiklik isə məktəbin gündəlik işində və sinif səviyyəsində müşahidə olunur. Kurikulum islahatları üzrə mövcud tədqiqatlarda vurğulandığı kimi, dünyanın bir çox ölkələrində niyyət edilən kurikulum yenilənməsi ilə onun sinif praktikasında reallaşması arasında "tətbiq boşluğu" yaranır və bu boşluq məhz niyyətlə reallaşma arasında "çatışmayan mərhələ"-nin mövcudluğu ilə izah edilir [Gouëdard, P., et al., 2020]. Bu o deməkdir ki, sənəd səviyyəsində yenilənmiş məqsədlər və nəticələr mövcud olsa belə, müəllimlər həmin mesajları öz kontekstində mənalandırmadan, resurs və vaxt məhdudiyyətləri, qiymətləndirmə tələbləri və mövcud məktəb mədəniyyəti fonunda praktik alətlərə çevirmədən islahat sinifdə gözlənilən dəyişiklik yaratmaya bilər. OECD-nin "məktəblərdə effektiv dəyişiklik üçün implementasiya çərçivəsi" də eyni məntiqi gücləndirir: islahatın uğuru yalnız dizayndan deyil, onun məktəblərə necə çatdırılmasından, rolların bölüşdürülməsindən, kommunikasiya və dəstək mexanizmlərindən, həmçinin məktəbdə tətbiqi asanlaşdıran ardıcıl addımlardan asılıdır [OECD, 2020]. Buna görə "tətbiq boşluğu"nun əsas səbəblərindən biri də islahatın müəllimlər tərəfindən necə qavranılması və mənalandırılmasıdır. Müəllim yeniliyi aydın, tətbiq edilə bilən və sinif reallığına uyğun hesab etmədikdə sənəd dəyişsə də praktik davranışlar ya əvvəlki kimi qalır, ya da yalnız formal səviyyədə yenilənir [Gouëdard, P., et al., 2020].

Bu mənada müəllimin kurikulum islahatına münasibəti sırf fərdi fikir deyil, islahatın icra keyfiyyətini müəyyənləşdirən strateji göstəricidir. Müəllim yeniliyi məqsədəuyğun, aydın və tətbiq edilə bilən hesab etdikdə, davranış səviyyəsində də dəyişiklik ehtimalı artır. O, islahatı qeyri-müəyyən, əlavə yük yaradan və resurs baxımından təmin olunmamış proses kimi gördükdə isə tətbiq formal xarakter daşıya, yaxud əvvəlki təcrübələr üstünlük qazana bilər.

Müəllim münasibətinin formalaşması, adətən, üç istiqamətin qarşılıqlı təsiri ilə izah olunur:

- koqnitiv səviyyə, yəni müəllimin islahatın məzmunu və məqsədini anlaması;
- affektiv səviyyə, yəni dəyişikliklə bağlı inam, motivasiya, narahatlıq və ya müqavimət kimi emosional reaksiyalar;
- davranış səviyyəsi, yəni sinifdə real tətbiq və ya tətbiqdən yayınma.

Bu xətt üzrə müəllim dəyişikliklərinin dinamikasını izah edən modeldə Gus-

key onların əvvəl yeni yanaşmanı praktikada sınaqdan keçirdiyini, daha sonra müsbət nəticələr gördükcə, inanclarının və münasibətinin dəyişdiyini göstərir. Bu, peşəkar inkişaf tədbirlərinin "əvvəl münasibəti dəyiş, sonra praktikanı dəyiş" məntiqindən çox, müəllimi praktik sınağa aparan şərait yaratmasının vacibliyini ön plana çıxarır [Guskey, T., 2002]. Beləliklə, münasibət təkcə "razıyam" tipli deklarativ mövqe kimi deyil, tətbiqin gedişində möhkəmlənən və ya zəifləyən sosial-psixoloji və təşkilati proses kimi şərh edilir.

İslahatın müəllimlər tərəfindən necə mənalandırıldığını izah edən mühüm yanaşmalardan biri "sense-making", yəni mənalandırma yanaşmasıdır. James P. Spillane və həmkarları islahatın icrasını müəllimin şüurunda gedən "tərcümə" və "yenidənqurma" prosesi kimi izah edirlər: müəllimlər islahat mesajını hazır göstəriş kimi sadəcə qəbul etmir, onu öz əvvəlki pedaqoji təcrübələri, inancları, məktəbin təşkilati mədəniyyəti, şagirdlərin ehtiyac və səviyyəsi, qiymətləndirmə tələbləri, resurs və zaman məhdudiyyətləri fonunda yenidən şərh edərək, gündəlik dərs praktikası ilə uyğunlaşdırmağa çalışırlar [Spillane, J., 2002]. Bu yanaşmaya görə, islahatın "kağız üzərində eyni" olması onun bütün məktəblərdə eyni şəkildə icra olunacağı anlamına gəlmir, əksinə, eyni islahat müxtəlif məktəblərdə müxtəlif interpretasiyalar doğura bilər, çünki müəllimlər həmin islahatı öz kontekstinə uyğun "mənalandırır" və praktik seçimlərə çevirirlər [Spillane, J., 2002].

Bu prosesin təkcə fərdi deyil, həm də kollektiv xarakter daşıdığını göstərən tədqiqatlar da var. Məsələn, Sintiya E. Kobörn müəllimlərin islahat mesajlarını peşəkar icmalar daxilində, həmkarlarla müzakirə və qarşılıqlı öyrənmə vasitəsilə "birlikdə" mənalandırdıqlarını və məhz bu kollektiv mənalandırmanın sinifdə hansı mesajların seçilib tətbiq olunacağını müəyyən etdiyini vurğulayır. Yəni müəllim islahat mesajını təkbaşına oxuyub tətbiq etmir; məktəbdə mövcud olan metodiki birliklərin işləkliyi, peşəkar ünsiyyətin keyfiyyəti, rəhbərliyin verdiyi izah və geribildirim, resursların bölüşdürülməsi kimi amillər müəllimin reformu necə "oxuyacağını" və necə icra edəcəyini istiqamətləndirir [Coburn, C., 2001].

Bu baxış islahatın "mərkəzdən məktəbə" birbaşa ötürülən texniki tapşırıq olmadığını, məktəb səviyyəsində davamlı izah, uyğunlaşdırma və koordinasiya tələb edən sosial proses olduğunu göstərir. Başqa sözlə, müəllimin münasibəti və tətbiq davranışı yalnız fərdi motivasiya ilə deyil, sistemin islahatı necə təqdim etməsi, praktik alətlərə necə çevirməsi və məktəb daxilində müəllimlərə hansı dəstək mexanizmlərini qurması ilə sıx bağlıdır [Spillane, J., 2002; Coburn, C., 2001].

OECD-nin təhsil siyasətinin icrası üzrə çərçivəsi müəllim münasibətini formalaşdıran amilləri daha sistemli izah etməyə imkan verir. Bu çərçivəyə görə implementasiya sadəcə qərarın icrası deyil, məqsədlərin aydınlığı, maraqlı tərəflərin cəlbi, resurs təminatı, məktəb səviyyəsində koordinasiya, geribildirim və

monitorinq mexanizmlərinin birlikdə işlədiyi kompleks idarəetmə prosesidir. Çərçivənin məntiqi ondan ibarətdir ki, hər bir elementin zəifliyi müəllimdə qeyri-müəyyənlik və əlavə yük qavrayışını artıraraq münasibəti zəiflədə bilər [Viennet, R., Pont, B., 2017].

Bu səbəbdən müəllim münasibətini izah edərkən yalnız fərdi motivasiyaya fokuslanmaq kifayət etmir, islahatın necə təqdim edildiyi, məktəbdə necə dəstəkləndiyi və hansı resurslarla müşayiət olunduğu əsas izah dəyişənlərinə çevrilir. OECD-nin kurikulum islahatları icmalı da bu xətti davam etdirərək, reformun uğuru üçün müəllimlərin erkən mərhələdən prosesə cəlb edilməsinin, məqsəd və alətlərin praktiki dilə çevrilməsinin və davamlı dəstək mexanizmlərinin qurulmasının vacibliyini vurğulayır [Gouëdard, P., et al., 2020].

Müəllim münasibətini gücləndirən əsas determinantlardan biri peşəkar inkişafın keyfiyyətidir. Bu mövzuda geniş meta-icmal xarakterli hesabatda Darling-Hammond və həmkarları effektiv peşəkar inkişafın müəllimi real sinif praktikası ilə əlaqəli öyrənməyə gətirdiyini, əməkdaşlıq, modelləşdirmə, kouçinq, refleksiya və davamlılıq kimi elementlər olduqda müəllim praktikalarında dəyişiklik ehtimalının yüksəldiyini göstərirlər. Bu tip peşəkar inkişaf formaları kurikulum islahatının "nə üçün" və "necə" suallarına müəllim üçün praktik cavab yaradır və münasibəti daha konstruktiv istiqamətə yönəldir [Darling-Hammond, L., et al., 2017]. Əksinə, bir dəfəlik, məzmundan qopuq və müəllimi sinifdə tətbiqə hazırlamayan təlimlər müəllimdə "islahat reallığa uyğun deyil" qavrayışı yarada və münasibətin zəifləməsinə gətirib çıxara bilər. Burada vacib məqam ondan ibarətdir ki, peşəkar inkişaf yalnız bilik ötürmək üçün deyil, eyni zamanda müəllimin özünəsəmərəliliyini artırmaq, yəni "mən bunu edə bilərəm" hissini gücləndirmək üçün təşkil olunmalıdır. Özünəsəmərəlilik yüksəldikcə müəllimin yeniliyi sınaqdan keçirmə ehtimalı artır və bu da münasibətin davranış komponentini gücləndirir.

İslahatın qəbulu və tətbiqi prosesində müəllimlərin narahatlıqlarının mərhələli xarakter daşıması ayrıca nəzərə alınmalıdır. Concerns-Based Adoption Model yanaşmasında müəllimlərdə yeniliyə dair narahatlıqların informasiya ehtiyacından başlayaraq şəxsi narahatlıqlara, daha sonra idarəetmə, nəticə, əməkdaşlıq və yenidənfokus kimi mərhələlərə keçdiyi göstərilir. Bu yanaşma kurikulum islahatının ilk mərhələsində müəllimlərdən yüksək nəticə gözləməkdənsə, onların hansı mərhələdə hansı dəstəyə ehtiyac duyduğunu müəyyənləşdirməyi tövsiyə edir və bunun üçün SOCQ kimi ölçmə alətlərinin istifadəsini izah edir [George, A., et al., 2006].

Praktik baxımdan bu o deməkdir ki, müəllim "nədir bu kurikulum?" sualını cavablandırmadığı mərhələdə ondan mürəkkəb qiymətləndirmə rubriklərini yüksək səviyyədə tətbiq etməsini gözləmək real deyil; əvvəlcə aydınlaşdırma, sonra

tətbiq sınaqları, daha sonra nəticələrin müzakirəsi və əməkdaşlıq mexanizmləri qurulmalıdır.

Müəllim münasibəti həm də məktəbin təşkilati mədəniyyəti və liderlik keyfiyyətindən asılıdır. Məktəbdə birgə planlaşdırma, açıq müzakirə, peer-öyrənmə (həmyaşıdların öyrənməsi) və metodiki müşayiət kanalları mövcud olduqda, müəllim islahatı təkbaşına "daşıdığı yük" kimi deyil, kollektiv şəkildə idarə olunan inkişaf prosesi kimi qavrayır. Bu nöqtədə Fullan-ın "yuxarıdan aşağı" və "aşağıdan yuxarı" strategiyaların balansı haqqında yanaşması da islahatların dayanıqlığı üçün izah yaradır: nə sırf mərkəzi təzyiq, nə də yalnız yerli təşəbbüslər ayrıca, uğur gətirir, effektiv model mərkəzi istiqamətləndirmə ilə məktəb səviyyəli adaptasiyanın birlikdə işləməsini tələb edir [Fullan, M., 1994]. Bu balans qurulduqda müəllim islahatın "passiv icraçısı" yox, "məzmunu reallaşdıran agent" kimi mövqelənir və münasibət daha sabit şəkildə müsbətə doğru dəyişir.

Azərbaycan kontekstində müəllim münasibətinin formalaşması ilə bağlı nəticələr beynəlxalq tədqiqat xətti ilə ümumən uzlaşır və bunu həm akademik araşdırmalar, həm də böyük miqyaslı sorğu nəticələri təsdiqləyir. Mikayılova və Kazımzadə kurikulum islahatı mərhələsində müəllimlərin peşəkar inkişafa yanaşmasını empirik məlumatlar əsasında təhlil edərək göstərirlər ki, müəllimlər peşəkar inkişafı yalnız "təlim keçmək" kimi passiv proses deyil, reflektiv öyrənmə, praktik problemlərin müzakirəsi və sinifdə sınaqdan keçirmə imkanı verən peşəkar təcrübə kimi yaşadıqda islahatlara münasibət daha müsbət və dayanıqlı istiqamətdə formalaşır [Mikayilova, U. Kazimzade, E., 2016]. Bu nəticə onu göstərir ki, müəllim münasibəti təkcə "islahatı bəyənmək"lə məhdudlaşmır. Münasibət daha çox "islahat gündəlik dərsdə işləyirmi, mənə real alət verirmi, dərsimi yüngülləşdirirmi, yoxsa əlavə qeyri-müəyyənlik yaradırmı" kimi praktik sualların cavabından asılı olur. Bu baxımdan, məktəb daxilində həmkarlarla müzakirə, birgə planlaşdırma, nümunə dərs mübadiləsi, metodiki birliklərin işləkliyi və peşəkar ünsiyyətin qurulması müəllimin islahatı mənalandırmasına və onu sinif praktikasına çevirməsinə ciddi dəstək verir [Mikayilova, U., Kazimzade, E., 2016].

Bu xətti daha yeni və daha geniş miqyaslı empirik məlumatlar da gücləndirir. OECD-nin TALIS 2024 üzrə Azərbaycan "country note" sənədində müəllimlərin qərarvermədə iştirakı və təlim prosesinə muxtariyyət (məsələn, təlim metodlarının seçimi, dərsin təşkili, kurikulumla bağlı məktəb səviyyəli qərarlar) aspektlərində OECD orta göstəriciləri ilə müqayisədə daha məhdud imkanlar qeyd edilir; eyni sənəddə peşəkar öyrənməyə çıxışın qarşısında maneələr kimi "vaxt" və "rəqəmsal resursların yetərsizliyi" kimi faktorların yüksək payla vurğulanması, münasibətin niyə bəzən zəifləyə bildiyini izah etmək üçün çox məntiqli empirik baza yaradır [OECD, 2025]. Yəni müəllim islahatı prinsipcə faydalı saysa belə,

qərarvermədə iştirakın məhdudluğu, resurs və zaman çatışmazlığı, praktik metodiki müşayiətin zəifliyi kimi şərtlər islahatı "ideya olaraq doğru, amma tətbiqdə çətin" qavrayışına çevirə bilər. Bu isə münasibətin neytrallaşmasına, hətta müqavimət davranışlarının yaranmasına gətirib çıxarır.

Eyni zamanda Azərbaycan üzrə kurikulumun tətbiqi və müəllimlərin yeni kurikulum üzrə ixtisasartırmasının miqyası barədə daha məqsədyönlü məlumat verən sənədlər 2003 deyil, daha sonrakı dövrlərin layihə hesabatlarında görünür. Məsələn, İkinci Təhsil Sektorunun İnkişafı Layihəsinin (P102117) icra gedişinə dair 2014 – 2016 status hesabatlarında "yeni kurikulum" üzrə müəllimlərin kütləvi şəkildə xidmət daxili təlimlərə cəlb olunması, bu təlimlərin tətbiqə yönəlməsi və kurikulumun sinif səviyyəsində reallaşdırılmasına fokuslanması kimi məqamlar qeyd olunur. Bu tip sənədlər müəllim münasibətini izah edərkən "sistem nə etdi, nəyi hədəflədi" sualına daha uyğun cavab verir [World Bank, 2014; World Bank, 2016].

Beləliklə, müəllimlərin kurikulum islahatlarına münasibəti çoxkomponentli konstruksiyadır və onu formalaşdıran amillər bir-birindən ayrı deyil, qarşılıqlı əlaqədə işləyir. Kurikulumun məqsəd və tələblərinin praktik dilə çevrilməsi, müəllimin özünəsəmərəliliyini artıran keyfiyyətli peşəkar inkişaf, məktəb daxilində əməkdaşlıq və liderlik dəstəyi, mərhələli narahatlıqların izlənməsi və uyğun dəstək tədbirlərinin qurulması münasibətin müsbət istiqamətdə sabitləşməsinə xidmət edir. Bu yanaşma kurikulum islahatlarının "sənəd yenilənməsi"ndən "sinifdə keyfiyyətli dəyişiklik" mərhələsinə keçməsi üçün empirik əsaslı idarəetmə məntiqi yaradır [Viennet, R., Pont, B., 2017; Gouëdard, P., et al., 2020].

## Nəticə / Conclusion

Kurikulum islahatları ümumi təhsildə tədrisin məzmununu, məqsədlərini və qiymətləndirmə yanaşmalarını yeniləməklə təlimin keyfiyyətini artırmağa yönəlmiş mühüm bir dəyişiklik prosesidir. Lakin bu islahatların real nəticə verməsi kurikulum sənədlərinin mövcudluğu ilə deyil, onların sinif mühitində müəllim tərəfindən necə mənimsənilməsi və tətbiq edilməsilə birbaşa bağlıdır. Müəllimlərin kurikulum islahatlarına münasibəti bu baxımdan əsas həlledici amillərdən biri kimi çıxış edir. Münasibət müsbət olduqda müəllim yenilikləri daha tez qəbul edir, tədris prosesində yeni tələbləri tətbiq etməyə meyilli olur və şagird nəticələrinə təsir göstərə bilən dəyişikliklər daha ardıcıl şəkildə reallaşır. Münasibət zəif və ya qeyri-sabit olduqda isə tətbiq daha çox formal xarakter daşıyır, yeniliklər gündəlik dərs praktikası ilə tam uzlaşmır və nəticələr gözlənilən səviyyəyə çatmır. Bu tədqiqatın ümumi məntiqi onu göstərir ki, müəllim münasibəti tək bir səbəbdən formalaşmır. Münasibətə kurikulum tələblərinin aydın qavranılması,

metodiki və resurs təminatı, peşəkar inkişaf imkanlarının praktik faydası, məktəb rəhbərliyinin dəstəyi, kollektiv əməkdaşlıq mühiti və müəllimin qərarvermədə iştirak hissi birlikdə təsir edir. Bu komponentlərdən hər hansı birində boşluq yarandıqda, müəllimdə əlavə yük, qeyri-müəyyənlik və müqavimət hissi güclənə bilər. Əksinə, dəstək mexanizmləri sistemli qurulduqda müəllim özünü islahatın passiv icraçısı kimi deyil, tədris prosesinin keyfiyyətini yüksəldən əsas agent kimi görməyə başlayır. Nəticə etibarilə, kurikulum islahatlarının dayanıqlı və ölçülə bilən nəticələri üçün müəllim münasibətinin gücləndirilməsi prioritet istiqamət kimi dəyərləndirilməlidir.

**Məqalənin aktuallığı.** Məqalədə müəllimlərin kurikulum islahatlarına münasibətinin empirik qiymətləndirilməsi, tətbiq prosesində yaranan real ehtiyacların və çətinliklərin müəyyənləşdirilməsi baxımından aktualdır. Müasir təhsil mühitində dəyişikliklər sürətlənir və bu dəyişikliklərin sinif praktikasına düzgün ötürülməsi müəllimin mövqeyindən asılı olaraq ya sürətlənir, və ya ləngiyir. Buna görə də müəllim münasibətinin ölçülməsi və onu formalaşdıran amillərin müəyyənləşdirilməsi islahatların daha səmərəli idarə olunmasına xidmət edir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi müəllimlərin kurikulum islahatlarına münasibətinin ümumi təsvirlə məhdudlaşdırılmaması, münasibətin alt ölçülər üzrə sistemləşdirilməsi və bu münasibəti izah edən əsas amillərin empirik yanaşma ilə təhlil edilməsidir. Bu yanaşma münasibətin hansı komponentlər hesabına gücləndiyini və tətbiqin hansı nöqtələrdə zəiflədiyini daha aydın göstərməyə imkan verir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, nəticələr kurikulumun tətbiqini təşkil edən qurumlar, məktəb rəhbərliyi, metodistlər və müəllim hazırlığı ilə məşğul olan strukturlar üçün konkret istiqamətlər təqdim edə bilər. Müəllimlərin münasibətini gücləndirən faktorlar aydınlaşdırıldıqda, peşəkar inkişaf proqramları daha məqsədyönlü planlaşdırıla, metodiki dəstək mexanizmləri gücləndirilə və resurs təminatı daha rasional şəkildə təşkil oluna bilər. Bu isə islahatların sinif praktikası səviyyəsində real nəticələrə çevrilməsinə şərait yaradar.

## İstifadə edilmiş ədəbiyyat / References


1. Darling-Hammond, L., Hyler, M. E., & Gardner, M. (2017). Effective teacher professional development. Learning Policy Institute.
2. Fullan, M. (1994). Coordinating top-down and bottom-up strategies for educational reform.
3. George, A.A., Hall, G.E., & Stiegelbauer, S.M. (2006). The stages of concern questionnaire: Measures of implementation of innovations. SEDL.
4. Gouëdard, P., Pont, B., Hyttinen, S., & Huang, P. (2020). Curriculum reform: A literature review to support effective implementation (OECD Education Working Papers, No. 239). OECD Publishing.
5. Guskey, T. R. (2002). Professional development and teacher change. Teachers and Teaching: Theory and Practice, 8(3), pp.381–391.
6. Mikayilova, U., & Kazimzade, E. (2016). Teachers as reflective learners: Teacher perception of professional development in the context of Azerbaijan’s curriculum reform. Voprosy Obrazovaniya / Educational Studies Moscow, (2), pp.125–145.
7. OECD. (2025). Results from TALIS 2024: Azerbaijan (Country note). OECD Publishing.
8. Pešková, K., Spurná, M., & Knecht, P. (2019). Teachers’ acceptance of curriculum reform in the Czech Republic: One decade later. Center for Educational Policy Studies Journal, 9(2), pp.73-97.
9. Spillane, J.P., Reiser, B.J., & Reimer, T. (2002). Policy implementation and cognition: Reframing and refocusing implementation research. Review of Educational Research, 72(3), pp.387–431.
10. Viennet, R., & Pont, B. (2017). Education policy implementation: A literature review and proposed framework (OECD Education Working Papers No. 162). OECD Publishing.
11. World Bank. (2014). Implementation Status & Results Report: Second Education Sector Development Project (P102117).
12. World Bank. (2016). Implementation Status & Results Report: Second Education Sector Development Project (P102117).

# AN ANALYSIS OF THE EXISTING CURRICULUM IN AZERBAIJAN AND OPPORTUNITIES FOR ITS IMPROVEMENT: A QUALITATIVE STUDY BASED ON EXPERT OPINIONS

**Graduate Students, SABAH groups, Azerbaijan State Pedagogical University**

**Gunay Khanizade**
xanizadegunay@gmail.com, https://orcid.org/0009-0009-0751-8420
**Zeynab Ismayilzade**
zeyneb.ismailzade@icloud.com, https://orcid.org/0009-0008-8098-8333
**Sima Abdullayeva**
simaabdullayeva03@gmail.com, https://orcid.org/0009-0009-9671-6751
**Narmin Javadova**
narminjavaadova@gmail.com, https://orcid.org/0009-0005-4064-9036
**Ayten Ibrahimzade**
ibrahimzada1000000@gmail.com, https://orcid.org/0009-0004-1961-6347
**Zahra Ibrahimova**
zibrahimova@gmail.com, https://orcid.org/0009-0008-6285-645X

**Abstract.** This study seeks to provide a comprehensive analysis of the effectiveness of the current curriculum implemented in Azerbaijan, with particular emphasis on the challenges encountered during its implementation and its potential for further development, drawing on expert perspectives in the field. A qualitative research design was adopted, and data were collected through semi-structured, open-ended questionnaires. The data were systematically analyzed using thematic analysis, enabling the identification of key themes and conceptual categories. The findings reveal that the existing curriculum demonstrates notable strengths, particularly in its emphasis on student-centered and outcome-based approaches, the integration of interactive teaching methods, and the adoption of competency-based learning principles. Nevertheless, the study also identifies several critical challenges, including structural inconsistencies within the curriculum framework, insufficient resource provision, disparities in teachers' methodological preparedness, and limited effectiveness in fostering essential competencies such as critical thinking, creativity, and communication skills. The study underscores the necessity of enhancing the coherence and alignment among curriculum objectives, content, and intended learning outcomes, as well as modernizing assessment practices and strengthening the integration of practical, skills-oriented learning components. Furthermore, it highlights the importance of adapting international best practices to the national educational context and strengthening teacher professional development as key strategic directions for sustainable curriculum reform.

**Keywords:** curriculum reform, education system, qualitative research, expert perspectives, student-centered learning, competency-based approach, educational development**.**

**DOI:** 10.30546/2709-2488.2026.002.507863
**To cite this article:** An analysis of the existing curriculum in Azerbaijan and opportunities for its improvement: a qualitative study based on expert opinions. *Journal of Preschool and Primary Education*, Special issue – "Master's research", pp. 71-95.
**Article history:** received – 31.03.2026; accepted – 30.04.2026.

# AZƏRBAYCANDA MÖVCUD KURİKULUMUN TƏHLİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARI: MÜTƏXƏSSİS RƏYİ ƏSASINDA KEYFİYYƏT TƏDQİQATI

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupu magistrantları**

**Günay Xanızadə**
xanizadegunay@gmail.com, https://orcid.org/0009-0009-0751-8420
**Zeynəb İsmayılzadə**
zeyneb.ismailzade@icloud.com, https://orcid.org/0009-0008-8098-8333
**Sima Abdullayeva**
simaabdullayeva03@gmail.com, https://orcid.org/0009-0009-9671-6751
**Nərmin Cavadov**
narminjavaadova@gmail.com, https://orcid.org/0009-0005-4064-9036
**Aytən İbrahimzadə**
ibrahimzada1000000@gmail.com, https://orcid.org/0009-0004-1961-6347
**Zəhra İbrahimova**
zibrahimova@gmail.com, https://orcid.org/0009-0008-6285-645X

**Annotasiya.** Bu tədqiqatın məqsədi Azərbaycanda tətbiq olunan mövcud kurikulumun effektivliyini, tətbiq prosesində qarşıya çıxan çətinlikləri və inkişaf perspektivlərini kurikulum üzrə mütəxəssislərin rəyləri əsasında təhlil etməkdir. Tədqiqat keyfiyyət metodologiyasına əsaslanmış, məlumatların toplanması üçün yarıstrukturlaşdırılmış açıq suallı sorğu alətindən istifadə edilmişdir. Toplanmış məlumatlar tematik analiz yolu ilə sistemləşdirilmiş və əsas kateqoriyalar müəyyənləşdirilmişdir. Nəticələr göstərir ki, mövcud kurikulum şagirdyönümlü və nəticəyönümlü yanaşma, interaktiv metodların tətbiqi və kompetensiya əsaslı təlim prinsipləri baxımından müsbət xüsusiyyətlərə malikdir. Bununla yanaşı, sistemsizlik, resurs çatışmazlığı, müəllimlərin metodiki hazırlıq səviyyəsində fərqlər və bəzi əsas kompetensiyaların (tənqidi düşünmə, yaradıcılıq, kommunikasiya) inkişafında boşluqlar müşahidə olunmuşdur. Tədqiqat kurikulumun məqsəd, məzmun və nəticə komponentləri arasında balansın gücləndirilməsini, qiymətləndirmə mexanizmlərinin yenilənməsini və praktik bacarıqlara yönəlmiş məzmunun artırılmasını zəruri hesab edir. Eyni zamanda beynəlxalq təcrübənin milli kontekstə uyğunlaşdırılaraq tətbiqi və müəllim hazırlığının gücləndirilməsi əsas inkişaf istiqamətləri kimi təklif olunur.
**Açar sözlər:** kurikulum islahatı, təhsil sistemi, keyfiyyət tədqiqatı, mütəxəssis rəyləri, şagirdyönümlü təhsil, kompetensiya əsaslı yanaşma, təhsil inkişafı**.**

**DOI:** 10.30546/2709-2488.2026.002.507863
**Məqaləyə istinad:** Azərbaycanda mövcud kurikulumun təhlili və təkmilləşdirilməsi imkanları: mütəxəssis rəyi əsasında keyfiyyət tədqiqatı. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Magistr tədqiqatları", səh. 71-95.
**Məqalə tarixçəsi:** göndərilib – 31.03.2026; qəbul edilib – 30.04.2026.

## Giriş / Introduction

"Kurikulum" latın mənşəli söz olub, mənası yol, istiqamət deməkdir. Əsasən, "tədris planı" və ya "proqram" kimi izah olunur. Dünyada ilk kurikulumun yaranması 1918-ci ilə təsadüf edir. Azərbaycanda isə kurikulum termini 1990-cı illərin sonundan etibarən istifadə olunmağa başlanmışdır. "1999-cu ildən etibarən respublikamızda mərhələ-mərhələ həyata keçirilən Təhsil islahatının 2003-2013-cü illəri əhatə edən üçüncü mərhələsində "Ümumi orta təhsilin keyfiyyəti və real tələbatlara uyğunluğu" adlı komponentin alt komponentlərindən biri kimi "Kurikulum islahatı" təsdiq edilmiş və bu istiqamətdə mütəmadi olaraq işlər görülmüş, tədbirlər həyata keçirilmişdir. Kurikulum Şurası, Kurikulum Mərkəzi yaradılmış və təhsil kurikulumlarının hazırlanmasına başlanılmışdır. İslahat dövründə 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədi, onun əsasında 2007-ci ildə I-IV siniflər üçün fənn kurikulumları hazırlanaraq təsdiq olunmuşdur" [https://www.arti.edu.az/az/page/24-kurikulum].

Yeni kurikulum sənədi təsdiq edildikdən sonra 2008-ci ildə I siniflər, 2011-ci ildə isə V-XI siniflər üçün fənn kurikulumları, eyni zamanda milli kurikulum əsasında Azərbaycan ümumtəhsil məktəbləri üçün 21 fənn üzrə tədris proqramları işlənib hazırlanmışdır. Yeni kurikulum sənədinin hazırlanması zamanı əsas diqqət müasir təhsil yanaşmalarına yönəldilmiş, şagirdyönümlülük, nəticəyönümlülük, şəxsiyyətyönümlülük və s. bir sıra önəmli məqamlar ön plana çəkilmişdir. Ölkəmizdə aparılan kurikulum islahatı təhsil sisteminin inkişafına mühüm töhfələr vermişdir. Kurikulum islahatını zəruri edən əsas səbəblər bunlardır:

- cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması;
- dünya təhsil sisteminə inteqrasiya – informasiya əsrinin tələbləri;
- təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması;
- mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi;
- planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və s. [Həsənov M., və b., 2014].

Təhsilalanlar üçün hazırlanan yeni tədris proqramlarına uyğun dərsliklərin hazırlanması və eyni zamanda tətbiqi üçün bacarıqlı müəllimlərin yetişdirilməsi əsas məsələlərdən birini təşkil edir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda kurikuluma aid fikirlər aşağıdakı kimidir:

**"Maddə 10. Təhsil proqramı (kurikulum)**

10.1. Təhsil proqramı dövlət təhsil standartlarına uyğun ayrı-ayrı təhsil pillələri və səviyyələri üzrə təhsilin məzmununu və mənimsənilmə qaydalarını müəyyən edir.

10.2. Təhsil proqramına tədris planı, fənlər üzrə tədris proqramları, metodik təminatla bağlı tövsiyələr, qiymətləndirmə və digər müvafiq təhsil texnologiyaları daxildir.

10.3. Azərbaycan Respublikasında təhsilin bütün pillələrini və səviyyələrini əhatə edən təhsil proqramları həyata keçirilir.

10.4. Təhsil proqramlarının yerinə yetirilməsi müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

10.5. Əlavə təhsil, distant təhsil və digər xüsusi təhsilalma formaları üçün müvafiq təhsil proqramları tətbiq edilir.

10.6. Sağlamlıq imkanları məhdud olan, uzun müddət müalicəyə ehtiyacı olan təhsilalanların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi ümumtəhsil proqramları müəyyən edilir və həyata keçirilir.

10.7. Azərbaycan Respublikasında beynəlxalq təhsil proqramları da həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı müvafiq qanunvericiliyə və təhsil müəssisəsinin nizamnaməsinə əsasən tənzimlənir" ["Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu., 2009].

Kurikulum vasitəsilə tədris prosesinin təşkil olunmasının əsas üstünlükləri aşağıdakılardır:

- şagirdyönümlü və nəticəyönümlü xarakter daşıması;
- sinif daxilində bütün təhsilalanların öyrənmə prosesinə cəlb olunması;
- şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi və s.

Yaradılan kurikulumların xüsusiyyətlərinə uyğun olaraq növlərə bölünməsi mühüm məsələ hesab olunmuş və bu sahədə çoxsaylı araşdırmalar aparılmışdır. Avstraliyalı alim Hitendra Piley Azərbaycanda apardığı tədqiqata əsasən, kurikulumun növlərini aşağıdakı kimi müəyyən etmişdir:

- rəsmi kurikulum;
- qeyri-rəsmi kurikulum;
- əhatəli kurikulum;
- fənlərə əsaslanan kurikulum;
- nəticələrə əsaslanan kurikulum;
- inteqrasiya olunmuş kurikulum.

Təhsil daim inkişaf edən və dəyişən bir sistemdir. Azərbaycanda həyata keçirilən kurikulum islahatı təkcə bu günün deyil, eyni zamanda gələcək dövrün tələblərinə uyğun təhsil sisteminin qurulmasına xidmət etməlidir.

Əgər tədris planı tədris proqramından və ya təhsil kursundan daha geniş şəkildə müəyyən edilirsə, onda öyrəniləcək məzmunun sadəcə ifadələrindən daha çoxunu ehtiva etməlidir. Tədris planının əsasını təşkil edən dörd vacib element aşağıdakılardır:

- məzmun;
- tədris (təlimin təşkili);
- öyrənmə strategiyaları;
- qiymətləndirmə prosesləri.

Bu elementlərin məntiqi bir nümunədə müəyyən edilməsi və təşkili prosesi kurikulum dizaynı kimi tanınır. Kurikulum müəllifləri modelləri müdafiə etməklə kurikulum dizaynı prosesində müəyyən bir nizam və ya rasionallıq yaratmağa çalışmışlar. İki əsas növ mövcuddur: tədris planı tərtibatçılarının nə etməli olduğunu göstərən göstərişli modellər və tədris planı tərtibatçılarının nə etdiyini təsvir etmək məqsədi daşıyan təsviri modellər. Bu modellərin nəzərdən keçirilməsi tədris planının dizaynında iki əlavə əsas elementi anlamağa kömək edir: niyyət ifadələri və kontekst.

"Nəticəyə əsaslanan təhsil" yanaşması bir çox cəhətdən məqsəd modelinə bənzəyir və yenə də sadə bir fərziyyədən başlayır – kurikulum tələbələrin əldə edəcəyi nəticələrlə müəyyən edilməlidir. Kurikulum dizaynı nəticələrdən digər elementlərə (məzmun, tədris və öyrənmə təcrübələri, qiymətləndirmə) "geriyə" doğru işləməklə davam edir.

Tədqiqatın əsas məqsədi kurikulum mütəxəssislərinin rəyləri əsasında Azərbaycanda mövcud kurikulumun tətbiqində qarşıya çıxan problemləri, müsbət tərəfləri və inkişaf ehtiyaclarını müəyyənləşdirmək, həmçinin kurikulumun təkmilləşdirilməsi üçün əsas istiqamətləri ortaya qoymaqdır.

**Tədqiqatın vəzifələri:**

- kurikulumun müsbət və mənfi cəhətlərini mütəxəssis baxışları əsasında təhlil etmək;
- kurikulumun təkmilləşdirilməsi üçün təklif olunan dəyişiklikləri müəyyənləşdirmək;
- mütəxəssis tövsiyələrini sistemləşdirərək ümumi nəticələr və müəllif təklifləri irəli sürmək.

Tədqiqatın vəzifələrini yerinə yetirmək üçün əvvəlcə kurikulumun əsas komponentlərini və müasir yanaşmaları nəzərdən keçirmək vacibdir:

- Kurikulum dövlət təhsil standartlarına uyğun hazırlanır və təhsil pillələri üzrə məzmunu müəyyən edir ["Təhsil haqqında" Qanun., 2009].
- Təhsil proqramı (kurikulum) kompleks xarakter daşıyır, tədris planı, fənlər üzrə proqramlar, metodik təminat və qiymətləndirmə mexanizmləri kimi bir neçə əsas komponentdən ibarətdir ["Təhsil haqqında" Qanun., 2009].
- Müasir kurikulum qiymətləndirmə sistemini təlim prosesinin ayrılmaz hissəsi kimi qəbul edir.
- Qiymətləndirmə yalnız biliyin yoxlanılması deyil, həm də bacarıq və kompetensiyaların ölçülməsi məqsədi daşıyır. Azərbaycan modelində meyar əsaslı

qiymətləndirmə tətbiq edilir [Ümumi təhsil üzrə kurikulum sənədləri., 2023]. Meyar əsaslı qiymətləndirmə obyektivliyi artırır və subyektiv yanaşmanın qarşısını alır [Həsənov M., və b., 2014].

- Kurikulum modelində müəllim bilik ötürən deyil, təlim prosesini təşkil edən fasilitator rolunda çıxış edir [Kurikulum haqqında məqalə., 2022].
- Müəllim şagirdlərin fəal iştirakını təmin edən mühit yaradır [Həsənov M., və b., 2014].
- İnteraktiv metodların tətbiqi kurikulumun əsas tələblərindən biridir [Ümumi təhsil üzrə kurikulum sənədləri., 2023]. Müəllimin peşəkar inkişafı kurikulumun uğurlu tətbiqi üçün əsas şərtlərdən biri hesab olunur.

Avropa ölkələrində kurikulum yanaşması kompetensiya əsaslı model üzərində qurulmuş və şagird bacarıqlarının formalaşdırılmasına üstünlük verilmişdir. Finlandiya təhsil sistemində kurikulum milli çərçivə sənədi əsasında hazırlanır və məktəblərə müəyyən muxtariyyət verilir. Böyük Britaniyada milli kurikulum əsas fənlər üzrə minimum standartları müəyyən edir və məktəblər bu çərçivə daxilində fəaliyyət göstərirlər.

Təcrübələr göstərir ki, müasir kurikulum modelləri mərkəzləşdirilmiş standartlarla yanaşı çevik tətbiq mexanizmlərini də nəzərdə tutur.

**Kurikulumun hazırlanma prinsipləri:**

1. tələbə mərkəzli yanaşma (kurikulum tələbələrin ehtiyaclarına və maraqlarına uyğun olmalı);
2. davamlılıq (mövzular mərhələli və ardıcıl şəkildə öyrədilməli);
3. çeşidlilik (müxtəlif öyrətmə metodları və mövzular tətbiq olunmalı);
4. uyğunluq (tədris həyat və cəmiyyət üçün faydalı bilikləri əhatə etməli);
5. qiymətləndirmə ilə əlaqə (kurikulum və qiymətləndirmə bir-birinə uyğun olmalı).

Aparılan araşdırmalar göstərir ki, kurikulum islahatı təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlmiş strateji addımdır [Ümumi təhsil üzrə kurikulum sənədləri., 2023].

Müasir təhsil sisteminin davamlı inkişafı üçün kurikulumun mütəmadi yenilənməsi vacibdir [Kurikulum haqqında məqalə., 2022]. Azərbaycanda tətbiq olunan kurikulum modeli beynəlxalq təcrübəyə əsaslanmaqla yanaşı, milli xüsusiyyətləri də nəzərə alır [Həsənov M., və b., 2014].

**Problemin qoyuluşu**

Problemin qoyuluşu mövcud kurikulumun tətbiqi prosesində müşahidə olunan struktur və funksional çatışmazlıqlarla bağlıdır. Azərbaycanda kurikulum islahatı 2000-ci illərdən bəri həyata keçirilsə də, mütəxəssislər tərəfindən qeyd olunan sistemsizlik, resurs çatışmazlığı və əsas kompetensiyaların (tənqidi düşünmə,

yaradıcılıq və kommunikasiya) inkişafında boşluqlar təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Bu problemlər şagirdlərin müasir cəmiyyət tələblərinə uyğunlaşmasını çətinləşdirir və təhsil sisteminin ümumi effektivliyini aşağı salır. Tədqiqatın hədəfi kurikulumun məqsəd, məzmun və nəticə komponentləri arasında balansı təmin etmək, beynəlxalq təcrübəni milli kontekstə uyğunlaşdırmaq və praktik bacarıqların inkişafını gücləndirməkdir. Bu yanaşma vasitəsilə mövcud boşluqların müəyyənləşdirilməsi və həll yollarının təklif olunması nəzərdə tutulur.

**Metodologiya**

Tədqiqat keyfiyyət metodologiyasına əsaslanır və məqsədəuyğun seçmə üsulu ilə qurulmuşdur. Məlumatların toplanması üçün yarıstrukturlaşdırılmış açıq suallı sorğu (anket) alətindən istifadə edilmiş, kurikulum sahəsində təcrübəyə malik 10 mütəxəssis iştirakçı olaraq seçilmişdir.

Sorğu sualları kurikulumun müsbət və mənfi cəhətləri, inkişaf istiqamətləri və beynəlxalq təcrübə ilə bağlı əsas istiqamətlərini əhatə edir. Tədqiqat çərçivəsində toplanmış məlumatlar effektiv keyfiyyət analiz metodu olan tematik analiz üsulu ilə təhlil edilmiş, mütəxəssislərin cavablarda təkrarlanan nümunələr, kateqoriyalar və ümumi meyillər sistemli şəkildə müəyyənləşdirilmişdir. Bu metodologiya mütəxəssis rəylərinin dərin təhlilini təmin edərək, tədqiqatın etibarlılığını və obyektivliyini artırır. Sorğu forması mütəxəssislərə elektron formatda təqdim olunmuşdur. Suallar aşağıdakı əsas istiqamətləri əhatə etmişdir:

- Azərbaycanda mövcud kurikulumun müsbət tərəfləri;
- kurikulumun tətbiqi zamanı qarşıya çıxan problemlər və çatışmazlıqlar;
- kurikulumda dəyişiklik və əlavə olunması mümkün olan elementlər;
- kurikulumun gələcək inkişafı ilə bağlı tövsiyələr.

## Əsas hissə / Main part

Tədqiqatın iştirakçıları kurikulum sahəsində təcrübəyə malik 10 mütəxəssisi əhatə edir. Bu mütəxəssislər təhsil proqramlarının hazırlanması, tətbiqi və qiymətləndirilməsi istiqamətində praktik bilik və təcrübəyə malik şəxslər arasından seçilmişdir. Belə seçim tədqiqatın məqsədlərinə uyğun olaraq mövzu ilə bilavasitə tanış olan və müvafiq sahədə təcrübəyə malik şəxslərin tədqiqata cəlb edilməsinə imkan yaratmışdır. İştirakçılar tədqiqatçılar tərəfindən peşəkar tanışlıq və mövcud əlaqələr əsasında müəyyən edilmiş və sorğu məlumatlı və məqsədəuyğun hesab edilən mütəxəssislərə göndərilmişdir. Seçim zamanı əsas diqqət kurikulumun hazırlanması, tətbiqi və ya qiymətləndirilməsi prosesində praktiki və ya nəzəri təcrübəyə malik olmalarına yönəldilmişdir.

*Cədvəl 1.*

| **Sual 1: Mövcud kurikulumun əsas üstünlükləri və zəif cəhətləri nələrdir?** | |
|---|---|
| R1 | Zəif cəhətləri sistemsiz, fəaliyyətlərin ölçülə bilinməyən olması, yaş səviyyəsinin bir çox hallarda nəzərə alınmaması və bu dəyişikliklərin müsbət deyil, əks istiqamətə yönəlməsi, ümumi təlim nəticələri, fənn təlim nəticələri arasında uyğunsuzluqların olması və s. məsələlərdir. |
| R2 | Üstün cəhətləri şagirdyönümlü yanaşma, kompetensiyaların inkişafına yönəlmə, təlimdə aktiv metodların tətbiqi, qiymətləndirmədə şəffaflığın olması; mənfi cəhətləri isə müəllimlərin metodiki hazırlığının bəzən kifayət qədər olmaması, resurs çatışmazlığı, praktiki bacarıqlara az yer verilməsi və fənlərarası əlaqələrin zəif qurulmasıdır. |
| R3 | Üstün cəhəti kurikulumun uşağın bacarığına əsaslanması; zəif cəhəti isə bəzi standartların real vəziyyəti əks etdirməməsidir. |
| R4 | Üstün cəhətləri nəticəyönümlü, şagirdyönümlü və tələbyönümlü olmasıdır. |
| R5 | Üstün cəhəti şagirdyönümlü olması, zəif cəhəti bütün müəllimlər tərəfindən tətbiq edilə bilməməsidir. |
| R6 | Üstün cəhəti interaktivliyin olması; zəif cəhəti isə sistemliliyin olmamasıdır. |
| R7 | Üstün cəhəti müasir tendensiyaların nəzərə alınması; zəif cəhəti fənlərin saat çoxluğudur. |
| R8 | Üstün cəhəti praktikyönümlü olması; zəif cəhəti tam uyğunlaşmanın olmamasıdır (Kurikulumun tətbiqi üçün vəsait ölkə üzrə bütün məktəblərdə eyni olmalıdır, bu isə hələ də təmin olunmayıbdır). |
| R9 | Üstün cəhətləri interaktiv təlim metodlarından geniş istifadə edilməsi və layihə əsaslı öyrənmə yanaşmasının tətbiq olunması (Bu cür metodlar şagirdlərin yaradıcı düşünmə və praktik bacarıqlarını inkişaf etdirməyə kömək edir); zəif cəhətləri materialın təqdimatının bəzən düzgün təşkil olunmaması və tədris prosesinin yetərincə sistemli şəkildə qurulmamasıdır. |
| R10 | Üstün cəhətləri şəxsiyyətyönümlü, nəticəyönümlü və tələbyönümlü olması; zəif cəhətləri respublikada məzmunun kifayət qədər müəyyənləşdirilməməsidir. |

*Cədvəl 2.*

| **Sual 2: Yeni kurikulum hazırlanarkən hansı əsas prinsiplərə və dəyərlərə üstünlük verilməlidir?** | |
|---|---|
| R1 | Sistemsizliyə yol verilməməli, inteqrativlik, nəticəyönümlülük, davamlılıq və ardıcıllıq gözlənilməlidir. |
| R2 | Şəxsiyyətin inkişaf etdirilməsi, bərabər imkanların təmin edilməsi, milli-mənəvi dəyərlərin qorunması, innovativ və tənqidi düşüncənin təşviqi, eləcə də çeviklik və həyat bacarıqlarına əsaslanan yanaşmalara üstünlük verilməlidir. |
| R3 | Şəxsiyyətyönümlü, problem əsaslı yanaşmaya üstünlük verilməlidir. |
| R4 | Bərabərlik, demokratiklik, humanistlik və s. prinsiplərə, milli-mənəvi, ümumbəşəri dəyərlərə üstünlük verililməlidir. |
| R5 | Nəticəyönümlülük, inklüzivlik, şəxsiyyətyönümlülük və s. prinsiplərə üstünlük verilməlidir. |
| R6 | Uyğunluq olmalıdır. |
| R7 | İxtisas və ixtisaslaşmanın təlim nəticələrinin nəzərə alınması, araşdırmayönümlü olması, beynəlxalq standartlara uyğunluq əsas götürülməlidir. |
| R8 | Milliliyin qorunması fonunda yeniliklər tətbiq edilməlidir. |
| R9 | Tədris prosesi interaktiv və layihə əsaslı metodlara söykənməli, yaradıcı düşüncə, əməkdaşlıq və məsuliyyət kimi dəyərlərin formalaşmasına xidmət etməli, milli-mənəvi dəyərlərin qorunması və müasir qlobal trendlərlə uzlaşdırılması mühüm istiqamətlərdən biri olmalıdır. |
| R10 | Təhsil aldığı müəssisəni bitirdikdən sonra tələbələrin işə qəbul imtahanına hazırlaşmalarına ehtiyac yaranmaması üçün prinsip və dəyərlər nəzərə alınmalıdır. |

*Cədvəl 3.*

| **Sual 3: Kurikulumda hansı kompetensiyaların inkişafına kifayət qədər diqqət yetirilmir? ( Məsələn, tənqidi düşünmə, yaradıcılıq, kommunikasiya və s.)** | |
|---|---|
| R1 | Məzmun təhsilalanın nəyi bacaracağı, öyrəndiklərini necə nümayiş etdirəcəyi deyil, onun nəyi öyrənəcəyinə yönəlib. Standartların tərtibində mövcud yanaşma düzgün kompetensiyayönümlü deyil. Təlim nəticələri tələbənin nəyi öyrənəcəyinə fokuslanır, lakin onun nəyi bacaracağına və öyrəndiklərini necə tətbiq edərək nümayiş etdirəcəyinə yönəlmir. Yəni kurikulumda nəticəyönümlü və bacarıqyönümlü yanaşma tam əks olunmayıb. Bu isə təhsilin praktik yönünün zəifləməsinə və şagirdlərin əldə etdikləri bilikləri tətbiqetmə imkanlarının məhdudlaşmasına səbəb olur. |
| R2 | Tənqidi və yaradıcı düşünmə, kommunikasiya və əməkdaşlıq bacarıqları, problem həlletmə və rəqəmsal savadlılıq sahələrinə daha çox diqqət ayrılmalıdır. |
| R3 | Ünsiyyət bacarıqlarının (kommunikasiya) inkişaf etdirilməsinə kifayət qədər diqqət yetirilmir. |
| R4 | Bu kompetensiyalar kurikulumun hazırlanmasında nəzərə alınıb. Hesab edirəm ki, onların inkişafı düzgün qurulmuş müəllim-şagird fəaliyyətindən asılıdır. |
| R5 | Analitik düşüncənin inkişaf etdirilməsinə kifayət qədər diqqət yetirilmir. |
| R6 | Təhsilalanlarda sosial məsuliyyət olmalıdır. |
| R7 | Məncə, tənqidi təfəkkür, kreativlik, diqqət çox azdır. |
| R8 | Kompetentlik anlayışının daxilində mövcud olan bütün bacarıqlar inkişaf etdirilməlidir, lakin bizim şagirdlərdə hazırda tənqidi düşünmə və yaradıcılıq bir qədər zəifdir. |
| R9 | Komandada işləmək bacarığı, çeviklik, yeniliyə açıqlıq. |
| R10 | Yaradıcılıq, tənqidi düşünmə və səriştəliliyə lazımi qədər diqqət yetirilmir. |

*Cədvəl 4.*

| **Sual 4: Yeni kurikulum hazırlanarkən hansı beynəlxalq təcrübə və modellərdən yararlanmaq faydalı olar? (məsələn, Finlandiya, Sinqapur, Kanada və s.)** | |
|---|---|
| R1 | Hansı modeldən istifadəyə yer verilməsindən asılı olmayaraq, ilk növbədə, Azərbaycan cəmiyyətinin tələblərini, resurs bazasını, təhsilverənlərin və təhsilalanların bu yeniliyə hazırlığını və s. amilləri nəzərə almaq mütləqdir. |
| R2 | Finlandiyanın şagird mərkəzli və etimad əsaslı modeli, Sinqapurun STEAM və tətbiqi bacarıqlara yönəlmiş sistemi, Kanadanın inklüziv və kompetensiya əsaslı təhsil yanaşması nümunə kimi götürülə bilər. |
| R3 | Finlandiya təhsil modelindən yararlanmaq faydalı olar. |
| R4 | İngiltərə təhsil modelindən yararlanmaq faydalı olar. |
| R5 | Finlandiya təhsil modelindən yararlanmaq faydalı olar. |
| R6 | Finlandiya təhsil modelindən yararlanmaq faydalı olar. |
| R7 | Beynəlxalq model və təcrübələrdən faydalanmaq üçün onları öyrənmək lazımdır. |
| R8 | Beynəlxalq təcrübədən səmərəli faydalanmaq üçün əvvəlcə müxtəlif modellər hərtərəfli araşdırılmalı, zəif və üstün cəhətləri müəyyənləşdirilməli, daha sonra yerli şəraitə uyğun olanı tətbiq olunmalıdır. |
| R9 | Yeni kurikulum hazırlanarkən Finlandiya, Sinqapur və Kanada kimi qabaqcıl təhsil modellərindən yararlanmaq məqsədəuyğundur, lakin bu təcrübələri olduğu kimi deyil, yerli reallıqları, sosial – mədəni xüsusiyyətləri və mövcud problemləri nəzərə alaraq uyğunlaşdırmaq vacibdir. Beləliklə, beynəlxalq təcrübə milli kontekstə inteqrasiya olunaraq daha effektiv nəticə verə bilər. |
| R10 | Mən etibar üzərində qurulmuş Finlandiya təhsil sisteminə üstünlük verərdim. |

*Cədvəl 5.*

| **Sual 5: Kurikulumun məqsəd, məzmun və nəticə komponentləri arasında balansı yetərli hesab edirsinizmi?** | |
|---|---|
| R1 | Xeyr. |
| R2 | Tam yetərli deyil. Məqsədlər düzgün qoyulsa da, məzmun və nəticələr arasında tam uyğunluq yoxdur. Praktiki və tətbiqi bacarıqların ölçülməsi zəifdir. |
| R3 | Xeyr, beynəlxalq bacarıqlar az nəzərə alınıb. |
| R4 | Bəli, çünki kurikulumun əsas məqsədi cəmiyyət üçün milli-mənəvi dəyərlərə, geniş dünyagörüşünə malik, intellektual, tolerant vətəndaş tərbiyə etməkdir. Hesab edirəm ki, mövcud məzmun bu məqsədə çatmaqla nəticələnir. |
| R5 | Xeyr, çünki Azərbaycan mühitində uşaqların psixoloji dayanıqlılığı arzu olunan səviyyədə formalaşmayıb. |
| R6 | Xeyr. |
| R7 | Balanslı olmadığını düşünürəm. |
| R8 | Bu, məzmun və nəticənin necə tətbiq olunmasından asılıdır. Sual müzakirəyə açıqdır. |
| R9 | Bu balansı tam yetərli hesab etmirəm. Statistik göstəricilər və beynəlxalq qiymətləndirmələrin nəticələri göstərir ki, Azərbaycanda şagirdlərin nailiyyət səviyyəsi bir çox inkişaf etmiş və qonşu ölkələrlə müqayisədə aşağıdır. Bu isə o deməkdir ki, kurikulumun məqsəd, məzmun və nəticə komponentləri arasında nəzərdə tutulan uyğunluq praktikada tam şəkildə təmin olunmayıb. Məqsədlər müasir tələblərə cavab versə də, məzmunun və tədris prosesinin nəticələrə real təsiri hələ istənilən səviyyədə deyil. |
| R10 | Yetərli deyil, boşluqlar var. |

*Cədvəl 6.*

| **Sual 6: Hazırkı kurikulumun əsas fəlsəfəsi və məqsədi XXI əsrin tələblərinə cavab verir?** | |
|---|---|
| R1 | Analitik və yaradıcı düşüncənin formalaşdırılması baxımından, yeterli deyil. |
| R2 | Qismən cavab verir. Müasir bacarıqlara yönəlmə mövcud olsa da, innovasiya və rəqəmsal düşüncənin inkişafını qənaətbəxş hesab etmək olmaz. |
| R3 | Xeyr. |
| R4 | Xeyr. |
| R5 | Bəli. |
| R6 | Bəli cavab verir, amma istənilən formada tətbiq olunmur. |
| R7 | Tam cavab vermir. |
| R8 | Fəlsəfə olaraq yetərli görünür, lakin nəticə olaraq deyil. |
| R9 | Tədris prosesində innovativ texnologiyaların və müasir metodların tətbiqi hələ də məhduddur. Buna görə də, kurikulumun ideyası müasir tələblərə cavab versə də, onun icra mexanizmləri və tətbiq səviyyəsi XXI əsrin sürətlə dəyişən tələblərinə tam uyğun deyil. |
| R10 | Cavab verir, lakin təkmilləşdirilməsinə ehtiyac var. |

*Cədvəl 7.*

| **Sual 7: Kurikulumun qiymətləndirmə sistemi praktikada nə dərəcədə effektivdir? Onun təkmilləşdirilməsi üçün nə təklif edərdiniz?** | |
|---|---|
| R1 | Mütləq təkmilləşdirilməlidir. Qiymətləndirmə konsepsiyası və məktəbdaxili qiymətləndirmə arasında heç bir davamlılıq gözlənilmir. Ümumiyyətlə, qaydalar sistemsizdir, mexanizm işləmir. |
| R2 | Məncə, qiymətləndirmə sistemi tam effektiv deyil. Nəzəri biliklər yaxşı qiymətləndirilir, lakin praktik bacarıqlar kifayət qədər nəzərə alınmır. Təkmilləşdirmək üçün real situasiyalara əsaslanan tapşırıqlar və davamlı formativ qiymətləndirmə tətbiq edilməlidir. |
| R3 | Qismən effektivdir. |
| R4 | Müəllim peşəkarlığı artırılmalıdır. |
| R5 | Formativ qiymətləndirmə zamanı meyarlar sadə və anlaşıqlı şəkildə tərtib olunmalıdır. |
| R6 | Pilot layihə formasında həyata keçirilsin. |
| R7 | Tam effektiv olduğunu hesab etmirəm. |
| R8 | Hər şeydən öncə qiymətləndirmə sistemi özü nə istədiyini bilməlidir. Azərbaycanda ən çox dəyişimə uğradılan məhz qiymətləndirmə sistemidir. Bununla yanaşı, hazırkı sistemi qənaətbəxş hesab etmirəm. Təkmilləşdirmə üçün mövcud şərait və insan dəyərləri dərindən tədqiq olunmalıdır. |
| R9 | Mövcud qiymətləndirmə sistemi tam effektiv hesab oluna bilməz, çünki o, şagirdlər üçün çox vaxt ciddi psixoloji təzyiq və stres yaradır. Qiymətləndirmə daha çox nəticəyə yönəlir, prosesin özünü və şagirdin fərdi inkişafını kifayət qədər nəzərə almır. Bu sistemdə əsas məqsəd yalnız bilik ölçmək deyil, həm də şagirdin motivasiyasını artırmaq və sağlam rəqabət mühiti formalaşdırmaq olmalıdır. Təklif edərdim ki, qiymətləndirmə formaları daha çevik, fərdiləşdirilmiş və motivasiyaedici olsun. |
| R10 | Qiymətləndirilmə peşəkarlar tərəfindən aparılmalı və bunun vahid mexanizmi olmalıdır. Bəzən qiymətləndirilməni aparan şəxslər subyektiv mövqedən yanaşır, özünün tanış olduğu hər hansı bir xarici ölkənin sistemi üzrə hərəkət edir. |

*Cədvəl 8.*

| **Sual 8: Yeni kurikulumda hansı fənlər və ya modullar əlavə edilməlidir? (məsələn, rəqəmsal savadlılıq, davamlı inkişaf, vətəndaşlıq bacarıqları və s.)** | |
|---|---|
| R1 | Yenilikçilik, yaradıcı düşünmə və kompleks problemin həlli modulu (analitik, yaradıcı düşünmənin formalaşdırılması, məntiqi əlaqənin qurulması və s.) |
| R2 | Süni intellekt əsasları, davamlı inkişaf və emosional-intellekt bacarıqları modulları əlavə edilməlidir. |
| R4 | Kurikulumlar inteqrativ olmalıdır. |
| R5 | Yeni kurikulumda kompetensiyalar sırasında rəqəmsal savadlılıq, vətəndaşlıq bacarıqları da yer almalıdır. |
| R7 | Cavab vermək üçün daha ciddi araşdırmaq lazımdır. |
| R8 | Cinsi tərbiyə mütləq şəkildə mənəvi baxımdan vacib sahələrdən biridir. Süni intellektin (İAİ -implementation of artificial intelligence) tətbiqi sahəsində bu kimi mövzuların  kifayət qədər əhatə olunmadığı müşahidə olunur. |
| R9 | Rəqəmsal savadlılıq, yaradıcı düşünmə, emosional zəka və sosial bacarıqlar kurikuluma daxil edilməlidir. |
| R10 | Hər üçü çox vacibdir. Rəqəmsal savadlılıq inkişaf etdirilməlidir. |

*Cədvəl 9.*

| **Sual 9: Tədris nəticələrinin daha aydın və ölçülə bilən şəkildə ifadə olunması üçün nə dəyişilməlidir?** | |
|---|---|
| R1 | Məzmun daha aydın olmalıdır. |
| R2 | Nəticələr konkret meyarlarla və ölçülə bilən göstəricilərlə ifadə olunmalıdır. Hər nəticə üçün real bacarıq və fəaliyyət nümunələri əlavə edilməlidir. |
| R3 | Standartlara uyğunlaşdırılmalıdır. |
| R4 | Valideynlərin düşüncəsi, təhsildən gözləntiləri dəyişilməlidir. |
| R5 | Qiymətləndirmə kağızda deyil, elektron şəkildə aparılmalıdır. |
| R6 | Təlim nəticəsi sadə olmalıdır. |
| R7 | Yanaşma dəyişməlidir, qaydalar və təkliflər daha aydın şəkildə ifadə edilməlidir. |
| R8 | Qiymətləndirmə sistemi dəyişilməlidir. |
| R9 | Hər bir nəticə üçün dəqiq meyarlar və qiymətləndirmə indikatorları müəyyən edilməlidir ki, həm müəllim, həm də şagird nəyi və hansı səviyyədə əldə etməli olduğunu bilsin. |
| R10 | Meyarlar hazırlanmalıdır. |

*Cədvəl 10.*

| **Sual 10: Əgər sizə kurikulumu yenidən hazırlamaq imkanı verilsəydi, hansı əsas dəyişiklikləri həyata keçirərdiniz və nəyə görə məhz o dəyişiklikləri?** | |
|---|---|
| R1 | İlk növbədə, müasir dövrün tələbləri baxımından, daha çox praktik və həyati bacarıqların formalaşdırılmasına dəyişiklik edərdim. Bunlarla yanaşı, təlim strategiyası və qiymətləndirilmənin sistemli, əlaqəli, davamlı şəkildə qurulmasını diqqətdə saxlayardım. |
| R2 | Tələbələr üçün kurikulumu daha praktik və bacarıqyönümlü istiqamətdə inkişaf etdirər, layihə əsaslı öyrənmə, rəqəmsal bacarıqlar və tənqidi düşünmənin formalaşmasını gücləndirərdim. Bu dəyişikliklər tələbələrin əmək bazarına və real həyata daha yaxşı hazırlanmasına kömək edərdi. |
| R3 | Təhsil prosesində şagirdlərdə həyati bacarıqların inkişaf etdirilməsini təmin edərdim. Çünki 11 illik təhsilin sonunda şagird zəruri həyati bacarıqlarına malik olmalıdır. |
| R4 | Daha inteqrativ tədris proqramı hazırlayardım, fənlərin sayının azaldılmasını təmin edərdim. |
| R5 | Valideynin hüquq və vəzifələrini daha çox ön plana çıxarardım. |
| R6 | Ciddi dərəcəli, xüsusi təhsilə ehtiyacı olan şagirdlərin ixtisaslaşmış müəssisələrdə təhsil almasını təmin edərdim. |
| R7 | Dəqiq cavab verə bilmirəm. |
| R8 | Əgər kurikulumu yenidən hazırlamaq imkanım olsaydı, ümumi təhsil sistemində kompleks dəyişikliklər həyata keçirərdim. |
| R9 | İlk növbədə, mövcud sistemdəki səhvləri və çatışmazlıqları diqqətlə təhlil edərdim. Əsas prioritetim pedaqoji kadrların daha düzgün və praktikyönümlü hazırlanması olardı, çünki kurikulumun uğuru birbaşa müəllimin peşəkarlığından asılıdır. Eyni zamanda şagirdlər üçün motivasiyanı artıran və öyrənməyə maraq yaradan şəraitin yaradılmasını vacib hesab edirəm. |
| R10 | Sürətlə dəyişən dövrdə yaşadığımız üçün məzmun və yanaşmalar daim yenilənməlidir. |

*Cədvəl 11.*

| **Sual 11: Mövcud kurikulum şagirdlərdə peşə bacarıqlarının formalaşmasına nə dərəcədə təsir göstərir? Bu istiqamətdə kurikulum sənədinə hansı dəyişiklik və əlavələr etməyi zəruri hesab edirsiniz?** | |
|---|---|
| R1 | Bir fikrim yoxdur. |
| R2 | Mövcud kurikulum əsas nəzəri bilikləri təmin edir, lakin praktiki və peşə bacarıqlarının inkişafı üçün əlavə layihə, təcrübə və qiymətləndirmə mexanizmlərinə ehtiyac var. |
| R3 | Az təsir edir. |
| R4 | Ümumtəhsil məktəbi peşə ixtisası verən qurum deyil. Peşə ixtisasının verilməsi, əsasən, orta ixtisas və ali təhsil müəssisələrinin vəzifəsi hesab olunur. |
| R5 | Şagirdlərə praktik tapşırıqlar verilir. Praktik mövzuların və dərslərin keçirilməsinə daha çox yer vermək lazımdır. |
| R6 | Bilmirəm. |
| R7 | Dəqiq cavabım yoxdur. |
| R8 | Yuxarı siniflərdə mütləq texniki və əmək bacarıqlarının verilməsi və universitet kimi məktəblərin də müəssisələrlə birgə çalışması vacibdir. |
| R9 | Müasir kurikulumun peşə bacarıqlarının formalaşmasına təsiri məhdud hesab edilir. Bir çox valideyn və müəllimlər materialların çox çətin, bəzən isə praktik həyatdan uzaq olduğunu qeyd edirlər. Tədris prosesi çox vaxt şablon yanaşmalar üzərində qurulur və əsas məqsəd sadəcə test imtahanlarını keçmək olur. Bu isə şagirdlərin müstəqil düşünmə, yaradıcı yanaşma və öz ideyalarını inkişaf etdirmə bacarıqlarını məhdudlaşdırır. Bu vəziyyəti dəyişmək üçün kurikulumda praktikyönümlü, layihə əsaslı və əmək bazarına uyğun fənlərə daha çox yer verilməli, həmçinin tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirən tapşırıqların sayı artırılmalıdır. |
| R10 | Təcrübi fənlərin tətbiqini genişləndirmək lazımdır. |

## Respondentlərin cavablarının ümumi tematik analizi:

*Cədvəl 12.*

| Tematik kateqoriyalar | *Kodlanmış fikirlər* | Say |
|---|---|---|
| üstün və zəif cəhətlər | *şagirdyönümlülük*<br>*nəticəyönümlülük, tələbyönümlülük* | 4<br>3 |
| | *kompetensiya və bacarıq inkişafı*<br>*sistemsizlik və təşkilat problemləri* | 4<br>3 |
| | *tədris nəticələri uyğunsuzluğu* | 3 |
| | *praktiki bacarıqlara az yer verilməsi* | 2 |
| prinsiplər və dəyərlər | *şəxsiyyətyönümlülük / şagirdyönümlülük* | 3 |
| | *milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunması* | 4 |
| | *bərabərlik və inklüzivlik* | 3 |
| | *innovativlik və müasir trendlərlə uzlaşdırma* | 3 |
| kompetensiyalar | *tənqidi düşünmə* | 5 |
| | *yaradıcı düşüncə* | 4 |
| | *əməkdaşlıq / komandada işləmə* | 2 |
| beynəlxalq təcrübə və yanaşmalar | *Finlandiya modeli* | 5 |
| | *Sinqapur modeli* | 2 |
| | *STEAM və tətbiqi bacarıqlara yönəlmiş* | 2 |
| | *yerli kontekst və resursların nəzərə alınması* | 3 |
| balanslaşma | *balans yetərli olmaması*<br>*məzmun və nəticələr arasında uyğunluq problemləri* | 8<br>2 |
| XXI əsrin tələblərinə uyğunluq | *yetərli olmaması* | 6 |
| | *qismən cavab verilməsi* | 4 |
| | *tətbiq səviyyəsinin yetərsizliyi* | 3 |

| | | |
|---|---|---|
| qiymətləndirmənin effektivliyi | *tam effektiv olmaması*<br>*təkmilləşdirməyə ehtiyac olmaması* | 6<br>7 |
| modullar | *rəqəmsal savadlılıq / süni intellekt* | 6 |
| | *vətəndaşlıq bacarıqları* | 3 |
| | *sosial bacarıqlar* | 2 |
| tədris nəticələrinin aydınlığı və ölçülməsi | *nəticələrin konkret meyarlarla və indikatorlarla ifadəsi* | 3 |
| | *məzmunun aydınlaşdırılması* | 2 |
| yenidənqurma istiqamətləri | *praktik və həyati bacarıqların gücləndirilməsi* | 3 |
| | *layihə əsaslı öyrənmə və bacarıqyönümlü tədris* | 1 |
| | *valideynlərin hüquq və vəzifələrinin ön plana çıxarılması* | 1 |
| peşə bacarıqlarına təsir | *praktik və peşə bacarıqlarının inkişafı üçün layihə və təcrübə ehtiyacı* | 5 |
| | *təsir azlığı* | 2 |
| | *əsasən, nəzəri bilik təmin etməsi*<br>*qəti cavabın verilməməsi* | 2<br>3 |

**I. Mövcud kurikulumun təhlili: üstün və zəif cəhətlər**

Aparılan təhlillər göstərir ki, mövcud kurikulum nəzəriyyədə müasir tələblərə cavab versə də, tətbiqi ciddi maneələrlə üzləşir.

**1. Üstün cəhətlər**

Respondentlərin fikrincə, kurikulumun əsas güclü tərəfləri müasir təhsil trendlərinə uyğunluğu ilə bağlıdır:

**Şagirdyönümlülük və nəticəyönümlülük.** Kurikulum müasir təhsil tələblərinə uyğun olaraq şagirdyönümlü, nəticə və kompetensiya əsaslı yanaşmanı ön plana çıxarır. Respondent 2 (R2) bu yanaşmaları kurikulumun üstünlükləri kimi qeyd edir, həmçinin qiymətləndirmədə şəffaflığı da üstün cəhət sayır. R4 isə kurikulumun nəticəyönümlü, şagirdyönümlü və tələbyönümlü olduğunu vurğulayır.

**İnteraktiv metodların tətbiqi.** Kurikulumun üstün cəhətlərindən biri kimi interaktiv təlim metodlarından geniş istifadə edilməsi və layihə əsaslı öyrənmə yanaşmasının tətbiq olunması (R9) göstərilir. R9 qeyd edir ki, bu metodlar şagirdlərin yaradıcı düşünmə və praktiki bacarıqlarını inkişaf etdirməyə kömək

edir. Həmçinin R7 kurikulumda müasir tendensiyaların nəzərə alındığını bildirir.

**2. Zəifliklər və tətbiqi çətinliklər**

Təhlil mövcud kurikulumun tətbiqi mərhələsində sistemlilik və resurs təminatı ilə bağlı ciddi problemlərin mövcud olduğunu göstərir.

**Sistemsizlik və uyğunsuzluq.** R1 sistemsizlik, fəaliyyətlərin ölçülməməsi və ümumi təlim nəticələri ilə fənn təlim nəticələri arasında uyğunsuzluqları zəif cəhətlər kimi qiymətləndirir. R6 kurikulumda interaktivlik olsa da, sistemli olmadığını qeyd edir.

**Kadr və resurs çatışmazlığı.** R2 müəllimlərin metodiki hazırlığının kifayət qədər olmadığını və resurs çatışmazlığını zəif cəhət kimi göstərir. R8 kurikulumun tətbiqinin tam uyğunlaşmasının mümkünsüzlüyünü vəsaitin ölkə üzrə bütün məktəblərdə eyni olmaması ilə əlaqələndirir və bunun hələ də təmin edilməməsini əsas problem hesab edir.

**Kompetensiyaların məhdud inkişafı.** Aparılan təhlillər göstərir ki, tənqidi düşünmə, yaradıcılıq, kommunikasiya və problem həlletmə kimi əsas kompetensiyaların inkişafına kifayət qədər sistemli və praktikyönümlü diqqət yetirilmir. R1 qeyd edir ki, standartların tərtibi tələblərə uyğun deyil, çünki o, təhsilalanın nəyi bacaracağını deyil, nəyi biləcəyinə yönəlib. R8 hazırda şagirdlərdə tənqidi düşünmə və yaradıcılığın bir qədər zəif olduğunu qeyd edir.

**II. Məzmun balansı və XXI əsrin tələblərinə uyğunluq**

**1. Məqsəd, məzmun və nəticə balansı**

Təhlillər göstərir ki, kurikulumda məqsədlər müəyyənləşdirilsə də, məzmun və nəticə komponentləri arasında praktik səviyyədə tam balans təmin olunmamışdır. Xüsusilə tətbiqi bacarıqların inkişafı və ölçülməsi baxımından boşluqlar mövcuddur. Respondentlərin əksəriyyəti bu balansı qeyri-kafi hesab edir. R1-in cavabı bu uyğunsuzluğun səbəbini praktiki və tətbiqi bacarıqların ölçülməsinin zəif olması ilə əlaqələndirir. R9-un cavabı isə bu uyğunsuzluğu statistik göstəricilərin və beynəlxalq qiymətləndirmələrin aşağı nəticələri ilə əsaslandırır. Kurikulumun fəlsəfəsinin XXI əsrin tələblərinə cavab verməsi barədə suala R2 qismən cavab verdiyini, lakin innovasiya və rəqəmsal düşüncə sahəsində tam uyğun olmadığını qeyd edir. R9 isə kurikulumun ideyasının müasir tələblərə cavab versə də, onun icra mexanizmlərinin və tətbiq səviyyəsinin XXI əsrin sürətlə dəyişən ehtiyaclarına tam uyğun olmadığını bildirir.

**2. Qiymətləndirmə sisteminin effektivliyi**

Mövcud qiymətləndirmə sistemi praktikada tam effektiv deyil. R1 qeyd edir ki, qiymətləndirmə qaydaları sistemsizdir, davamlılıq gözlənilmir və vahid mexanizm işləmir, buna görə də mütləq təkmilləşdirilməlidir. R2 hesab edir ki, nəzəri biliklər yaxşı qiymətləndirilsə də, praktik bacarıqlar kifayət qədər nəzərə alınmır, təkmilləşdirmək üçün real situasiyalara əsaslanan tapşırıqlar tətbiq edilməlidir.

R9 isə mövcud sistemin şagirdlər üçün psixoloji təzyiq və stress yaratdığını, prosesin özünü və fərdi inkişafı kifayət qədər nəzərə almadığını qeyd edir. R10 qiymətləndirmənin peşəkarlar tərəfindən vahid mexanizm əsasında aparılmasını təklif edir.

**III. Kurikulumun təkmilləşdirilməsi istiqamətləri**

Yeni kurikulumun hazırlanmasında əsas diqqət praktik və həyati bacarıqların formalaşdırılmasına, eləcə də beynəlxalq təcrübənin milli kontekstə uyğunlaşdırılmasına yönəldilməlidir.

**1. Əlavə zəruri modullar və kompetensiyalar**

Yeni kurikulumda rəqəmsal savadlılıq, süni intellekt əsasları, yaradıcı və tənqidi düşünmə, vətəndaşlıq bacarıqları, emosional zəka və davamlı inkişaf kimi modulların yer alması zəruri hesab edilir. R1 yenilikçilik, yaradıcı düşünmə və kompleks problem həll modulunu, R2 isə süni intellekt əsasları, davamlı inkişaf və emosional-intellekt bacarıqları modullarını əlavə etməyi təklif edir. Tədris nəticələrinin aydın ifadə olunması üçün R2 nəticələrin konkret meyarlarla və ölçülə bilən göstəricilərlə ifadə olunmasını və real bacarıqları əks etdirən fəaliyyət nümunələri ilə müşayiət edilməsini təklif edir. R9 da oxşar olaraq dəqiq meyarlar və qiymətləndirmə indikatorları müəyyən edilməsinin vacibliyini qeyd edir.

**2. Peşə bacarıqlarının gücləndirilməsi**

Mövcud kurikulum şagirdlərdə peşə bacarıqlarının formalaşmasına məhdud təsir göstərir və əsasən, nəzəri biliklərin mənimsənilməsinə yönəlmişdir. R9 qeyd edir ki, materiallar çox vaxt praktik həyatdan uzaqdır, əsas məqsəd test imtahanlarını keçmək olur, bu isə şagirdlərin müstəqil düşünmə və yaradıcı yanaşma bacarıqlarını məhdudlaşdırır. Bu vəziyyəti dəyişmək üçün R2 praktiki və peşə bacarıqlarının inkişafı üçün əlavə layihə, təcrübə və qiymətləndirmə mexanizmlərinə ehtiyac olduğunu bildirir. R8 isə yuxarı siniflərdə texniki və əmək bacarıqlarının verilməsini, məktəblərin müəssisələrlə birgə çalışmasını vacib hesab edir.

**3. Beynəlxalq təcrübədən yararlanma**

Yeni kurikulumun hazırlanmasında Finlandiya, Sinqapur və Kanada kimi qabaqcıl beynəlxalq təhsil modellərindən yararlanmaq məqsədəuyğundur. Lakin R1 qeyd edir ki, hansı modeldən istifadə edilməsindən asılı olmayaraq, ilk növbədə, Azərbaycan cəmiyyətinin tələblərini, resurs bazasını, təhsilverənlərin və təhsilalanların bu yeniliyə hazırlığını nəzərə almaq mütləqdir. R9 vurğulayır ki, bu təcrübələri olduğu kimi deyil, yerli reallıqları, sosial-mədəni xüsusiyyətləri və mövcud problemləri nəzərə alaraq uyğunlaşdırmaq vacibdir ki, beynəlxalq təcrübə milli kontekstə inteqrasiya olunsun. R8 də eyni fikri dəstəkləyərək, çox inkişaf etmiş üstün modelin götürülməsinin yerli imkansızlıqlar fonunda sadəcə nəticəsizliklə özünü göstərə biləcəyini bildirir.

## Nəticə / Conclusion

Aparılmış keyfiyyət təhlilinin nəticələri göstərir ki, Azərbaycanda tətbiq olunan mövcud kurikulum nəzəri baxımdan şagirdyönümlü və nəticəyönümlü yanaşmaya əsaslansa da, onun praktik icra mərhələsində bir sıra struktur və funksional problemlər mövcuddur. Xüsusilə kurikulumun məqsəd, məzmun və təlim nəticələri komponentləri arasında praktiki səviyyədə tam uyğunluq və balansın təmin olunmadığı müşahidə edilmişdir. Bu vəziyyət daha çox tətbiqi bacarıqların formalaşdırılması və həmin bacarıqların effektiv şəkildə qiymətləndirilməsi sahəsində özünü göstərir. Mütəxəssis rəyləri əsasında müəyyən edilmişdir ki, mövcud kurikulum çərçivəsində praktikyönümlülük, resurs təminatı və məzmunun müasir tələblərə uyğunluğu baxımından boşluqlar qalmaqdadır. XXI əsrin sürətlə dəyişən sosial, iqtisadi və texnoloji çağırışları fonunda kurikulumun yalnız konseptual səviyyədə deyil, eyni zamanda icra mexanizmləri baxımından da təkmilləşdirilməsi zəruri hesab olunur. Bu baxımdan, kurikulumun fəlsəfəsi ilə onun real tədris praktikası arasında daha güclü əlaqənin qurulması mühüm əhəmiyyət daşıyır.

**Praktik tövsiyələr**

Kurikulumun müasir təhsil tələblərinə uyğunlaşdırılması və effektivliyinin artırılması məqsədilə aşağıdakı əsas tövsiyələrin həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

**1. Kompetensiyaların sistemli inkişafı və praktikyönümlülüyün artırılması**

Tədris prosesində əsas diqqət praktik və həyati bacarıqların formalaşdırılmasına yönəldilməlidir. Tənqidi düşünmə, yaradıcılıq, problem həlletmə və əməkdaşlıq kimi əsas kompetensiyaların inkişafı sistemli, ardıcıl və real həyatla əlaqəli fəaliyyətlər vasitəsilə təmin olunmalıdır. Bununla yanaşı, kurikuluma rəqəmsal savadlılıq, süni intellekt əsasları, emosional zəka və davamlı inkişaf kimi müasir və həyati əhəmiyyətli mövzuların inteqrativ şəkildə daxil edilməsi tövsiyə olunur.

**2. Qiymətləndirmə sisteminin yenidən qurulması**

Qiymətləndirmə sistemi vahid və şəffaf mexanizm əsasında, prosesyönümlü və praktik bacarıqları ölçən formada yenidən təşkil edilməlidir. Qiymətləndirmənin əsas məqsədi yalnız bilik səviyyəsini müəyyənləşdirmək deyil, eyni zamanda şagirdin fərdi inkişaf dinamikasını izləmək və öyrənməyə motivasiyasını gücləndirmək olmalıdır. Təlim nəticələrinin aydın, ölçülə bilən və konkret meyarlar və indikatorlarla ifadə edilməsi məzmun, standartlar və qiymətləndirmə arasında uyğunluğun təmin edilməsinə xidmət edəcəkdir.

**3. Müəllim hazırlığının gücləndirilməsi və tətbiqi bacarıqların inkişafı**

Mütəxəssis rəylərinə əsasən, kurikulumun effektiv tətbiqi birbaşa müəllimin peşəkar hazırlıq səviyyəsi ilə bağlıdır (R9). Bu səbəbdən pedaqoji kadrların hazırlanması və ixtisasartırma proqramları daha praktik, tətbiqyönümlü və davamlı peşəkar inkişaf modeli əsasında qurulmalıdır. Kurikulumda layihə əsaslı öyrənmə, praktik fəaliyyətlər və əmək bazarının tələblərinə uyğun məzmunun artırılması, eləcə də məktəblərlə istehsalat və xidmət müəssisələri arasında əməkdaşlığın genişləndirilməsi tövsiyə olunur.

**4. Beynəlxalq təcrübənin kontekstləşdirilmiş tətbiqi**

Finlandiya, Sinqapur və Kanada kimi inkişaf etmiş dövlətlərin qabaqcıl təhsil sistemlərinin kurikulum modellərindən yararlanmaq məqsədəuyğundur. Lakin bu təcrübələrin mexaniki şəkildə transfer edilməsi deyil, Azərbaycan təhsil sisteminin sosial-mədəni xüsusiyyətləri, mövcud resursları və iştirakçıların hazırlıq səviyyəsi nəzərə alınmaqla kontekstləşdirilmiş formada tətbiqi daha səmərəli nəticələr verə bilər [ R1].

**Etik məsələlər**

Tədqiqatın aparılması zamanı etik prinsiplərə ciddi şəkildə riayət edilmişdir. Məlumatların toplanması prosesində iştirak edən mütəxəssislərin anonimliyi və məxfiliyi tam şəkildə qorunmuşdur. Anket sorğuları zamanı iştirakçılardan şəxsi məlumatlar, ad-soyad və ya vəzifə məlumatları tələb edilməmiş, cavablar yalnız elmi məqsədlər üçün istifadə edilmişdir. İştirakçılar tədqiqatın məqsədi barədə əvvəlcədən məlumatlandırılmış və sorğuda könüllü əsaslarla iştirak etmişlər. Toplanan məlumatlar yalnız ümumiləşdirilmiş formada təhlil edilmiş, fərdi cavabların konkret şəxslərlə əlaqələndirilməsinə yol verilməmişdir. Bu yanaşma tədqiqatın etik çərçivədə və akademik dürüstlük prinsiplərinə uyğun şəkildə aparılmasını təmin etmişdir.

**Məqalənin aktuallığı.** Bu tədqiqatın aktuallığı Azərbaycan təhsil sisteminin qlobal çağırışlar qarşısında sürətlə inkişaf etməsi zərurətindən irəli gəlir. XXI əsrdə rəqəmsallaşma, innovasiya və davamlı inkişaf kimi amillər təhsil proqramlarının yenidən qurulmasını tələb edir. Azərbaycanda mövcud kurikulumun effektivliyini qiymətləndirmək və təkmilləşdirmək, şagirdlərin müasir əmək bazarına uyğunlaşmasını təmin etmək baxımından strateji əhəmiyyət daşıyır. Beynəlxalq təcrübə göstərir ki, kurikulum islahatları təhsilin keyfiyyətini yüksəldərək milli inkişafı dəstəkləyir, lakin yerli kontekstdə bu prosesin mütəxəssis rəylərinə əsaslanan təhlili hələ də kifayət qədər aparılmayıb. Bu baxımdan, tədqiqat aktual problemlərin həllinə töhfə verərək təhsil siyasətinin formalaşmasına kömək edir.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi Azərbaycanda kurikulum islahatlarının mütəxəssis rəylərinə əsaslanan keyfiyyət təhlilindən ibarətdir. Əv-

vəlki tədqiqatlarda, əsasən, kurikulumun nəzəri aspektlərindən bəhs edilsə də, tematik analiz üsulu ilə aparılan bu tədqiqatda mütəxəssislərin praktik tövsiyələri sistemləşdirilir və yeni inkişaf istiqamətləri təklif olunur. Xüsusilə qiymətləndirmə sisteminin yenilənməsi və beynəlxalq təcrübənin milli kontekstə uyğunlaşdırılması kimi məsələlərə yeni baxış bucağı gətirilir. Bu yanaşma təhsildə kurikulumun təhlilinin empirik əsaslarını zənginləşdirərək, gələcək araşdırmalara metodoloji nümunə təqdim edir.

**Məqalənin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti təhsil siyasətinin formalaşmasına və kurikulum islahatlarına töhfə verməkdən ibarətdir. Təklif olunan tövsiyələrin (praktik bacarıqların gücləndirilməsi, qiymətləndirmə sisteminin yenilənməsi və müəllim hazırlığının təkmilləşdirilməsi) təhsil müəssisələri tərəfindən birbaşa tətbiq olunması məqsədəuyğun hesab olunur. Bu, şagirdlərin əmək bazarına uyğunlaşmasını asanlaşdıracaq və təhsilin keyfiyyətini yüksəldəcək. Həmçinin tətqiqatın nəticələri pedaqoji kadrların ixtisasartırma proqramlarında istifadə olunaraq, milli təhsil sisteminin ümumi inkişafına praktik dəstək göstərə bilər.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Həsənov M., Cəfərova N., Bəhmənova N. (2014). İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yolları. Bakı: "Elm və təhsil", 72 s.
2. Azərbaycan Respublikası Təhsil İnstitutu. Kurikulum. https://www.arti.edu.az/az/page/24-kurikulum
3. "Azərbaycan müəllimi" qəzeti. (2014). 14 noyabr.
4. Azərbaycan Respublikası "Təhsil haqqında" Qanunu. (2002). 8 fevral.
5. Azərbaycan Respublikası "Təhsil haqqında" Qanun. (2009). 19 iyun. (Maddə 10).
6. Azərbaycan Respublikası Təhsil İnstitutu. (2023). Ümumi təhsil üzrə kurikulum sənədləri.
7. Kurikulum haqqında məqalə. (2022). Elm.info.az.
8. Kurikulum nədir? (2023). Landau school.
9. Kurikulumun tarixi və mahiyyəti. (2021). Ens.az.
10. Prideaux, D. (2003). ABC of learning and teaching in medicine: Curriculum design. BMJ, 326(7383), 268–270.

# EVALUATION OF CURRICULUM QUALITY AND ITS INTERNATIONAL ALIGNMENT

**Graduate Students, SABAH groups, Azerbaijan State Pedagogical University**

**Narmin Abdurahimova**
a.narrminn@gmail.com, https://orcid.org/0009-0005-1021-2562
**Madina Huseynzade**
medinehuseynzade89@gmail.com, https://orcid.org/0009-0008-1366-5059
**Sevil Gafarova**
sevilqafarova1@gmail.com, https://orcid.org/0009-0008-2136-2496
**Madina Mammadova**
madinammdva7@gmail.com, https://orcid.org/0009-0009-1992-5859
**Fatima Rahimova**
fatime.rehimova29@gmail.com, https://orcid.org/0009-0000-9558-7307
**Ulkar Safarli**
ulker.seferli.2003@gmail.com, https://orcid.org/0009-0007-1514-8410

**Abstract.** This article provides a comparative analysis of the quality of curricula and their alignment with international standards based on the experiences of various countries. The main objective of the study is to determine the level of alignment between Azerbaijan's general education curriculum and international educational standards, to identify existing challenges, and to define directions for improvement. Within the framework of the research, the impact of the curriculum on the development of knowledge, skills, and competencies, its responsiveness to labor market demands, the implementation of interdisciplinary integration, the balance between theoretical and practical components, the integration of social justice and inclusivity principles, as well as quality assurance and monitoring mechanisms are analyzed. The responses of the participants indicate that modern curriculum models are oriented toward digitalization, experiential learning, and the development of global competencies. The article compares Azerbaijan's curriculum with international practices, identifies its strengths and areas requiring improvement, and presents scientifically grounded recommendations for organizing curricula in a more flexible, practice-oriented manner aligned with global trends.

**Keywords:** teaching program, curriculum, quality, alignment with international standards, educational reforms.

**DOI:** 10.30546/2709-2488.2026.002.507873
**To cite this article:** Evaluation of curriculum quality and its international alignment. *Journal of Preschool and Primary Education*, Special issue – "Master's research", pp. 97-118.
**Article history:** received – 10.04.2026; accepted – 04.05.2026.

# TƏDRİS PROQRAMININ KEYFİYYƏTİ VƏ BEYNƏLXALQ UYĞUNLUĞUNUN QİYMƏTLƏNDİRİLMƏSİ

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, SABAH qrupu magistrantları**

**Nərmin Abdurəhimova**
a.narrminn@gmail.com, https://orcid.org/0009-0005-1021-2562
**Mədinə Hüseynzadə**
medinehuseynzade89@gmail.com, https://orcid.org/0009-0008-1366-5059
**Sevil Qafarova**
sevilqafarova1@gmail.com, https://orcid.org/0009-0008-2136-2496
**Mədinə Məmmədova**
madinammdva7@gmail.com, https://orcid.org/0009-0009-1992-5859
**Fatimə Rəhimova**
fatime.rehimova29@gmail.com, https://orcid.org/0009-0000-9558-7307
**Ülkər Səfərli**
ulker.seferli.2003@gmail.com, https://orcid.org/0009-0007-1514-8410

**Annotasiya.** Bu məqalədə tədris proqramlarının keyfiyyəti və beynəlxalq standartlara uyğunluğu müxtəlif ölkələrin təcrübələri əsasında müqayisəli təhlil olunur. Tədqiqatın əsas məqsədi Azərbaycanın ümumtəhsil kurikulumunun beynəlxalq təhsil standartları ilə uyğunluq səviyyəsini müəyyən etmək, mövcud problemləri üzə çıxarmaq və təkmilləşdirmə istiqamətlərini müəyyənləşdirməkdir. Araşdırma çərçivəsində kurikulumun bilik, bacarıq və kompetensiyaların formalaşdırılmasına təsiri, əmək bazarının tələblərinə cavab vermə səviyyəsi, fənlərarası inteqrasiyanın tətbiqi, nəzəri və praktik komponentlər arasında balans, sosial ədalət və inklüzivlik prinsiplərinin inteqrasiyası, eləcə də keyfiyyət təminatı və monitorinq mexanizmləri təhlil edilmişdir. Respondentlərin cavabları göstərir ki, müasir kurikulum modelləri rəqəmsallaşma, təcrübə əsaslı öyrənmə və qlobal bacarıqların inkişafına yönəlmişdir. Məqalədə Azərbaycan kurikulumu beynəlxalq təcrübə ilə müqayisə edilərək onun güclü tərəfləri və inkişaf etdirilməli istiqamətləri müəyyən edilmiş, tədris proqramlarının daha çevik, praktik yönümlü və qlobal trendlərə uyğun şəkildə təşkili üçün elmi əsaslandırılmış tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** ümumtəhsil, tədris proqramı, kurikulum, keyfiyyət, beynəlxalq standartlara uyğunluq, təhsil islahatları.

**DOI:** 10.30546/2709-2488.2026.002.507873
**Məqaləyə istinad:** Tədris proqramının keyfiyyəti və beynəlxalq uyğunluğunun qiymətləndirilməsi. «*Məktəbəqədər və ibtidai təhsil*», Xüsusi buraxılış – "Magistr tədqiqatları", səh. 97-118.
**Məqalə tarixçəsi:** göndərilib – 10.04.2026; qəbul edilib – 04.05.2026.

## Giriş / Introduction

Təhsil sistemləri müasir dövrdə cəmiyyətin və fərdlərin inkişafını təmin edən ən vacib sahələrdən biridir. Bu inkişaf yalnız nəzəri biliklərlə məhdudlaşmır, həm də tələbələrin həyatda qarşılaşacaqları müxtəlif çətinlikləri aşmaq üçün onlarda praktik bacarıqları inkişaf etdirmək məqsədi daşıyır. Tədris proqramlarının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir təhsil sistemlərində əsas prioritetlərdən birinə çevrilmişdir. Təhsil islahatları çərçivəsində kurikulumun keyfiyyəti və beynəlxalq uyğunluğu, həm tələbələrin uğurlu gələcəyinə, həm də cəmiyyətin inkişafına töhfə verəcək əsas amillərdən biridir [Adilah, N., 2023].

Beynəlxalq təcrübə, kurikulum islahatlarının yalnız tədris məzmununu deyil, həm də müəllimlərin peşəkar inkişafını və tədris metodlarını yeniləməyi hədəflədiyini göstərir. Çexiya Respublikasında aparılan təhsil tədqiqatları göstərir ki, kurikulum islahatlarının uğurlu tətbiqi yalnız müəllimlərin peşəkar inkişafı ilə mümkündür və bu inkişaf tələbələrə tətbiqi bacarıqlar qazandırmaq üçün vacibdir [Hasnul, N., 2011]. Tədris proqramları tələbələrin yalnız nəzəri biliklərini deyil, həm də sosial və praktiki bacarıqlarını inkişaf etdirməyə yönəlməlidir. Bu yanaşmalar tədrisin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin gələcək həyatlarına daha yaxşı hazır olmalarını təmin edir [Wulandari, Y., 2025].

Azərbaycan təhsil sistemində kurikulum islahatları, əsasən, tədris metodlarının inkişafı və şagirdyönümlü yanaşmanın tətbiqinə yönəlmişdir. Lakin bu dəyişikliklərin müəllimlər tərəfindən necə qəbul edildiyi və bu islahatların tədris prosesində necə tətbiq olunduğu hələ də geniş müzakirə olunur. Müəllimlərin kurikulum dəyişikliklərinə uyğunlaşması və bu islahatların peşəkar inkişafla əlaqələndirilməsi tədris proqramlarının effektivliyini artırır. Lakin respondentlərin verdiyi cavablara əsasən, tədris proqramlarının dəyişdirilməsi prosesində bəzi çətinliklər mövcuddur. Məsələn, müəllimlərə verilən təlimlər və dəstək mexanizmlərinin olmaması, onların dəyişiklikləri tətbiq etmələrini çətinləşdirir.

Beynəlxalq təcrübə, müəllimlərin kurikulum islahatlarına uyğunlaşmasında ən mühüm amillərdən birinin onlara mütəmadi təlim və dəstək verilməsi olduğunu göstərir. ABŞ və Böyük Britaniyada həyata keçirilən tədris islahatları müəllimlərin tədris metodlarını və bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Bu yanaşmalar müəllimlərin peşəkar inkişafına və tədris keyfiyyətinə müsbət təsir göstərir [Hasnul, N., 2011]. Azərbaycanda isə müəllimlərə verilən təlimlər və resurslar hələ də məhduddur və bu da kurikulum islahatlarının effektiv tətbiqini əngəlləyir. Bu məsələlərə diqqət yetirilməklə, tədris proqramlarının keyfiyyəti və beynəlxalq uyğunluğu artırıla bilər [Wulandari, Y., 2025].

Tədqiqatın məqsədi, Azərbaycanın ümumtəhsil kurikulumunun beynəlxalq

təhsil sistemləri ilə uyğunluğunu qiymətləndirmək və bu sahədəki problemləri təhlil edərək, təkmilləşdirmə üçün təkliflər irəli sürməkdir. Tədqiqat beynəlxalq təcrübələrə əsaslanaraq, Azərbaycanın təhsil sistemindəki kurikulum islahatlarının müəllimlərə və tələbələrə təsirini analiz edir, həmçinin bu islahatların təhsil keyfiyyətinə olan təsirini qiymətləndirir.

**Problemin qoyuluşu**

Müasir dövrdə, qloballaşma, rəqəmsallaşma və əmək bazarının sürətlə dəyişən tələbləri təhsil sistemlərinin və kurikulumların yenidən nəzərdən keçirilməsini zəruri edir. Bir çox ölkələrdə tədris proqramları beynəlxalq standartlara uyğunlaşdırılsa da, bu uyğunluğun real tətbiq səviyyəsi və effektivliyi mübahisəli olaraq qalır. Xüsusilə Azərbaycan təhsil sistemində kurikulum islahatlarının beynəlxalq təcrübə ilə nə dərəcədə səsləşdiyi, nəzəri biliklərlə praktik bacarıqlar arasında balansın hansı səviyyədə təmin olunduğu və əmək bazarı ilə əlaqənin nə qədər güclü olduğu elmi təhlil tələb edən məsələlərdəndir. Problemin mahiyyəti ondan ibarətdir ki, kurikulumun beynəlxalq uyğunluğu ilə onun yerli sosial-mədəni kontekstə adaptasiyası arasında optimal tarazlığın necə qurulması hələ də aktual elmi və praktik sual olaraq qalır.

**Metodologiya**

Tədqiqatda keyfiyyətə əsaslanan yanaşma tətbiq edilmişdir. Müxtəlif ölkələri təmsil edən respondentlərin cavabları müqayisəli və təsviri təhlil üsulu ilə araşdırılmışdır. Məlumatların toplanması zamanı sorğu metodundan istifadə edilmiş, əldə olunan nəticələr tematik analiz vasitəsilə sistemləşdirilmişdir, həmçinin beynəlxalq elmi ədəbiyyatın təhlili aparılmış, kurikulumun keyfiyyəti, beynəlxalq uyğunluq, fənlərarası inteqrasiya, inklüzivlik və əmək bazarı ilə əlaqə kimi meyarlar əsasında müqayisəli qiymətləndirmə həyata keçirilmişdir.

## Əsas hissə / Main Part

**Tədris proqramları və kurikulum islahatlarının təhlili**

**Sual 1. Kurikulum tələbələrin bilik, bacarıq və kompetensiyalarının inkişafına necə kömək edir?**

Bu sualın məqsədi kurikulumun tələbələrin bilik, bacarıq və kompetensiyalarının formalaşmasında və inkişafında rolunu müəyyənləşdirmək, təlim prosesinin nə dərəcədə tələbəyönümlü, tətbiqyönümlü və kompetensiya əsaslı qurulduğunu qiymətləndirməkdir.

R5 – Kurikulum strukturlaşdırılmış öyrənməni təmin etməklə şagirdlərdə bilik, bacarıq və kompetensiyaları inkişaf etdirməyə kömək edir, müxtəlif fənlər

üzrə əsas bilikləri formalaşdırır, problem həlli və kommunikasiya kimi praktiki bacarıqları gücləndirir və tənqidi düşüncə, yaradıcılıq və komanda işi kimi kompetensiyaları inkişaf etdirir.

R7 – Kurikulum öyrənmə üçün strukturlaşdırılmış çərçivə təmin etməklə şagirdlərin bilik, bacarıq və kompetensiyalarını inkişaf etdirməkdə həyati rol oynayır. Tələbələrin nə öyrənməli olduğunu müəyyən edir, əsas bacarıq və kompetensiyaları inkişaf etdirməyə kömək edir və akademik konsepsiyaları real dünya tətbiqləri ilə bağlayır. Beləliklə, kurikulum akademik, karyera və ondan kənar uğur üçün hərtərəfli təhsil təmin edir.

R10 – Kurikulum tələbələrə tənqidi düşünməyi, problemləri həll etməyi və riyazi rəqəmlərdən real vəziyyətlərdə istifadə etməyi öyrədir. Rəqəmlərlə işləmək özünəinam formalaşdırır, məlumatları təhlil etməyi öyrədir və fikirlərini aydın ifadə etməyə kömək edir.

Müxtəlif ölkələrdən olan respondentlərin cavabları göstərir ki, kurikulumun əsas funksiyası yalnız bilik ötürmək deyil, eyni zamanda tələbələrdə tənqidi düşünmə, problem həlletmə, yaradıcılıq, müstəqil öyrənmə və praktik tətbiq bacarıqlarını formalaşdırmaqdır.

Bir çox ölkələrdə (İtaliya, Kanada və Böyük Britaniya) kurikulum nəzəri biliklə praktik tətbiqin əlaqələndirilməsi üzərində qurulub. ABŞ və Almaniya kimi ölkələrdə isə laboratoriya işi, layihələr, tədqiqat və istehsalat təcrübələri ön plana çıxır.

Asiya ölkələri üzrə respondentlərdən (Cənubi Koreya və Filippin) alınan cavablarda strukturlaşdırılmış və mərhələli təlimin biliklərin möhkəmlənməsində mühüm rol oynadığı vurğulanır. Azərbaycan və Qana Respublikası üzrə keçirilən sorğunun nəticələri göstərir ki, iştirakçılar kurikulumun problem həllinə və tənqidi düşünməyə töhfə verdiyini qeyd etsə də, praktik tətbiqin artırılmasının vacibliyini qeyd edirlər.

Ümumilikdə, cavablar kurikulumun tələbələri ömürboyu öyrənən, çevik və cəmiyyətə faydalı fərdlər kimi formalaşdırmaq məqsədi daşıdığını göstərir.

**Sual 2. Kurikulum məzmunu əmək bazarının tələblərinə nə dərəcədə cavab verir?**

Bu sualın məqsədi kurikulum məzmununun əmək bazarının mövcud və gələcək tələblərinə uyğunluq səviyyəsini araşdırmaq, təhsil və məşğulluq arasında əlaqənin nə dərəcədə təmin olunduğunu və kurikulumun praktiki bacarıqların formalaşdırılmasına xidmət edib-etmədiyini müəyyən etməkdir.

R1 – Kurikulum əmək bazarının ehtiyaclarına uyğunlaşır, sənaye tərəfindən tələb olunan bacarıq və kompetensiyaları daxil edir, lakin davamlı yeniləmələr və sənaye tərəfdaşlıqları tələb edir.

R7 – Kompüter elmləri kurikulumunun məzmunu tez inkişaf edən əmək

bazarının tələbləri ilə ayaqlaşmaqda çox vaxt çətinlik çəkir, bu da tələbələrin öyrəndikləri ilə işəgötürənlərin tələb etdiyi bacarıqlar arasında boşluq yaradır. Lakin bir çox qurumlar indi sənaye xüsusi kursları, layihələri və sertifikatları daxil edərək bu boşluğu aradan qaldırır, süni intellekt (Sİ), kibertəhlükəsizlik və informasiya elmi kimi tələb olunan sahələrə diqqət yetirir.

R11 – Yaxşıdır, lakin hələ də bir qədər nəzəriyyədir. Düşünürəm ki, həqiqətən işə başlayanda daha çox öyrənirsən. Lakin kurikulum əsas biliklərin formalaşdırılması üçün faydalıdır.

Cavabların böyük əksəriyyətində kurikulumun əmək bazarına ümumilikdə uyğun olduğu, lakin davamlı yenilənməyə ehtiyac duyduğu qeyd olunur. ABŞ, İtaliya və Böyük Britaniyada sənaye nümayəndələrinin iştirakı, məsləhət şuraları və ixtisaslaşmış proqramlar vasitəsilə bu uyğunluq gücləndirilir.

Kanada və Cənubi Koreya kimi ölkələrdə kurikulumun əsas üstünlüyü ötürülə bilən bacarıqların (problem həlletmə, əməkdaşlıq, adaptasiya) inkişaf etdirilməsidir. Almaniya və Qana Respublikası üzrə aparılan sorğuda isə nəzəri biliklərin üstünlük təşkil etdiyi, real iş mühiti təcrübəsinin isə nisbətən məhdud olduğu vurğulanır.

Azərbaycan və Filippindən olan iştirakçıların cavabları kurikulumun aktual mövzuları əhatə etdiyini, lakin müasir əmək bazarı trendlərinə uyğunlaşma baxımından təkmilləşdirilməsinin vacib olduğunu göstərir.

Nəticə etibarilə, kurikulumun əmək bazarına uyğunluğu onun sənaye ilə əməkdaşlıq səviyyəsindən və çevik yenilənmə mexanizmlərindən birbaşa asılıdır.

**Sual 3. Kurikulumda fənlərin ardıcıllığı və koordinasiyası öyrənmə prosesini necə asanlaşdırır?**

Bu sualın məqsədi kurikulumda fənlərin ardıcıllığının və qarşılıqlı əlaqəsinin öyrənmə prosesinə təsirini dəyərləndirmək, biliklərin mərhələli şəkildə mənimsənilməsinin, məntiqi əlaqələndirmənin və təlimin səmərəliliyinin necə təmin edildiyini müəyyənləşdirməkdir.

R2 – Kurikulum hər fənn sahəsində əsas konsepsiyalar, faktlar və prinsiplər haqqında tələbələrin anlayışını qurmaq üçün nəzərdə tutulub. Öyrənmənin mütərəqqi olmasını təmin edir, əsas biliklərdən başlayaraq tədricən daha mürəkkəb ideyalara keçir. Məsələn, elm dərslərində tələbələr əvvəlcə dünya haqqında əsas müşahidələri öyrənirlər, sonra enerji, genetika və ya ekosistemlər kimi dərin mövzulara keçirlər. Bu sistemli yanaşma tələbələrə fənlərarası tətbiq oluna bilən güclü konseptual baza inkişaf etdirməyə kömək edir.

R6 – Kurikulumdakı fənlərin ardıcıllığı və koordinasiyası tələbələrin əsasdan daha mürəkkəb konsepsiyalara məntiqi şəkildə irəliləməsini təmin etməklə effektiv öyrənməni asanlaşdırmaqda mühüm rol oynayır.

R12 – İtaliyada fənn ardıcıllığı təməl konsepsiyalardan qabaqcıl tətbiqlərə

qədər mütərəqqi inkişafı dəstəkləyən spiral və şaquli uyğunlaşdırılmış modelə əsaslanır. Fənlərarası koordinasiya STEAM, humanitar və tətbiqi elmlər arasında ardıcıllığı təmin edir.

Demək olar ki, bütün ölkələr üzrə fənlərin ardıcıllığı "sadədən mürəkkəbə" prinsipi əsasında qurulub. Filippin və İtaliya cavablarında spiral yanaşma – yəni mövzuların getdikcə dərinləşdirilərək təkrar edilməsi xüsusi vurğulanır.

ABŞ, Kanada və Azərbaycan təcrübəsinə dair cavablar göstərir ki, fənlərin məntiqi ardıcıllıqla təşkili biliklərin mərhələli şəkildə formalaşmasına şərait yaradır. Qana Respublikasından olan sorğu iştirakçılarının cavablarında isə scaffoldinq (pilləli dəstək) yanaşması ilə tələbələrin əvvəlki biliklər üzərində yeni biliklər əldə etmələri qeyd olunur.

Almaniya və Ukraynadan olan respondentlər bu ardıcıllığın bəzən müəllimdən asılı olduğunu və akkreditasiya tələbləri ilə müəyyənləşdirildiyini bildirirlər.

Ümumilikdə, fənlərin düzgün ardıcıllığı və koordinasiyası tələbələrdə daha dərin anlayış, biliklərarası əlaqə qurma və öyrənmənin davamlılığını təmin edir.

**Sual 4. Kurikulumun nəzəri biliklərlə yanaşı praktik bacarıqları təmin etməsi**

Bu sualın verilməsində əsas məqsəd ali təhsil müəssisələrində tətbiq edilən kurikulumların nəzəri biliklə praktik bacarıqlar arasında balans yaradıb-yaratmadığını müəyyən etməkdir, çünki müasir ali təhsildə məzunların əmək bazarına hazır olması biliklərin real situasiyalarda tətbiq olunması ilə birbaşa əlaqəlidir.

R1 – Kurikulum nəzəri biliklərlə praktik bacarıqlar arasında balans yaradır. Praktik fəaliyyətlər və istehsalat təcrübələri (stajlar) bu prosesə daxil edilmişdir.

R6 – Kurikulum tələbələrə həm nəzəri biliklər, həm də praktik bacarıqlar təqdim edir və bu da onlarda balanslı və hərtərəfli öyrənmə təcrübəsi yaradır.

R9 – Kurikulum nəzəri biliklərin praktik tətbiqini nəzərdə tutur. Tələbələr əvvəl nəzəri bilikləri mənimsəməli, daha sonra onlarda praktik bacarıqlar formalaşdırılmalıdır.

Respondentlərin cavablarının təhlili göstərir ki, bütün iştirakçılar kurikulumun nəzəri biliklərlə yanaşı, praktik bacarıqları da əhatə etdiyini, xüsusilə laboratoriya işləri, layihə əsaslı öyrənmə, real həyat nümunələri, təcrübə proqramları və staj imkanlarının praktik bacarıqların formalaşmasında əsas vasitə olduğunu vurğulamışlar. ABŞ, İtaliya, Kanada, Cənubi Koreya və Almaniya kimi ölkələri təmsil edən respondentlərin cavablarında kurikulumun əmək bazarının tələblərinə uyğunlaşdırılması və işə hazırlıq aspekti ön plana çıxır.

Bununla yanaşı, humanitar sahələrdə, xüsusilə onlayn təhsil dövründə praktik bacarıqların formalaşdırılmasının daha çətin olduğunu və pandemiya, eləcə də müharibə kimi qlobal faktorların tələbələrin sosial bacarıqlarına mənfi təsir etdiyi qeyd olunur.

Demək olar ki, respondentlərin böyük əksəriyyəti kurikulumun nəzəri və praktik komponentlər arasında balans yaratdığını düşünür. Lakin bu balansın ixtisasdan, tədris formasından (ənənəvi və ya onlayn) və sosial kontekstdən asılı olaraq dəyişə bildiyi də müşahidə olunur.

**Sual 5. Fənlərarası inteqrasiyanın (interdisciplinary integration) tətbiqi**

Bu sualın məqsədi fənlərarası inteqrasiyanın kurikulumda necə həyata keçirildiyini və biliklərin müxtəlif fənlər arasında əlaqələndirilmə səviyyəsini müəyyən etməkdir. Müasir təhsildə fənlərarası yanaşma tələbələrdə kompleks düşünmə və problem həlletmə bacarıqlarının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Respondentlərdən bir neçəsinin cavablarını aşağıda qeyd etmək olar:

R1 – Kurikulum biliklərin müxtəlif fənlər arasında tətbiqini təşviq edir və bu da bütöv anlayışın formalaşmasına və problem həlletmə bacarıqlarının inkişafına xidmət edir.

R8 – Fənlərarası inteqrasiya müxtəlif sahə və baxış bucaqlarını əlaqələndirən birgə layihələr və tapşırıqlar vasitəsilə həyata keçirilir.

R9 – Yeni standartlara əsaslanan kurikulum müxtəlif pedaqoji yanaşma və fənlərin ideyalarını birləşdirən öyrənmə sahələrinə malikdir. Kurikulumdakı əksər öyrənmə sahələri bir-biri ilə oxşarlıq təşkil edən istiqamət və alt-istiqamətlərdən ibarətdir.

R13 – Fənlərarası inteqrasiya yalnız bir təhsil proqramı çərçivəsində həyata keçirilir. Məsələn, beynəlxalq biznes proqramında beynəlxalq marketinq fənni.

Respondentlərin cavablarına əsasən, fənlərarası inteqrasiya, layihə əsaslı öyrənmə, tematik tapşırıqlar, birgə layihələr və müxtəlif fənn biliklərinin real həyat problemlərinə tətbiqi yolu ilə həyata keçirilir. İtaliya, Cənubi Koreya və Kanadadan olan respondentlərin cavablarına görə fənlərarası inteqrasiyanın riyaziyyat, elm, texnologiya, sosial elmlər və dil bacarıqları arasında əlaqə qurmaqla təmin edildiyi vurğulanır.

Texniki sahələri təmsil edən respondentlər (xüsusilə ABŞ) riyaziyyat və fizika biliklərinin mühəndislik fənlərində tətbiq olunmasını fənlərarası inteqrasiyanın bariz nümunəsi kimi göstərirlər. Almaniya və İtaliya respondentləri isə sosial iş və humanitar sahələrdə psixologiya, sosiologiya və STEAM-humanitar inteqrasiyasının geniş tətbiq edildiyini qeyd edirlər.

Bununla yanaşı, bəzi hallarda fənlərarası inteqrasiyanın yalnız eyni təhsil proqramı çərçivəsində məhdud qaldığı və daha geniş miqyasda tətbiq olunmadığı göstərilir. Nəticə etibarilə, respondentlərin əksəriyyəti fənlərarası inteqrasiyanın kurikulumun mühüm tərkib hissəsi olduğunu və tələbələrdə bütöv və əlaqəli düşünmə bacarıqlarını inkişaf etdirdiyini düşünür. Lakin bu inteqrasiyanın dərinliyi və sistemliliyi təhsil proqramından və ölkənin təhsil siyasətindən asılı olaraq fərqlənir.

**Sual 6. Kurikulumun effektivliyinin (keyfiyyətinin) monitorinqi**

Bu sual ali təhsil müəssisələrində kurikulumun keyfiyyətinə nəzarət mexanizmlərini və davamlı təkmilləşdirmə proseslərinin mövcudluğunu müəyyən etmək məqsədi daşıyır. Bəzi respondentlərin cavablarını təqdim edirəm:

R2 – İtaliyada fəaliyyət göstərdiyim universitetdə kurikulumun effektivliyi mütəmadi qiymətləndirmələr, tələbə rəyləri və keyfiyyət təminatı yoxlamaları vasitəsilə monitorinq olunur. Professorlar, akademik komitələr və xarici mütəxəssislər dərs məzmununu, tədris metodlarını və öyrənmə nəticələrini milli və Avropa təhsil standartlarına uyğunluq baxımından qiymətləndirirlər. Həmçinin tələbə sorğuları və akademik nəticələr davamlı təkmilləşdirmə üçün istifadə olunur.

R5 – Universitetimizdə kurikulumun effektivliyi müxtəlif metodların kombinasiyası vasitəsilə izlənilir. Bunlara tələbə və müəllimlərdən alınan müntəzəm rəylər, qiymətləndirmə nəticələri, fənlər üzrə qiymətləndirmələr və dövri kurikulum icmalları daxildir. Bundan əlavə, məzunların nailiyyətləri və işəgötürənlərin rəyləri kurikulumun aktual və keyfiyyətli qalmasını təmin etmək üçün nəzərə alınır.

R8 – Kurikulumun keyfiyyəti mütəmadi qiymətləndirmələr, fənn icmalları və tələbə-müəllim rəyləri vasitəsilə monitorinq olunur.

R9 – Kurikulumun düzgün tətbiqinin təmin edilməsi üçün gündəlik olaraq yoxlama və nəzarət mexanizmləri mövcuddur. “School Improvement Assistant” adlanan nəzarətçilər müəllimlər və təhsilalanlara texniki, peşəkar və pedaqoji dəstək və təlimlər təqdim edirlər.

Respondentlərin cavablarının təhlili göstərir ki, kurikulumun effektivliyi, əsasən, çoxsəviyyəli qiymətləndirmə mexanizmləri vasitəsilə monitorinq olunur. Ən çox qeyd edilən vasitələrə tələbə rəyləri, dərs və müəllim qiymətləndirmələri, proqram icmalları, akademik komitələrin fəaliyyəti və məzunların nəticələrinin təhlili daxildir.

İtaliya və Almaniyanı təmsil edən respondentlər milli və institusional keyfiyyət təminatı qurumlarının (ANVUR, INVALSI və s.) rolunu vurğulayırlar. ABŞ və Kanada kimi ölkələrdə isə sənaye tərəfdaşlarının və əmək bazarının rəylərinin kurikulumun yenilənməsində mühüm rol oynadığı qeyd olunur.

R13 – Keyfiyyət təminatının tələbə, fakültə, universitet və milli akkreditasiya səviyyələrində çoxpilləli şəkildə həyata keçirildiyini göstərir.

Böyük Britaniyadan olan respondentin cavabı isə daha ümumi xarakter daşıyır və bu, bəzi respondentlərin monitorinq mexanizmləri haqqında detallı məlumata malik olmadığını göstərə bilər.

**Sual 7. Tədris proqramlarının təkmilləşdirilməsində tələbə rəyinə verilən əhəmiyyət**

Bu sual ali təhsil müəssisələrində tələbə rəyinin kurikulumun yenilənməsi və

tədris keyfiyyətinin artırılması prosesində hansı səviyyədə istifadə olunduğunu müəyyən etmək məqsədi daşıyır. Müasir ali təhsil mühitində tələbə rəyi keyfiyyət təminatının əsas informasiya mənbələrindən biri hesab olunur və tədris prosesinin tələbə mərkəzli təşkilinin göstəricisi kimi qiymətləndirilir.

R2 – Tələbə rəyi institusional səviyyədə sistemli şəkildə toplanaraq akademik komitələr tərəfindən təhlil edilir. Bu cavab tələbə rəyinin yalnız informativ deyil, həm də qərarvermə prosesinə təsir edən mexanizm kimi fəaliyyət göstərdiyini ortaya qoyur.

R4 – Tələbə rəyi kurikulumun güclü və zəif tərəflərinin müəyyən edilməsində əsas vasitələrdən biridir. Bu yanaşma tələbə iştirakçılığının keyfiyyət təminatı prosesinə inteqrasiya olunduğunu göstərir.

R6 – Tələbə rəyinin daha effektiv olması üçün onun dövri və izlənilə bilən mexanizmə çevrilməsi vacibdir. Bu fikir tələbə iştirakçılığının yalnız məlumat toplama mərhələsində deyil, nəticələrin tətbiqi mərhələsində də aktiv rol oynamasının zəruriliyini göstərir.

R7 – Tələbə rəyinin nəzərə alındığını, lakin dəyişikliklərin tətbiqinin zaman tələb etdiyini bildirir. Bu cavab iştirak mexanizmlərinin mövcud olduğunu, lakin institusional çevikliyin bəzən məhdud ola biləcəyini göstərir.

R9 – Tələbə rəyi mütəmadi şəkildə təhlil olunur və kurikulum yenilənməsində istifadə edilir. Bu yanaşma keyfiyyət təminatının davamlı xarakter daşıdığını göstərir.

R10 – Tələbə rəyinin hər zaman real dəyişikliklərə səbəb olmadığını vurğulayaraq, iştirakçılığın bəzi hallarda formal xarakter daşıya biləcəyini göstərir.

Ümumilikdə, təhlillər göstərir ki, tələbə rəyinin toplanması ali təhsil müəssisələrində geniş yayılmış praktikadır. Lakin bu rəyin kurikulumun yenilənməsinə təsir səviyyəsi institusional idarəetmə modelindən və qərarvermə mexanizmlərinin açıqlığından asılı olaraq dəyişir.

**Sual 8. Tələbə və məzunların tədris proqramlarının dizaynı və yenilənməsində iştirakı**

Bu sual ali təhsil müəssisələrində kurikulumun formalaşdırılması və yenilənməsi prosesində tələbə və məzunların iştirak səviyyəsini müəyyən etmək məqsədi daşıyır. Müasir ali təhsildə maraqlı tərəflərin iştirakı proqramların aktuallığını və əmək bazarına uyğunluğunu təmin edən əsas amillərdən biri hesab olunur.

R1 – Tələbə və məzunlar sorğular və akademik komitələr vasitəsilə proqram yenilənməsində iştirak edir. Bu cavab iştirakçılığın strukturlaşdırılmış mexanizmlər vasitəsilə həyata keçirildiyini göstərir.

R2 – Məzunların təcrübəsi kurikulumun əmək bazarı tələblərinə uyğunlaşdırılmasında istifadə olunur. Bu yanaşma təhsillə məşğulluq arasında əlaqənin gücləndirildiyini göstərir.

R4 – Tələbə və məzunların təcrübəsi proqram məzmununun yenilənməsi üçün əsas informasiya mənbələrindən biri hesab olunur.

R9 – Tələbə və məzunların real iş bacarıqları ilə bağlı rəylərinin proqramların yenilənməsində istifadə olunduğunu vurğulayır. Bu yanaşma praktikyönümlü təhsilin gücləndirilməsinə xidmət edir.

R10 – Tələbə nümayəndəliyi mövcuddur, lakin onların təsir imkanları məhdud ola bilər.

Ümumilikdə təhlillər göstərir ki, tələbə və məzun iştirakçılığı ali təhsil müəssisələrində mövcud olsa da, onun qərarvermə prosesinə təsiri və institusional göstəricisi, universitetlər arasında fərqlənir.

**Sual 9. Beynəlxalq təcrübə ilə müqayisədə tələbə iştirakçılığının səviyyəsi**

Bu sual tələbə iştirakçılığının beynəlxalq ali təhsil təcrübələri ilə müqayisədə hansı səviyyədə olduğunu müəyyən etmək məqsədi daşıyır. Tələbə iştirakçılığı müasir ali təhsil sistemində demokratik idarəetmə və keyfiyyət təminatının əsas göstəricilərindən biri hesab olunur.

R1 – Tələbə iştirakçılığını orta səviyyədə qiymətləndirmək olar və mövcud mexanizmlərin inkişaf etdirilməsi mümkündür.

R3 – İştirakçılıq strukturlaşdırılmış və sistemli xarakter daşıyır və tələbələrin qərarvermə prosesinə inteqrasiya olunduğunu bildirir.

R4 – Mövcud tələbə iştirakçılığının, lakin beynəlxalq qabaqcıl təcrübə ilə müqayisədə genişləndirilməsinin vacibliyini qeyd etmək olar.

R7 – İştirak səviyyəsini orta qiymətləndirir və iştirak imkanlarının artırılmasını vacib hesab edirəm.

R9 – Tələbə iştirakçılığının fəal və təşviq olunan proses olduğunu vurğulamaq olar.

Tələbə iştirakçılığı əksər hallarda orta və ya orta-yüksək səviyyədə qiymətləndirilir və onun effektivliyi daha çox institusional idarəetmə modelindən asılıdır.

**Sual 10. Kurikulumda sosial ədalət, gender bərabərliyi və inklüzivlik kimi prinsiplər nə dərəcədə nəzərə alınır?**

Bu sualın məqsədi kurikulumun yalnız akademik biliklərin ötürülməsi ilə kifayətlənməyib, eyni zamanda sosial ədalət, gender bərabərliyi və inklüzivlik kimi universal dəyərləri nə dərəcədə əhatə etdiyini müəyyənləşdirməkdir. Sual, təhsil proqramlarının etik məsuliyyət, bərabər imkanlar və müxtəlifliyə hörmət prinsipləri əsasında qurulub-qurulmadığını, eləcə də tələbələrin sosial və vətəndaşlıq şüurunun formalaşdırılmasına verdiyi töhfəni qiymətləndirməyə xidmət edir.

R1 – Nyu-Hempşir Universitetində sosial ədalət, gender bərabərliyi və inklüzivlik prinsipləri kurikulumun və institusional dəyərlərin ayrılmaz hissəsidir. Bu prinsiplər ümumi təhsil fənləri, müxtəliflik və inklüzivlik təşəbbüsləri, eləcə də

fənn üzrə məzmun vasitəsilə əks olunur. Müəllimlər inklüziv tədris üsullarından, müxtəlif baxış bucaqlarından və bərabər öyrənmə imkanlarından istifadə etməyə təşviq olunurlar. Nəticədə, tələbələrdə yalnız akademik bacarıqlar deyil, həm də güclü sosial və etik məsuliyyət hissi formalaşır.

R4 – İtaliyada milli təhsil təlimatları inklüziv təhsili, gender bərabərliyini, vətəndaş məsuliyyətini və sosial ədaləti bütün fənlər üzrə əsas dəyərlər kimi müəyyən edir. Universitetlər bu mövzuları xüsusi modullar, inklüziv pedaqoji yanaşmalar, ayrı-seçkiliyə qarşı siyasətlər və bir çox proqramlarda məcburi etik və müxtəliflik təlimləri vasitəsilə kurikuluma inteqrasiya edirlər.

R10 – Bu prinsiplər proqram siyasətlərində və dərs müzakirələrində yer alır. Maarifləndirmə və bərabər münasibətin təşviqi istiqamətində müəyyən səylər göstərilir.

Seçilmiş respondent cavabları göstərir ki, sosial ədalət, gender bərabərliyi və inklüzivlik prinsiplərinin kurikuluma inteqrasiyası ölkədən-ölkəyə dərinlik və sistemlilik baxımından fərqlənir. ABŞ və İtaliya nümunələrində bu dəyərlər yalnız ayrıca mövzular kimi deyil, həm institusional siyasət, həm də tədris metodologiyası səviyyəsində kurikulumun əsas komponenti kimi çıxış edir. Bu ölkələrdə inklüziv pedaqogika, etik təhsil və müxtəlifliyə hörmət tələbələrin sosial məsuliyyətli və qlobal vətəndaş kimi formalaşmasına xidmət edir.

Azərbaycan nümunəsi isə bu prinsiplərin mövcud olduğunu, lakin daha çox proqram sənədləri və müzakirələr səviyyəsində yer aldığını göstərir. Bu, inklüzivlik və gender bərabərliyi mövzularının sistemli şəkildə kurikulumun bütün komponentlərinə inteqrasiyası üçün əlavə mexanizmlərə ehtiyac olduğunu göstərir.

**Sual 11. Əlilliyi olan tələbələr və fərqli mədəni mühitlərdən gələn tələbələr üçün bərabər imkanlar təmin olunurmu?**

Bu sualın məqsədi ali təhsil müəssisələrində inklüzivliyin praktik səviyyədə necə təmin olunduğunu, xüsusilə əlilliyi olan tələbələrin və fərqli mədəni, dil və sosial mühitlərdən gələn tələbələrin təhsilə çıxış imkanlarının bərabərliyini qiymətləndirməkdir. Sual, institusional dəstək mexanizmlərinin, hüquqi çərçivələrin və praktiki tətbiqlərin tələbələrin tam və effektiv iştirakını nə dərəcədə təmin etdiyini müəyyənləşdirməyə yönəlib.

R1 – Nyu-Hempşir Universiteti əlilliyi olan və müxtəlif mədəni mühitlərdən gələn tələbələr üçün bərabər imkanların təmin edilməsinə xüsusi diqqət yetirir. Universitetin Tələbə Əlçatanlıq Xidmətləri ofisi vasitəsilə akademik uyğunlaşdırmalar, köməkçi texnologiyalar və əlçatan tədris mühiti təqdim olunur, eyni zamanda mədəni müxtəlifliyi təşviq edən proqramlar, tələbə təşkilatları və kampus təşəbbüsləri hörmət, bərabərlik və aidiyyət hissini gücləndirir.

R3 – İtaliyada bərabər imkanların təmin edilməsi üçün güclü hüquqi və insti-

tusional baza mövcuddur. Universitetlər əlilliyi olan tələbələr üçün xüsusi dəstək xidmətləri, fərdiləşdirilmiş tədris uyğunlaşdırmaları, əlçatan texnologiyalar və ixtisaslaşmış tutorlar təqdim edir. Fərqli mədəni mühitlərdən gələn tələbələr üçün isə dil dəstəyi, mədəni vasitəçilik xidmətləri və inteqrasiya proqramları həyata keçirilir.

R9 – Qana Respublikasında inklüziv təhsil prinsipi tətbiq olunur və bütün tələbələr üçün bərabər imkanlar nəzərdə tutulur. Lakin fiziki mühitlə bağlı maneələr bu inklüzivliyin tam şəkildə reallaşmasına müəyyən çətinliklər yaradır.

Respondent cavablarının təhlili göstərir ki, bərabər imkanların təmin olunması istiqamətində ölkələr arasında həm normativ baza, həm də praktiki icra səviyyəsində fərqlər mövcuddur. ABŞ və İtaliya nümunələrində inklüzivlik sistemli şəkildə qurulmuş institusional strukturlar, ixtisaslaşmış xidmətlər və hüquqi mexanizmlər vasitəsilə təmin olunur. Bu ölkələrdə əlilliyi olan tələbələrin və mədəni müxtəlifliyə malik qrupların akademik və sosial həyata tam inteqrasiyası prioritet istiqamət kimi çıxış edir. Qana nümunəsi isə inklüziv təhsil siyasətinin mövcudluğuna baxmayaraq, infrastruktur və fiziki əlçatanlıq problemlərinin bu siyasətin effektiv icrasına mane ola bildiyini göstərir. Bu hal inklüzivliyin yalnız niyyət və siyasətlə deyil, həm də maddi-texniki resurslar və mühitin uyğunlaşdırılması ilə dəstəklənməsinin zəruriliyini göstərir.

**Sual 12. Əgər bu proqramı yenidən dizayn etmək imkanı verilsəydi, gələcək qlobal təhsil trendlərinə cavab verəcək bir əsas dəyişiklik nə olardı?**

Bu sualın məqsədi, mövcud təhsil proqramının gələcək qlobal təhsil trendlərinə nə dərəcədə uyğunlaşdırıla biləcəyini müəyyənləşdirmək, eləcə də respondentlərin perspektiv istiqamətlərini aşkarlamaqdır. Sual, proqram dizaynında innovasiya, çeviklik, rəqəmsallaşma və əmək bazarı ilə əlaqələndirmə kimi faktorların hansı istiqamətdə gücləndirilməli olduğunu qiymətləndirməyə xidmət edir.

R1 – Proqram yenidən dizayn edilərsə, davamlılıq, rəqəmsal innovasiya və qlobal əməkdaşlığa fokuslanan fənlərarası və texnologiya əsaslı öyrənmə təcrübələrinin inteqrasiyası prioritet olmalıdır. Bu dəyişiklik mühəndislik, texnologiya və ekoloji məsuliyyətin kəsişdiyi sürətlə dəyişən dünyada tələbələri gələcək çağırışlara hazırlayacaq və proqramı adaptasiya, innovasiya və mədəniyyətlərarası kompetensiyaları önə çəkən qlobal təhsil trendləri ilə uyğunlaşdıracaq.

R3 – Proqramın yenidən qurulmasında real dünya problemlərinə yönəlmiş, təcrübə əsaslı öyrənməyə üstünlük verilməlidir. Qlobal təşkilatlarla tərəfdaşlıqlar, icmayönümlü layihələr və innovasiya inkubatorları vasitəsilə tələbələr nəzəri biliklərini praktik mühitdə tətbiq edə, problem həlletmə və sahibkarlıq düşüncəsi bacarıqlarını inkişaf etdirə bilərlər.

R5 – Proqrama daha çox rəqəmsal savadlılıq və yeni texnologiyalar üzrə fən-

lərin daxil edilməsi tələbələrin sürətlə dəyişən qlobal əmək bazarına uyğunlaşmasına kömək edər. Xüsusilə onlayn əməkdaşlıq, süni intellekt və informasiya əsaslı qərarvermə bacarıqları gələcək trendlərə cavab verən əsas kompetensiyalar kimi ön plana çıxır.

Gələcək qlobal təhsil trendlərinə uyğunlaşma baxımından ən çox vurğulanan əsas dəyişikliklər rəqəmsallaşma, fənlərarası yanaşma və təcrübə əsaslı öyrənmənin gücləndirilməsidir. ABŞ və Cənubi Koreyadan olan respondentlərin cavabları texnologiya, süni intellekt və rəqəmsal savadlılığın proqram dizaynında mərkəzi yer tutmalı olduğunu göstərir. Bu yanaşma tələbələrin çevik, adaptiv və innovativ bacarıqlara yiyələnməsini təmin edir.

Böyük Britaniya nümunəsi isə yalnız texnoloji bacarıqların deyil, eyni zamanda real problemlərin həllinə yönəlmiş praktik təcrübənin və qlobal əməkdaşlığın vacibliyini ön plana çıxarır. Bu, qlobal təhsil trendlərində müşahidə olunan "learning by doing", sahibkarlıq və sosial təsiryönümlü yanaşmalarla üst-üstə düşür.

**Sual 13. Kurikulumun dəyişikliklərə uyğunlaşdırılması prosesi necə həyata keçirilir? Azərbaycan kurikulumu bu proses ilə müqayisədə daha çevikdir, yoxsa ləng gedir?**

Bu sualın verilməsində əsas məqsəd ali təhsil müəssisələrində kurikulumun dəyişikliklərə uyğunlaşdırılmasının necə həyata keçirildiyini, bu prosesin çevikliyini və Azərbaycan kurikulumu ilə müqayisədə sürət və effektivlik səviyyəsini müəyyən etməkdir. Müasir təhsildə kurikulumun dəyişən texnoloji, sosial və əmək bazarı tələblərinə operativ cavab verməsi mühüm əhəmiyyət daşıyır.

R1 – Mənim təcrübəmə görə, Nyu-Hempşir Universitetində kurikulumun uyğunlaşdırılması prosesi strukturlaşdırılmış, lakin nisbətən çevikdir. Kurikulum dəyişiklikləri akademik keyfiyyəti və institusional məqsədlərlə uyğunluğu təmin etmək üçün rəsmi baxış və təsdiq mərhələlərindən keçir. Eyni zamanda kafedralar texnoloji yeniliklərə, sənayenin tələblərinə və tələbə rəylərinə uyğun olaraq fənləri yeniləmək və yeni məzmun əlavə etmək üçün muxtariyyətə malikdirlər. Azərbaycan kurikulumu ilə müqayisədə bu proses daha çevik və operativdir. Yeni tədris metodlarının, fənlərarası mövzuların və qlobal trendlərin daha tez tətbiqinə imkan verir, eyni zamanda akademik ciddilik və nəzarət qorunur.

R11 – Mənim təcrübəmə görə, kurikulumun dəyişikliklərə uyğunlaşdırılması, xüsusilə müəllimlərlə sənaye tərəfdaşları arasında əməkdaşlıq olduqda, olduqca dinamik ola bilir.

R8 – Prosesə müəllimlər, inzibatçılar və mütəxəssislər daxil olmaqla müxtəlif maraqlı tərəflər cəlb olunur və ümumilikdə, çevikdir, yeniləmələrə, təkmilləşdirmələrə imkan yaradır. Digər ölkələrlə müqayisədə sürət oxşar ola bilər, lakin aktuallığı qorumaq üçün davamlı səylər tələb olunur.

R2 və R6 qeyd edirlər ki, İtaliyada kurikulumun uyğunlaşdırılması sistemli və sübutlara əsaslanan yanaşma ilə həyata keçirilir. Dəyişikliklər akademik komitələr tərəfindən qiymətləndirilir və Avropa İttifaqı çərçivələri ilə uyğunlaşdırılır. Lakin normativ tələblər və çoxsəviyyəli idarəetmə səbəbindən bu proses bəzi hallarda daha mərhələli və ləng ola bilir.

R3 və R7 cavablarında kurikulumun mütəmadi icmallar, müəllim müzakirələri və sənaye tərəfdaşlarının rəyləri əsasında çevik şəkildə yeniləndiyi vurğulanır. Bu ölkələrdə proqramların aktual saxlanması və əmək bazarına uyğunlaşdırılması prioritet təşkil edir.

R9 və R5 cavablarında resurs çatışmazlığı və anlayış fərqləri diqqət çəkir. Xüsusilə Qana Respublikasında infrastruktur və material məhdudiyyətləri kurikulumun effektiv tətbiqini çətinləşdirir. Əldə edilən nəticələr göstərir ki, kurikulumun dəyişikliklərə uyğunlaşdırılması prosesi əksər ölkələrdə strukturlaşdırılmış və mərhələli şəkildə həyata keçirilsə də, çeviklik səviyyəsi fərqlidir.

ABŞ, Kanada və Böyük Britaniya kimi ölkələri təmsil edən respondentlərin cavablarında bu prosesin daha çevik, operativ və əmək bazarının tələblərinə həssas olduğu vurğulanır. Bu ölkələrdə müəllim və kafedraların kurikulumun yenilənməsində daha fəal rol oynaması, sənaye tərəfdaşlarının və tələbə rəylərinin nəzərə alınması dəyişikliklərin daha sürətli tətbiqinə imkan yaradır. Digər tərəfdən, İtaliya, Almaniya və Cənubi Koreya kimi ölkələrdə kurikulumun uyğunlaşdırılması daha çox normativ çərçivələrə, akademik standartlara və keyfiyyət təminatı mexanizmlərinə əsaslanır.

**Sual 14. Sizin ölkənizdə tətbiq olunan kurikulum modeli ilə müqayisədə yerli kurikulum modeli (Azərbaycan) sosial-mədəni kontekstə nə dərəcədə uyğunlaşdırılıb?**

Bu sualın məqsədi, kurikulumun yerli sosial-mədəni dəyərlərə və kontekstə nə dərəcədə uyğunlaşdırıldığını və bunun Azərbaycan kurikulumu ilə müqayisəsini müəyyən etməkdir. Sosial-mədəni uyğunluq tədris prosesinin effektivliyinə və biliklərin real həyatla əlaqələndirilməsinə birbaşa təsir göstərir.

R2 – Fəaliyyət göstərdiyim universitetdə kurikulum, əsasən, Avropa və qlobal perspektivlə hazırlanır, beynəlxalq standartlara, bacarıqlara və səriştələrə əsaslanır. Azərbaycan konteksti ilə müqayisədə yerli sosial-mədəni xüsusiyyətlərə daha az uyğunlaşdırılıb. Bəzi fənlərdə müxtəlif mədəniyyətlərdən nümunələr və praktikadan istifadə olunsa da, əsas diqqət tələbələri yalnız yerli məsələlərə deyil, qlobal karyeraya və mədəniyyətlərarası anlayışa hazırlamağa yönəlib.

R4 – Kurikulum Azərbaycan sosial-mədəni kontekstinə orta səviyyədə uyğunlaşdırılıb. Əsas akademik məzmun beynəlxalq standartlara uyğun qalsa da, nümunələr, praktiki hallar və bəzi tədris materialları yerli mədəniyyəti, tarixi və ictimai problemləri əks etdirəcək şəkildə tərtib olunur. Mənim ölkəmdəki kuri-

kulumla müqayisədə bu uyğunlaşdırma tələbələrin öyrəndiklərini yerli mühit və çətinliklərlə daha yaxşı əlaqələndirməsinə kömək edir.

R11 – Bu suala necə cavab verəcəyimi başa düşmürəm. Mənim kursum 100% Ukrayna reallıqlarına uyğunlaşdırılıb.

R1 və R3 bildirirlər ki, onların tədris etdikləri kurikulum, əsasən, ABŞ-ın akademik və mədəni mühitinə uyğunlaşdırılıb və qlobalyönümlüdür. Azərbaycan kurikulumu isə daha çox milli dəyərlərə, yerli problemlərə və sosial prioritetlərə fokuslanır.

R7 və R8 cavablarında kurikulumun qismən yerli kontekstə uyğunlaşdırıldığı, lakin qlobal vətəndaşlıq və beynəlxalq bacarıqların ön planda olduğunu qeyd edirlər.

R10 – Yerli dəyərlərlə beynəlxalq standartlar arasında balans yaratmaq əsas məqsəd olmalıdır.

Əldə olunan cavabların təhlili göstərir ki, kurikulumun sosial-mədəni kontekstə uyğunlaşdırılması məsələsində Azərbaycan kurikulumu daha lokalyönümlü xarakter daşıyır. Bir çox xarici respondentlər öz ölkələrində tətbiq olunan kurikulumların, əsasən, qlobal və beynəlxalq standartlara fokuslandığını, yerli mədəni elementlərin isə ikinci planda qaldığını bildirirlər. Azərbaycan kurikulumu isə milli dəyərlərin, tarixi-mədəni irsin, dil və sosial prioritetlərin tədris məzmununa inteqrasiya olunmasına xüsusi diqqət yetirir. Bu yanaşma tələbələrin biliklərini yerli reallıqlar və cəmiyyətin aktual problemləri ilə əlaqələndirməsinə imkan yaradır. Bununla yanaşı, bəzi respondentlərin cavabları göstərir ki, Azərbaycan kurikulumu, eyni zamanda beynəlxalq standartlarla uyğunlaşmağa çalışır və bu iki yanaşma arasında balans yaratmaq əsas məqsədlərdən biri kimi çıxış edir.

Beləliklə, yerli sosial-mədəni kontekstin qorunması ilə qlobal bacarıqların inkişafı arasında tarazlıq yaratmaq Azərbaycan kurikulumunun mühüm xüsusiyyəti kimi qiymətləndirilə bilər.

**Sual 15. Tədris proqramı müəllimlərə təlimin məzmun və metodlarını seçməkdə nə dərəcədə sərbəstlik verir?**

Bu sual müəllimlərin tədris prosesində metod və məzmun seçimi baxımından nə dərəcədə muxtariyyətə malik olduqlarını müəyyən etmək məqsədi daşıyır. Müəllim muxtariyyəti tədrisin keyfiyyətinə və yaradıcılığın inkişafına mühüm təsir göstərir.

R6 – Proqram müəllimlərə kifayət qədər sərbəstlik verir. Biz, əsasən, kurikulum məqsədlərinə əməl edirik, lakin öz tədris metodlarımızı, nümunələrimizi və materiallarımızı seçə bilirik. Bu çeviklik dərsləri tələbələrin ehtiyaclarına uyğunlaşdırmağa və mövzunu daha maraqlı və praktik etməyə imkan verir.

R7 – Proqram tələb olunan mövzular üçün ümumi çərçivə təqdim edir, lakin

tədris metodlarının, resursların və nümunələrin seçilməsində çeviklik yaradır. Bu azadlıq müəllimlərə dərsləri tələbələrin ehtiyaclarına uyğunlaşdırmağa və öyrənməni daha cəlbedici etməyə kömək edir.

R1 və R2, R3, R4, R5 cavablarında müəllimlərin yüksək səviyyədə sərbəstliyə malik olduqlarını qeyd edirlər. Müəllimlər öyrənmə nəticələrinə uyğun olaraq metodları, materialları və qiymətləndirmə üsullarını sərbəst seçə bilirlər.

R9 və R13 isə müəllimlərin demək olar ki, tam sərbəst olduğunu qeyd edirlər.

Cavablar göstərir ki, müxtəlif ölkələrdə tətbiq olunan kurikulum modelləri struktur və yanaşma baxımından fərqli olsa da, ümumi məqsəd eynidir: şagirdlərdə möhkəm bilik bazası formalaşdırmaqla yanaşı, onlarda bacarıq və kompetensiyaları inkişaf etdirmək. Kurikulumlar, əsasən, nəzəri biliklə praktik tətbiqin əlaqələndirilməsinə, tənqidi və yaradıcı düşünmənin, problem həlletmə, ünsiyyət və əməkdaşlıq bacarıqlarının formalaşdırılmasına yönəlib.

Kurikulumun əmək bazarının tələblərinə uyğunluğu bir çox ölkədə təmin olunsa da, bu uyğunluq dinamik xarakter daşıyır və davamlı yenilənmə tələb edir. Sənaye ilə əməkdaşlıq, praktik məşğələlər, layihə əsaslı və tətbiqyönümlü təlim bu uyğunluğu gücləndirən əsas amillər kimi ön plana çıxır. Eyni zamanda bəzi ölkələrdə nəzəri təlimin üstünlük təşkil etməsi real iş mühiti ilə əlaqənin zəifləməsinə səbəb ola bilir.

Sorğu iştirakçılarının cavablarına və ümumi araşdırmaya, əsasən, ölkələr üzrə kurikulumların təhlilini aşağıdakı formada təhlil etmək olar:

**1. Amerika Birləşmiş Ştatları**

ABŞ təhsil sistemi çoxsaylı təhsil proqramları və geniş çeşidli tədris metodları ilə tanınır. Tədris proqramları, həm nəzəri bilikləri, həm də praktiki bacarıqları inkişaf etdirməyə yönəlmişdir. Respondentlərin verdiyi cavablara əsasən, ABŞ-da tədris proqramlarının yenilənməsi və tədris metodlarının inkişafı, yüksək təhsil səviyyəsinə malik olan və mütəmadi olaraq peşəkar inkişaf təlimləri keçən müəllimlər vasitəsilə həyata keçirilir. Tədris proqramlarında müasir metodlar, xüsusilə laboratoriya işləri, layihə əsaslı öyrənmə və istehsalat təcrübələri geniş tətbiq olunur. Bununla yanaşı, sorğu iştirakçıları bildirmişlər ki, bəzi çətinliklər mövcuddur, məsələn, bəzi tədris proqramları hələ də nəzəriyyə ilə məhdudlaşır və praktik tətbiq sahələrində zəifliklər mövcuddur.

*Tövsiyə:* ABŞ-da tədris proqramlarının müasir tələblərə uyğunlaşması və müəllimlərin daha çox praktiki bacarıqlar üzərində təlim alması təmin edilməlidir.

**2. Böyük Britaniya**

Böyük Britaniyada tədris proqramları və kurikulum islahatları şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Respondentlərin verdikləri cavablarda, burada kurikulumun təkmilləşdirilməsi prosesində, həmçinin sənaye

nümayəndələrinin iştirak etdiyi və əmək bazarının tələblərinin nəzərə alındığı vurğulanır. Tədris proqramlarında nəzəri biliklərdən əlavə, şagirdlərə əməkdaşlıq, tənqidi düşüncə və problem həlletmə bacarıqları da qazandırılır. Lakin bəzi respondentlər qeyd edirlər ki, müəyyən fənlərdə bu bacarıqların inkişafı hələ də kifayət qədər sürətli deyil və tədris metodlarının daha çevikliyinin artırılması lazım gəlir.

*Tövsiyə:* Böyük Britaniyada tədris proqramlarının tətbiqi zamanı müəllimlər daha çox təcrübə əsaslı təlimlər və müxtəlif metodlarla inkişafı təmin etməlidir.

**3. İtaliya**

İtaliya təhsil sistemində tətbiq olunan kurikulum daha çox nəzəri biliklər və konseptual bacarıqların prioritetliyinə əsaslanan yanaşmaya malikdir. Aparılan sorğulara əsasən qeyd etmək olar ki, İtaliyada kurikulum mütəmadi olaraq yenilənir və şagirdlərin praktiki bacarıqlarını artırmağa çalışır. Lakin bəzi cavablarda göstərilir ki, sosial və humanitar sahələrdə tədris metodları bəzən praktiki tətbiqdən daha çox nəzəriyyəyə yönəlir, bu da şagirdlərin əmək bazarına hazırlığının zəif olmasına səbəb ola bilər. Ölkənin təhsil sistemində tətbiq edilən kurikulum fənlərarası inteqrasiyanın güclü olması ilə diqqət çəkir və bu yanaşma tələbələrin daha geniş dünyagörüşü və əlaqəli düşünmə bacarıqlarını inkişaf etdirmələrinə imkan verir.

*Tövsiyə:* İtaliyada sosial sahələrdə daha çox təcrübə əsaslı tədris proqramlarına və əmək bazarının tələblərinə uyğunlaşmağa ehtiyac var.

**4. Kanada**

Kanada təhsil sahəsində yüksək keyfiyyətli və effektiv tədris proqramları ilə səciyyələnir. Respondentlər bildirirlər ki, Kanadada kurikulum, xüsusilə mühəndislik və təbiət elmləri sahələrində əmək bazarının tələblərinə uyğunlaşmaq məqsədilə mütəmadi olaraq yenilənir. Kanada təhsilində praktiki bacarıqların artırılması üçün layihə əsaslı tədris və təcrübə proqramları əhəmiyyətli rol oynayır. Lakin bəzən bəzi fənlərdə, xüsusilə humanitar sahələrdə, praktiki təcrübə çatışmazlığı problemi mövcuddur. Bu problemlər, əsasən, akademik tədrisin praktiki tətbiqdən fərqləndiyi sahələrdə daha çox təcrübə proqramlarının olmaması ilə əlaqədardır.

*Tövsiyə:* Kanada təhsil sistemində humanitar istiqamətlər üzrə təcrübəyönümlü tədrisin genişləndirilməsi və şagirdlərin əmək bazarının tələblərinə uyğun daha effektiv hazırlığının təmin edilməsi vacib hesab olunur.

**5. Cənubi Koreya**

Cənubi Koreya təhsil sistemi dünyanın ən inkişaf etmiş təhsil sistemlərindən biridir. Respondentlərin cavablarına əsasən, demək olar ki, kurikulum həm nəzəri bilikləri, həm də praktik bacarıqları inkişaf etdirməyə çalışır. Cənubi Koreyada tədris metodları çox yüksək standartlara malikdir və tədris proqramlarının

yenilənməsi mütəmadi olaraq həyata keçirilir. Ancaq bəzi respondentlər qeyd edirlər ki, tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşması baxımından, hələ də bəzi boşluqların olması şagirdlərə konkret iş bacarıqları qazandırmaqda çətinliklər yaradır.

*Tövsiyə:* Cənubi Koreyada tədris proqramları əmək bazarının tələblərinə daha çevik cavab verən və şagirdləri konkret iş bacarıqları ilə təmin edən yeni metodlar tətbiq etməlidir.

**6. Almaniya**

Almaniya, tədris proqramlarında təcrübə əsaslı yanaşmanın tətbiqi ilə tanınır. Respondentlər bildirirlər ki, burada tədris proqramları, xüsusilə texniki sahələrdə, praktik bacarıqları inkişaf etdirmək məqsədilə nəzəri biliklərlə sıx birləşdirilir. Tələbələrə laboratoriya işləri, təcrübə proqramları və istehsalat təcrübələri vasitəsilə praktiki bacarıqlar qazandırılır. Lakin bəzi respondentlər qeyd edirlər ki, sosial sahələrdə, məsələn, psixologiya və sosial iş sahələrində, praktiki təcrübə məhdud ola bilər. Bu, şagirdlərin sosial və psixoloji bacarıqlarını inkişaf etdirmək üçün əlavə təlimlərə ehtiyac olduğunu göstərir.

*Tövsiyə:* Almaniya təhsilində sosialyönümlü praktik təcrübələrin genişləndirilməsi və bu sahələrdə də tədris proqramlarının daha çevik və əmək bazarına uyğunlaşdırılması zəruri hesab edilir.

**7. Filippin**

Filippin təhsil sistemində tətbiq edilən kurikulum şagirdlərin nəzəri biliklərini inkişaf etdirmək üçün strukturlaşdırılmış və mərhələli yanaşmalarla hazırlanır. Lakin respondentlər bildirirlər ki, praktik bacarıqların inkişaf etdirilməsi üçün daha çox işlər həyata keçirilməlidir. Filippində tədris proqramları, əsasən, nəzəri biliklərin inkişaf etdirilməsinə yönəldiyi üçün şagirdlərə əmək bazarında faydalı olan bacarıqları təmin etməkdə çətinliklər yaranır. Bu, təhsil sistemində praktik təcrübələrin artırılması üçün əlavə addımların atılmasının vacibliyini göstərir.

*Tövsiyə:* Filippində tədris proqramlarında nəzəri biliklərlə yanaşı, daha çox praktik təcrübə və əmək bazarının tələblərinə uyğunlaşdırılmış təlimlərin tətbiq edilməsi zəruri hesab edilir.

**8. Qana Respublikası**

Qana təhsil sistemi, xüsusilə humanitar sahələrdə nəzəri bilikləri güclü şəkildə tətbiq etməklə məşhurdur. Respondentlər bildirirlər ki, burada kurikulum, əsasən, nəzəri bilikləri vurğulayır, praktik bacarıqların inkişaf etdirilməsi üçün daha çox imkan yaradılmalıdır. Qanada tədris proqramlarının iş bazarına uyğunlaşması, daha çox praktiki bacarıqların və peşəkar təcrübələrin artırılması baxımından inkişaf etməlidir.

*Tövsiyə:* Qana təhsil sistemində tətbiq edilən tədris proqramları praktiki bacarıqları daha da inkişaf etdirməli və əmək bazarının tələblərinə uyğunlaşdırmalıdır.

**9. Azərbaycan Respublikası**

Azərbaycan təhsil sistemində tətbiq edilən kurikulum islahatları, tədris proqramlarının şagirdyönümlü və praktiki bacarıqları gücləndirən yanaşmalarla yenilənməsini hədəfləyir. Respondentlərin cavablarında tədris proqramlarının nəzəri biliklərlə yanaşı, praktik bacarıqları da əhatə etdiyi göstərilir. Lakin bəzi respondentlər qeyd edirlər ki, praktik tətbiqin artırılması və tədris metodlarının daha çevik təşkili vacib hesab edilir. Bu, şagirdlərin iş dünyasına hazırlığının artırılması və əmək bazarının tələblərinə uyğun tədris proqramlarının tətbiqi ilə mümkündür.

*Tövsiyə:* Azərbaycan təhsil sistemində tədris proqramlarının praktik bacarıqlar üzərində daha çox fokuslanması və müasir əmək bazarının tələblərinə uyğunlaşdırılması zəruridir.

Tədris proqramları və kurikulum islahatları, müxtəlif ölkələrdə fərqli yanaşmalarla həyata keçirilsə də, ümumilikdə, şagirdlərin nəzəri biliklərini və praktik bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Respondentlərin cavablarına əsaslanaraq qeyd etmək olar ki, tədris proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması və fənlərarası inteqrasiyanın gücləndirilməsi vacibdir. Hər bir ölkə kurikulum islahatlarını həyata keçirərkən, tədris metodlarının yenilənməsi və şagirdlərin əmək bazarına hazırlığını təmin etmək üçün daha çevik və praktiki yanaşmalar tətbiq etməlidir.

## Nəticə / Conclusion

Aparılan təhlil və respondentlərin cavabları göstərir ki, tədris proqramları və kurikulum islahatları təhsil sistemlərinin inkişafında əsas rol oynayır və hər bir ölkənin təhsil sahəsindəki uğurlarının əsasını təşkil edir. Respondentlərin əksəriyyəti kurikulumun yalnız nəzəri bilikləri deyil, həm də şagirdlərin praktik bacarıqlarını inkişaf etdirmək məqsədi daşıdığını qeyd etmişdir. Xüsusilə layihə əsaslı öyrənmə, laboratoriya işləri, real həyat situasiyalarına əsaslanan tapşırıqlar və istehsalat təcrübələri bu balansın təmin olunmasında mühüm rol oynayır.

Tədris proqramları müasir tələblərə uyğunlaşmaqla yanaşı, şagirdlərin əmək bazarına hazırlanmasını təmin etməlidir. Təhsil islahatları, xüsusən də müəllimlərin peşəkar inkişafını və tədris metodlarını təkmilləşdirmək məqsədi daşıyır. Beynəlxalq təcrübələr göstərir ki, kurikulumun effektivliyi yalnız nəzəri biliklərdən ibarət olmamalı, proqram həm də şagirdlərə tənqidi düşünmə, problem həlletmə, yaradıcı yanaşma, əməkdaşlıq və adaptasiya kimi bacarıqları qazandırmalıdır. Bunun üçün müəllimlərin tədris metodları və yanaşmalarının mütəmadi olaraq yenilənməsi vacibdir.

Fənlərarası inteqrasiyanın və kurikulumun əmək bazarının tələblərinə uy-

ğunluğu tədris proqramlarının güclü tərəfləridir. Bir çox respondent, tədris proqramlarında biliklərin müxtəlif fənlər arasında əlaqələndirilməsinin və şagirdlərdə kompleks düşünmə bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. Lakin bəzi ölkələrdə bu inteqrasiyanın dərinliyi və tətbiqi hələ də məhdud qalmışdır. Bu, kurikulum islahatlarının sistemli və davamlı şəkildə həyata keçirilməsini tələb edir.

Tədris proqramları və kurikulum islahatlarının monitorinqi, təhsil sistemlərinin inkişafında əhəmiyyətli rol oynayır. Respondentlər bildirirlər ki, kurikulumun keyfiyyətinə nəzarət üçün müxtəlif qiymətləndirmə mexanizmləri mövcuddur, lakin qeyd edilən prosesin şəffaflıq və iştirakçılıq səviyyəsi ölkələr arasında dəyişir. Bu, kurikulumun davamlı yenilənməsini və əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılmasını təmin edir.

Ümumilikdə, tədris proqramlarının keyfiyyətini artırmaq və beynəlxalq uyğunluğunu gücləndirmək üçün ölkələr, xüsusən də müəllimlərin təlimi, fənlərarası inteqrasiyanın gücləndirilməsi və əmək bazarının tələblərinə uyğunluğun artırılması istiqamətində daha çevik və müasir yanaşmalar tətbiq etməlidirlər. Kurikulum islahatları yalnız nəzəri biliklərin ötürülməsi ilə deyil, həm də şagirdlərin praktiki bacarıqlarını inkişaf etdirmək, onların əmək bazarına uyğunlaşmalarını təmin etmək məqsədi daşımalıdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər, təhsil sistemlərinin davamlı inkişafına və şagirdlərin gələcəkdə uğurlu karyeralar qurmasına kömək edəcəkdir.

**Məqalənin aktuallığı.** Məqalənin aktuallığı müasir təhsil sistemlərində kurikulumun beynəlxalq standartlara uyğunlaşdırılması və qlobal təhsil trendlərinə inteqrasiyası məsələsinin ön plana çıxması ilə bağlıdır. Rəqəmsal transformasiya, süni intellektin tətbiqi, əmək bazarında yeni bacarıqlara tələbat və inklüziv təhsil prinsiplərinin genişlənməsi kurikulumların yenidən dizayn edilməsini zəruri edir. Azərbaycan ümumtəhsil kurikulumunun məqalədə beynəlxalq təcrübə fonunda təhlili və qiymətləndirilməsi həm nəzəri, həm də praktik baxımdan aktualdır.

**Məqalənin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi müxtəlif ölkələrin kurikulum modellərinin respondent cavabları əsasında müqayisəli təhlilinin aparılması və bu nəticələrin Azərbaycan kurikulumu ilə sistemli şəkildə əlaqələndirilməsidir. Tədqiqat çərçivəsində kurikulumun keyfiyyəti yalnız məzmun baxımından deyil, həm də əmək bazarına uyğunluq, inklüzivlik, sosial ədalət prinsipləri, tələbə iştirakçılığı və monitorinq mexanizmləri kontekstində kompleks şəkildə qiymətləndirilmişdir. Bu yanaşma kurikulumun beynəlxalq uyğunluğunun çoxşaxəli analizini təqdim edir.

**Məqalənin praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri təhsil siyasətçiləri, kurikulum tərtibatçıları və ali təhsil müəssisələrinin rəhbərləri üçün praktik əhəmiyyət kəsb edir. Məqalədə irəli sürülən tövsiyələr tədris proqramlarının əmək ba-

zarının tələblərinə uyğunlaşdırılması, fənlərarası inteqrasiyanın gücləndirilməsi, müəllimlərin peşəkar inkişafının dəstəklənməsi və keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsi baxımından istifadə oluna bilər. Eyni zamanda əldə edilən nəticələr Azərbaycan kurikulumunun beynəlxalq təcrübəyə inteqrasiyası prosesində strateji qərarların qəbuluna elmi əsas yaradır.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Adilah, N., Galvez, J., Suliyanah, S., & Deta, U. A. (2023). Analisis Implementasi Kurikulum Cambridge pada Salah Satu Sekolah Internasional di Jakarta. Jurnal Ilmu Pendidikan dan Pembelajaran, 2(1), 48–64.
2. Fullan, M. (1994). Coordinating Top-Down and Bottom-Up Strategies for Educational Reform.
3. Gentry, B. (2020). The State of International Studies: Curriculum Design.
4. Leask, B. (2016). Internationalizing Curriculum and Learning for All Students.
5. Mikayilova, U., & Kazimzade, E. (2016). Teachers as Reflective Learners: Teacher Perception of Professional Development in the Context of Azerbaijan’s Curriculum Reform. Voprosi obrazovaniya / Educational Studies Moscow, (2), p.p.125-145.
6. Masut, V.R. (2025). Trends in International, National, and Local Curriculum….
7. Ndaipa, C.J. (2023). Internationalisation of the Curriculum in Higher Education.
8. Richter, J.J. (2015). The International Curriculum: Current Trends and Emerging Needs.
9. Tröhler, D. (2014). International Curriculum Research. In International Handbook of Curriculum Research. Routledge, p.p.60-66
10. Yao, K.C., Tseng, F.-L., & Chan, C.-C. (2025). Transforming Education: The Impact of Integrating International Education into School Curricula. Sustainability, 17(10), p.p.4462.